www.musavat.com

# YENİ MÜSAVAT

Qurucusu: Rauf Arifoğlu Gündəlik qəzet 9 yanvar 2017-ci il Bazar ertəsi № 3 (6617) Qiymәti 60 qәpik

**Xəbər**

**Bakıda Iraq "Airlines"in meneceri niyə güllələndi - təfərrüat**

yazısı səh.2-də

**Gündəm**

**Hərbi ekspert əsgərimizin cəsədinin necə alınacağının anonsunu verdi - "Ermənilər peşman olacaqlar..."**




Şeyx şəhid əsgərimizə görə katolikosa müraciət edəcəkmi?

yazısı səh.3-də

**10 yaşlı Nurayın məsələsi böyüyür - son gəlişmələr, rəylər**

yazısı səh.10-da

**Çingiz Baxşıyev sabiq direktoru vətəndaşlıqdan imtina həddinə çatdırıb**

yazısı səh.13-də

**Avropa Birliyi Azərbaycanla da viza rejimini ləğv edə bilər**

yazısı səh.9-da

**Musa Yaqub od püskürdü - "Ana dilimizi..."**

yazısı səh.13-də

**Qarabağ məsələsində Azərbaycanın 2017 prioriteti**

yazısı səh.11-də

**Bakıda bir ailənin yanaraq kül olduğu yerdə "yolka" qurulub - üzüntülü mənzərə**

yazısı səh.14-də

**Ölkəni bürüyən qorxulu virusdan necə qorunmalı...**

yazısı səh.13-də

**Türkiyə 10 il əvvəlki siyasətinə qayıdır - strateji dönüş**

yazısı səh.12-də

**2016-cı ildə Ermənistanı 60 min insan tərk edib - işğalçı ölkənin boşalması sürətlənib**

yazısı səh.11-də

**Azərbaycanda online alver dönəmi bitir?**

yazısı səh.15-də

## Düşmənə qarşı informasiya savaşında mühüm presedent

# İRƏVANIN QARABAĞ TƏBLİĞATINA ZƏRBƏ - LAPŞİN AZƏRBAYCANA GÖNDƏRİLİR

İşğal altındakı ərazilərə qanunsuz səfər edib separatçı rejimi təbliğ edən şəxsi Minsk bu həftə Bakıya təhvil verə bilər; Ermənistanın kontur-tədbirləri fiasko olur; Lapşinin az sonra Azərbaycandan İsrailə ötürülməsi mümkünmü?




yazısı səh.8-də

## Rəşad Məmmədovun həbsinin şok detalları - istintaq işində Əli Əsədovun adı keçir

Bayraq Meydanı rəisinin qandallanması barədə yeni bilgilər üzə çıxıb; sabiq rəisin saxlanması üçün general Sübahir Qurbanov Eldar Mahmudovdan əmr alıbmış...

yazısı səh.4-də



**Əli İnsanovun azadlığı üçün iki şərt**

yazısı səh.4-də



*Fəzail Ağamalı:*

**"Zəngəzurun geri qaytarılması haqda qərar qəbul edə bilərik"**

yazısı səh.7-də



**Psixi xəstələr də Eldar Mahmudovun hədəfində olubmuş**

yazısı səh.5-də

YENİ MÜSAVAT
N 3 (6617) 9 yanvar 2017



## Höccətul-İslam Əzimi Qədim yenidən həbs edildi

**İran hakimiyyətinin azərbaycanlı fəallara qarşı təzyiqləri müxtəlif formalarda davam edir. Tanınmış azərbaycanlı milli-mədəni fəal Höccətul-İslam Əbdüləziz Əzimi Qədim digər fəal Əli Baqiri ilə birlikdə təhlükəsizlik qüvvələri tərəfindən saxlanılıb. Fəallar yanvarın 7-i səhər saatlarında Tehranda mülki geyimli məmurlar tərəfindən tutulub. Onların tutulmasının səbəbi və harada saxlandıqları barədə hələlik heç bir məlumat yoxdur.**

Əbdüləziz Əzimi Qədim bundan öncə də Azərbaycan türk millətinin milli və demokratik hüquqları uğrunda apardığı dinc mübarizəyə görə dəfələrlə təhlükəsizlik qüvvələri tərəfindən saxlanılıb və müxtəlif təzyiqlərə məruz qalıb.

Qeyd edək ki, o, Qarabağ məsələsində birmənalı və şəffaf mövqe nümayiş etdirərək, müxtəlif tədbirlərdə Ermənistanın işğalçı siyasətini kəskin şəkildə pisləyən bəyanatların müəllifidir. Hərəkat fəalı bundan əvvəl ötən ilin aprelində qısamüddətli həbs edilmişdi.

❑ **Cavid TURAN**



## Goranboy sakini evini bayrağımızın rənginə boyadı

**Goranboy rayon sakini Qaryağdı Həsənov dövlət rəmzimiz olan üçrəngli bayrağa sevgisini qeyri-adi formada nümayiş etdirib. Report xəbər verir ki, o, Tatarlı kəndində inşa etdirdiyi evi üçrəngli Azərbaycan bayrağına bürüyüb.**

Ev tikilib ərsəyə gəldikdən sonra Qaryağdı Həsənov onu göy, qırmızı, yaşıl rəngə boyatdıraraq üzərinə ay-ulduz şəkli çəkdirib. Hündür ərazidə tikilən ev qonşu kəndlərdən də görünərək diqqət çəkir.

Q.Həsənov ikimərtəbəli evin inşasına 2016-cı ildə başlayıb. Tikinti işləri sürətləndikdən sonra arzusunu reallaşdırıb. 2 otaqdan, 1 eyvandan ibarət olan evin 2-ci mərtəbəsində hələ ki işlər yekunlaşmayıb.

Cəbhə rayonu olan Goranboyun Tatarlı kəndində tikilən evə Q. Həsənov 5 min manatdan çox xərc çəkib. O, gələcəkdə evin dam örtüyünü də göy, qırmızı yaşıl rəngli keramika ilə örtəcəyini deyib.

**"Qaya Mətbuat Yayımı" MMC!**

**- İstənilən qəzet və jurnallar həm də sərfəli qiymətə:**

- Əgər siz qəzet və jurnalların rahatlıqla evinizə və ya ofisinizə çatdırılmasını;
- Mətbuatı aldıqdan sonra abunə haqqını ödəmək və bu ödənişin formasını sərbəst seçmək hüququndan istifadə etmək;
- Tirajınızda lazım gəldikdə dəyişikliklər etmək;

**Ən başlıcası ayda 26 dəfə nəşr olunan "Yeni Müsavat" - 0.60 AZN və bundan əlavə 2500 adda yerli və xarici nəşrlər.**

- Abunə yazılmaq üçün uzağa getmək lazım deyil.

**Telefonla zəng etməyiniz kifayətdir:**
**Bakı şəh. 564-63-45; 598-35-22**

- Respublikanın digər böyük şəhərlərinə də abunə qəbul olunur.

# İran universitetlərindən birində Azərbaycan dili və ədəbiyyatı tədris ediləcək

**Urmiya Universitetində Azərbaycan dili və ədəbiyyatı fənninin tədrisi üçün müvafiq icazə alınıb. APA-nın Tehran bürosunun məlumatına görə, bunu jurnalistlərə açıqlamasında Urmiya Universitetinin rektoru Rəhim Hubnəqi bildirib.**

R.Hubnəqi deyib ki, gələn semestrdən universitetdə Azərbaycan dili və ədəbiyyatı fənni üzrə 2 dərs tədris olunacaq. Azərbaycan dili dərsində iştirak könüllü olacaq.



Qeyd edək ki, Urmiya Universitetində 16 min 826 tələbə təhsil alır. Bu universitetdə müxtəlif sahələr üzrə 87 fənn üzrə dərslər keçirilir. Universitetin 487-dən çox müəllim-professor heyəti var.

Xatırladaq ki, 5 ay öncə İran Təhsil və Qiymətləndirmə Təşkilatı ilk dəfə olaraq 2016-2017-ci tədris ilində universitetlərin qəbul imtahan proqramına Azərbaycan dili və ədəbiyyatı fənnini də əlavə edib. Humanitar fənlər üzrə tələbə qız və oğlanların 2016-2017-ci tədris ilində Azərbaycan dili fənni üzrə də təhsil ala biləcəkləri açıqlanıb. Azərbaycan dili və ədəbiyyatı fənni universitetlərdə bakalavr pilləsi üzrə tədris olunacaq.

İran Konstitusiyası 15 və 19-cu maddələrində ana dilində tədris məsələsini nəzərdə tutur. Lakin bu iki maddə uzun illərdir ki, icra olunmayıb. Prezident Həsən Ruhaninin rəhbərlik etdiyi hökuməti bu maddələrin icrasına başlayıb.



## Telejurnalist canlı yayımda donma təhlükəsi yaşadı

**Bir neçə gündür ki, İstanbulu təsiri altına alan güclü qar "Kanal D"-nin xəbər buraxılışını təqdim edən müxbiri Fulya Öztürkə canlı yayımda çətin anlar yaşadıb.**

Musavat.com Türkiyə mətbuatına istinadən xəbər verir ki, Zincirlikuyuda yaşanan tıxac barədə məlumat verən müxbir canlı yayımda donma təhlükəsi yaşayıb. 3 dəqiqəyə yaxın efirdə olan F.Öztürkün soyuq hava səbəbiylə danışmaqda çətinlik çəkdiyi də diqqətdən qaçmayıb.

"Kanal D" Ana Xəbər spikeri Serdar Cebe "Aman Fulya, aman" deyirəm. Sən də diqqət et! Üzünü sil, donma təhlükəsi yaşaya bilərsən" - deyərək, müxbirə xəbərdarlıq edib.

Qeyd edək ki, İstanbulda bir qar fəlakəti yaşanır. 2017-ci ilin 6 yanvar tarixində başlayan qar İstanbul və bir sıra şəhərlərdə həyatı iflic edib. Gəmi səfərləri təxirə salınıb, təyyarə səfərləri gecikir. Hətta İstanbul və Bakı arasında nəzərdə tutulan təyyarə reyslərində də gecikmələr və təxirə salınmalar var.

❑ **KÖNÜL**

## Türkiyə Silahlı Qüvvələri Baş Qərargahının səlahiyyətləri azaldıldı

**Türkiyə Silahlı Qüvvələri Baş Qərargahının səlahiyyətləri azaldılıb. APA-nın məlumatına görə, "Rəsmi qazete"də dərc edilən 681 saylı qanun hökmündə qərarnaməyə əsasən Türkiyə Silahlı Qüvvələrində kadrların formalaşdırılması ilə bağlı Baş Qərargahın səlahiyyətləri Müdafiə Nazirliyinə verilib.**

İndiyə qədər Quru, Dəniz və Hava qüvvələrinin komandanlarının təyinatı prosesi Baş Qərargah rəisinin təklifi ilə başlayıb. Bundan sonra isə Quru, Dəniz və Hava qüvvələrinin komandanları müdafiə nazirinin təklifi, baş nazirin imzası və prezidentin təsdiqləməsi ilə təyin ediləcəklər. Bundan əvvəl Baş Qərargah tərəfindən müəyyənləşdirilən və Ali Hərbi Şurada müzakirəyə çıxarılan general və admiralların təyinatı da Müdafiə Nazirliyi tərəfindən müəyyənləşdiriləcək.

Quru, Dəniz və Hava qüvvələrinin komandanları təyin edilən ordu generalı və ordu admirallarının səlahiyyət müddəti iki il olacaq, bu müddət prezidentin qərarı ilə yaş həddinə qədər hər dəfə 1 il olmaqla, artırıla biləcək. Komandanlar təyinat proseslərinə uyğun olaraq vəzifələrindən də azad edilə biləcəklər.

Qanun hökmündə qərarnamə ilə hərbi əmrin hərbi formada verilməsi barədə məcburiyyət də ləğv edilib. Əsgərlər hərbi formada olmayan zabitin, müvafiq səlahiyyətə malik mülki vəzifəli şəxslərin verdiyi əmrləri yerinə yetirməlidirlər. Bundan əvvəl Daxili İşlər Nazirliyinin tərkibinə verilmiş Sahil Mühafizə və Jandarma Qüvvələri də qanun hökmündə qərarnamə ilə Türkiyə Silahlı Qüvvələrinin tərkibindən çıxarılıb. Beləliklə, Türkiyə Silahlı Qüvvələri yalnız Quru, Dəniz və Hava qüvvələrindən ibarət olacaq.




## Bu gün Bakıda hava yağmursuz olacaq

**Yanvarın 9-da ölkə ərazisində gözlənilən hava şəraiti açıqlanıb. Ekologiya və Təbii Sərvətlər Nazirliyinin Milli Hidrometeorologiya Departamentinin verdiyi xəbərdə bildirilir ki, sabah Bakıda və Abşeron yarımadasında havanın dəyişkən buludlu olacağı, arabir tutulacağı, əsasən yağmursuz keçəcəyi gözlənilir. Bəzi yerlərdə hava dumanlı, səhər çiskinli olacaq. Mülayim şimal-qərb küləyi əsəcək.**

Havanın temperaturu gecə 2-4° isti, gündüz 7-11° isti, Bakıda gecə 2-4° isti, gündüz 8-10° isti olacağı gözlənilir. Atmosfer təzyiqi norma daxilində 760 mm civə sütunu təşkil edəcək. Nisbi rütubət gecə 80-90 %, gündüz 65-75 % təşkil edəcək. Azərbaycanın rayonlarında gözlənilən hava, əsasən yağmursuz keçəcək. Gecə və səhər bəzi yerlərdə duman, şərq rayonlarında çiskinli olacaq. Qərb küləyi əsəcək. Havanın temperaturunun gecə 2° şaxtadan 3°-dək isti, gündüz 8-13° isti, dağlarda gecə 0-5° şaxta, gündüz 1-6° isti olacağı gözlənilir.



## Bakıda İraq "Airlines"in meneceri niyə güllələndi - təfərrüat

**Srağagün Bakının mərkəzində, metronun "Xətai" stansiyasının yaxınlığındakı "Demirchi Tower" biznes mərkəzində iş yoldaşı tərəfindən güllələnərək öldürülən 1993-cü il təvəllüdlü Ağalı Əli Valid oğlu doğulduğu Masallı rayonunda dəfn edilib. Lent.az-ın məlumatına görə, 24 yaşlı Ə.Ağalının cənazəsi dünən səhər Masallının Şərəfə kəndinə gətirilib və günorta saatlarında kənd qəbiristanlığında dəfn edilib.**

Kənd sakinləri mərhumun ailəsini müsbət xarakterizə ediblər və mömin nəsil olduqlarını, atasının və bir çox qohumlarının Həcc ziyarətində olduğunu deyiblər. Bu arada məlum qətl hadisəsinin təfərrüatları da məlum olub. Hüquq-mühafizə orqanlarından əldə edilən məlumata görə, qətldən bir gün əvvəl İraq Hava Yollarının Bakı nümayəndəliyinin sürücüsü, 1989-cu il təvəllüdlü Beşirov Elşən Rəfayət oğlu ilə həmin şirkətin meneceri Əli Ağalı arasında mübahisə yaranıb. Mübahisə hər iki şəxs şirkətə məxsus avtomobillə aeroporta gedərkən baş verib. Aeroportda Ə.Ağalı sürücüyə vitrinin arxasına keçməklə bağlı irad bildirib və tərəflər arasında münasibət daha da kəskinləşib. Özündən yaşca 4 yaş kiçik iş yoldaşının ona olan münasibətini qəbul edə bilməyən E.Beşirov mübahisədən bir gün sonra, yəni srağagün işə gələrkən evdən özünə məxsus olan və ov tüfəngi kimi rəsmi qeydiyyatdan keçmiş "Vinçester" markalı silahını götürüb. O, ofisdə Ə.Ağalıya yaxınlaşaraq bir neçə dəfə atəş açıb. Başından güllə yaraları alan 24 yaşlı Əli hadisə yerindəcə keçinib. Hadisədən sonra E.Beşirov silahını götürərək polis bölməsinə gedib və təslim olub.

## 50 min avtomobildə qüsur çıxdı - "Folksvagen"

**Almaniyanın "Folksvagen" şirkəti Çindən təxminən 50 min avtomobili əyləc sistemindəki qüsurlara görə geri çağırır. Çinin Keyfiyyətə Nəzarət, Təftiş və Karantin Baş Administrasiyasının məlumatına görə, fevralın 6-dan başlayacaq proses çərçivəsində 2012-ci ilin iyulundan 2015-ci ilin aprelinədək olan dövrdə istehsal olunan "Bitl" və "Qolf" modelləri geri çağırılacaq. Qüsurları istehsalçı şirkət təmənnasız aradan qaldıracaq.**

"Folksvagen" qüsurlar aradan qaldırılmayanadək sürücülərə həmin nəqliyyat vasitələrinin "kruiz kontrol" sistemindən istifadə etməməyi tövsiyə edib.

YENİ MÜSAVAT
N 3 (6617) 9 yanvar 2017

# Hərbi ekspert əsgərimizin cəsədinin necə alınacağının anonsunu verdi - "Ermənilər peşman olacaqlar..."

**Azərbaycan ordusunun hərbçisi Çingiz Qurbanovun cəsədi Ermənistanla təmas xəttindəki ərazidən İrəvana aparılıb. Ermənilər bu dəfə də şəhid əsgərimizin İrəvan morqunda çəkilən fotolarını sosial şəbəkədə yayıblar.**

## Üzeyir Cəfərov: "Yaxın günlərdə şahidi olacağıq ki, işğalçı ordunun Azərbaycan ərazilərindəki zabitləri və ya əsgərləri ordumuzun əlindədir"





Qeyd edək ki, Çingiz Qurbanov ötən il dekabrın 29-da Azərbaycan-Ermənistan sərhədində baş vermiş döyüşlərdə şəhid olub. Hadisədən iki həftə keçsə də, Ermənistan Azərbaycan ordusunun əsgərinin cəsədini vermir. Beynəlxalq Qırmızı Xaça müraciət olunsa da, erməni tərəfi cəsədi qaytarmaqdan imtina edir. Beləcə, Ermənistan beynəlxalq humanitar normalara, müharibənin yazılmış və yazılmamış qanunlarına növbəti dəfə hörmətsizlik nümayiş etdirməkdədir. Ermənilərin əlinə hələ 90-cı illərin əvvəllərindən Qarabağ döyüşlərində istifadə etdikləri praktikanı - cəsədlərdən qisas almağı və onlarla alver etməyi yenidən işə salmaq fürsəti düşüb.

Beynəlxalq humanitar normalar, müharibələr zamanı yaralılarla, cəsədlərlə və əsirlərlə rəftarı tənzimləyən beynəlxalq konvensiyalar, lap elə yazılmamış müharibə qanunları cəsəddən qisas almağı, onun təhvil verilməsini ləngitməyi yolverilməz sayır. Bu, həm də heç bir insanlığa sığmayan praktikadır və belə praktikadan məhz Ermənistan istifadə edir.

Hərbi ekspert Üzeyir Cəfərov "Yeni Müsavat"a açıqlamasında bildirdi ki, Çingiz Qurbanovun cəsədinin 10 gün Azərbaycanla sərhəddə saxlanması da Azərbaycanı məhz Ermənistan sərhədində təxribata çəkmək planının tərkib hissəsi idi. Ermənistan rəhbərliyi şəhid əsgəri orada saxlamaqla Azərbaycan ordusunun Ermənistan sərhədini keçməyə cəhd edəcəyini gözləyirdi: "Onlar hesablayırdılar ki, Azərbaycan hərbçiləri Çingizin cəsədini götürmək üçün sərhəddə əməliyyata başlasa, KTMT-yə, dünyaya "Azərbaycan ordusu Ermənistan sərhədini pozdu" haray-həşirini yaysınlar. Görəndə ki, bu planları baş tutmur, əsgərin meyitini İrəvana apardılar. Ermənistan Azərbaycanı çox ciddi bir təxribata çəkmək istəyirdi".

Ü.Cəfərov qeyd etdi ki, Ermənistanın bütün müharibə qanunlarını, beynəlxalq konvensiyaları, humanitar normaları açıq-aşkar pozmasına ATƏT-in Minsk Qrupunun, ATƏT-in fəaliyyətdə olan sədrinin şəxsi nümayəndəsi Anjey Kaspşikin və digər beynəlxalq qurumların seyrçi qalması, Ermənistana heç bir təsir göstərməməsi onu göstərdi ki, Azərbaycan bu beynəlxalq qurumlarla öz işini konkretləşdirməlidir: "ATƏT-in Minsk Qrupunun həmsədrləri bu məsələdə ümumiyyətlə, hərəkətlilik nümayiş etdirmirlər. Həm onların, həm də Ermənistanın bu davranışı Azərbaycan üçün bir dərs olmalıdır. Erməni əsgərləri canlı və ya ölü Azərbaycan tərəfinin əlinə keçəndə biz onu bir-iki günün içində Ermənistana təhvil verirdik. Ermənilər bir daha sübut elədilər ki, onlar heç bir humanizm prinsipini anlamırlar. ATƏT-in Minsk qrupu həmsədrləri isə heç bir hərəkət etməmələri ilə bir daha göstərdilər ki, onlar nəinki hansısa rayonu və ya kəndi danışıqlarla geri qaytarmağa nail olası deyillər, hətta bir əsgərin cəsədini ermənilərdən almaq istəyində və imkanında deyillər. Bütün bunlar Azərbaycan üçün həm də bir siqnaldır. Bir əsgər meyitini geri ala bilməyən beynəlxalq qurumdan Qarabağ münaqişəsinin həllini gözləmək öz-özünü aldatmaq olar".

Hərbi ekspert sonda bəyan etdi ki, Çingiz Qurbanovun cəsədini ermənilər geri qaytarmaq məcburiyyətində qalacaqlar: "İnanıram ki, yaxın günlərdə Azərbaycan ordusu Çingizin qisasını alacaq və Ermənistan çox peşman olacaq. Ermənistan əsgərimizin cəsədini verməməyin bədəlini bir neçə qat artıq ödəməli olacaq. Onsuz da Müdafiə Nazirliyinin rəhbərliyi müvafiq göstərişi verib. Yaxın günlərdə bunun canlı şahidi olacağıq ki, Ermənistan ordusunun Azərbaycan ərazilərindəki zabitləri və ya əsgərləri Azərbaycan ordusunun əlindədir. Bundan sonra ermənilər Çingiz Qurbanovun cəsədini geri qaytarmaq üçün yalvaracaqlar. İnanıram ki, bu baş verəcək. Azərbaycan ərazilərindəki erməni mövqelərinə hücum edib onu darmadağın edən, onları ciddi itkiyə məruz qoyan milli qəhrəmanlar Mübariz İbrahimov və Fərid Əhmədovun cənazələrini də Ermənistan uzun müddət qaytarmaqdan imtina edirdi? Ancaq sonda cəsədləri geri qaytarmaq məcburiyyətində qaldılar. Ötən ilin aprel döyüşlərində isə ermənilər cəsədlərin qaytarılmasına ona görə tezliklə razı oldular ki, Azərbaycan tərəfin nəzarətində də çoxlu erməni döyüşçüsünün cəsədi qalmışdı. Bütün bu faktlar sübut edir ki, düşmənlə onun başa düşdüyü dildə danışmaqdan başqa yol yoxdur".

❑ Etibar SEYİDAĞA

## Brilyant Dadaşova dinini dəyişib?

### Dini ekspert: "Müsəlmanın kilsəyə gedib, şam yandırmasının bir anlamı yoxdur"



**Xalq artisti Brilyant Dadaşovanın xristian dininə sitayiş etdiyi barədə məlumatlar yayılıb. Barəsində belə iddiaların yaranmasına səbəb isə onun bu günlərdə Bakı kilsələrinin birində keçirilən Milad bayramında iştirak etməsi olub.**

Lent.az-ın məlumatına görə, müğənni xristianların Milad bayramında digər iştirakçılar kimi xaç suyundan istifadə edib, şam yandırıb. Xalq artistinin bu cür davranışı ictimaiyyətdə birmənalı qarşılanmayıb, mətbuatda, xüsusən də sosial şəbəkələrdə müzakirələrə səbəb olub. Bəzi iddialara görə, müğənni artıq xeyli müddətdir ki, dinini dəyişərək xristian dininə sitayiş edir.

Məsələyə aydınlıq gətirmək üçün "Yeni Müsavat"ın əməkdaşı Xalq artisti ilə əlaqə saxlamağa çalışıb. Lakin əfsus ki, müğənni telefon zənglərini cavabsız qoyub. Bununla belə, onun fikirlərini dərc etməyə hazırıq.

Bəs müsəlmanın kilsəyə gedib, şam yandırması nə dərəcədə doğrudur? Bəzi dindarların iddialarına görə müsəlmanın kilsəyə turist kimi və yaxud onun içində nə olduğunu öyrənib-bilmək məqsədi ilə getməsi günah hesab edilmir. "Lakin onun xristianlarsayağı kilsəyə gedərək, ikonanın qarşısında şam yandırması və arzu diləməsi müsəlmana yaraşan davranış deyil", - deyə bildirilir.

Dini ekspert Kənan Rövşənoğlunun sözlərinə görə isə, müsəlmanın kilsəyə gedib, şam yandırmasının bir anlamı yoxdur: "Müsəlmanlar üçün, təbii ki, öz ibadət şəkilləri, formaları var. Kilsədə şam yandırmaq xristianların adətidir. Bu mənada bir müsəlmanın kilsəyə gedib şam yandırmasının hər hansı bir anlamı yoxdur. Sadəcə, başqa dinlərə hörmət, İsa peyğəmbərə ehtiram olaraq kilsəyə gedib xristianların adətinə uyğun olaraq şam yandırmasında hər hansı bir qəbahət yoxdur. Əksinə, dinlər arasında anlaşma sülhə xidmət edən bir addımdır".

❑ Xalidə Gəray

# Şeyx şəhid əsgərimizə görə katolikosa müraciət edəcəkmi?

**Artıq 10 gündür ki, Azərbaycan ordusunun əsgəri Qurbanov Çingiz Salman oğlunun meyiti Ermənistan tərəfdədir. Keçən müddət ərzində Azərbaycan tərəfin beynəlxalq aidiyyəti qurumlara etdiyi müraciətlər nəticəsiz qalıb, düşmən tərəf beynəlxalq hüquq normalarını pozaraq, öz çirkin niyyətlərindən əl çəkmir.**

Şəhid əsgərimizin cəsədinin erməni tərəfdə qalmasının üstündən keçən günlər ərzində əsas diqqətçəkən məqam Qafqaz Müsəlmanları İdarəsinin sədri Şeyxülislam Allahşükür Paşazadənin susqunluğudur. Çoxları hesab edir ki, Şeyx indiyə qədər şəhidimizin cəsədinin qaytarılması üçün erməni katolikosu II Qaragenlə təmas yaratmalı idi.

Xatırladaq ki, illər öncə də oxşar situasiya yaranmışdı. Milli qəhrəman Mübariz İbrahimov və baş leytenant Fərid Əhmədovun cəsədləri düşmən tərəfdə qalanda Şeyx erməni katolikosu ilə görüşmüş, cəsədlərin geri qaytarılması üçün müzakirələr aparmışdı. Bu dəfə də onun bu cür addım atıb-atmayacağı hələ məlum deyil.

Böyük Quruluş Partiyasının sədri, deputat Fazil Mustafa hesab edir ki, bu barədə təkcə Şeyx deyil, hər kəs təşəbbüs göstərməlidir: "Şeyxin imkanı varsa, yəqin ki, bu istiqamətdə mütləq addım atar. Bunu deməyə də ehtiyac yoxdur. Bildiyim qədəri ilə, belə şeylərdə o, çox həssas davranır, məsələnin həlli istiqamətində əlindən gələni etməyə çalışır. Keçən dəfə də buna bənzər hadisə baş vermişdi. İndi də Şeyx belə bir müraciət edə bilər. Burada heç bir problem yoxdur. Qırmızı Xaç Komitəsi ilə, eləcə də, digər vasitələrlə bunu həll etmək lazımdır".

Deputat II Qaraginin bu tipli



**Fazil Mustafa: "Şeyxin imkanı varsa..."**

məsələlərin həlli istiqamətində təsir gücünün olduğunu da qeyd etdi: "İstəsə, bu addımın atılmasının onun reytinqinə təsir edəcəyini onların diqqətinə çatdırar. Ona görə də belə bir addım atsa, onun sözü eşidilə bilər. Çünki Ermənistanda hansısa bir siyasətçidən Qaragenin bu imkanları daha genişdir".

F.Mustafa QMİ rəhbərinin bu istiqamətdə addımlar atacağını istisna etmir: "Bu məsələ bir qədər fərqlidir. Burada Ermənistan tərəfin atdığı addımlar insanlığa sığmayan addımlardır. Çünki Qırmızı Xaç Komitəsi bu istiqamətdə fəaliyyət göstərir və hər kəsin də diqqətini ora yönəldib. Əgər bu qurumun fəaliyyətindən bir nəticə çıxmayacaqsa, o zaman başqa vasitələrin işə düşməsi mümkündür. Hətta Rusiya Patriarxının da bu məsələyə qarışması mümkündür. İndiki şərtlərdə haminin diqqəti Qırmızı Xaça yönəldiyindən gecikmələr var. Bundan sonra belə təşəbbüslər olacaq".

Qeyd edək ki, dekabrın 29-da ordumuzun əsgər erməni təxribatının qarşısını alarkən şəhid olub. Onun meyiti düşmən nəzarətindəki ərazidə qalıb. Meyitin geri qaytarılması ilə bağlı Müdafiə Nazirliyi tərəfindən Beynəlxalq Qızıl Xaç Komitəsinin Azərbaycan nümayəndəliyinə, ATƏT-in Minsk Qrupuna, o cümlədən ATƏT-in fəaliyyətdə olan sədrinin şəxsi nümayəndəsi Anjey Kasprşike rəsmi qaydada müraciət edilib

❑ Cavanşir ABBASLI

YENİ MÜSAVAT
N 3 (6617) 9 yanvar 2017




# Əli İnsanovun azadlığı üçün iki şərt...

## Sabiq nazirin barəsində seçilmiş həbs qətimkan tədbirinin müddəti yanvarın 11-də bitir; həbs müddəti uzadılacaq, yoxsa...

**Həbsdə olan sabiq səhiyyə naziri Əli İnsanovla bağlı müəmmalar tükənmək bilmir. Keçən ilin oktyabrında 11 illik cəzası başa çatdıqdan sonra 3 maddə üzrə yeni cinayət təqibinə məruz qalan sabiq nazir barəsində seçilən həbs qətimkan tədbirinin müddəti yanvarın 11-də bitir.**

Amma hələ də onun məhkəməsinin başlayıb-başlamayacağı məlum deyil. İnsanovun istintaqından da bir xəbər yoxdur. Adətən indiyə qədər bu tipli işlərdə həbs qətimkan tədbirinin müddətinin bitməsinə ən azı bir həftə qalmış nəzərdə tutulan müddətin ya uzadıldığının, ya da istintaqın bitib işin məhkəməyə göndərildiyinin şahidi olmuşuq. Amma sabiq nazirlə bağlı hələ də bunların heç biri yoxdur.

Hüquqşünaslar deyir ki, əgər iş məhkəməyə göndərilməyibsə, indiki halda onun həbs müddətinin artırılacağı ehtimalı böyükdür.

Amma o da maraqlıdır ki, həbs qətimkan tədbirinin müddətinin uzadılmasında da gözləməyə mövqeyi hiss olunur. Bu da bəzi iddiaların meydana çıxmasına səbəb olub. Belə ki, İnsanovu azad etmək üçün hakimiyyətin onun qarşısında bəzi şərtlər irəli sürdüyü deyilir. Hələ azadlığa çıxmasına aylar qalmış bu şərtlərdən imtina edən sabiq nazir üçün bunların şans olaraq qüvvədə qaldığı bildirilir. Hakimiyyətin onu azad etmək fikrində olduğu, lakin sabiq dövlət məmurunun israrının buna əngəl yaratdığı söylənilir.

İnsanovun yaxın çevrəsindən müsavat.com-a verilən məlumatda da yayılan iddialar dolayısı yolla təsdiq olundu. Hətta sabiq nazirlə anlaşmaq üçün ölkə iqtidarının vazkeçilməz iki şərtinin olduğu bildirildi. Bunlardan biri azadlığa çıxdıqdan sonra siyasətlə məşğul olmaması barədədir; digəri ölkəni tərk etməsi ilə bağlıdır. Hələ 2013-cü ildə İnsanova onunla bərabər həbs edilən sabiq iqtisadi inkişaf naziri Fərhad Əliyevlə birlikdə bu şərtlərin irəli sürüldüyü, qəbul edəcəkləri təqdirdə hər ikisinin eyni vaxtda azad olunacağı vədinin verildiyi də qeyd olunurdu. O zaman Fərhad Əliyevin bu şərtləri qəbul etdiyi və azadlığa buraxıldığı, lakin sabiq səhiyyə nazirinin qətiyyətlə bundan imtina etdiyinə görə hazırda da dəmir qapılar arxasında olduğu iddia edilir.

Bu fikirlərdə müəyyən qədər həqiqət payı var. Çünki 2013-cü ildə azadlığa çıxdıqdan sonra Fərhad Əliyev dərhal ölkəni tərk etdi və o, hazırda Almaniyadadır. Azadlıqda olduğu müddət ərzində isə sabiq iqtisadi inkişaf nazirinin bir dəfə də olsun siyasətdə göründüyünün şahidi olmamışıq. İnsanovun heç vəchlə ölkəni tərk etmək fikrində olmadığı, azadlığa çıxdıqdan sonra siyasətlə məşğul olmaq fikrində qəti olduğu deyilir.

Sabiq nazirin yaxın çevrəsi qətiyyətlə onun şərtləri qəbul etməyəcəyini də bildirdilər. Hətta bunun üçün həbsxanadan məlumat göndərdiyini də qeyd etdilər. Verilən məlumatda o da deyildi ki, 11 ildən çox məhbəs həyatı yaşayan İnsanov belə şərtləri qəbul etməsini özü üçün "sınmaq" kimi qəbul edir.

Bütün bu amillərə görə onun həbs müddətinin uzadılması barədə məhkəmənin tələsmədiyi göz önündədir. Əgər sabiq nazir şərtləri qəbul edərsə, həbs müddətinin başa çatdığı günlərdə məhkəmə qərarı ilə onun "ev dustaqlığı"na buraxılacağı barədə xəbərlər yayılan iddialar sırasındadır. Əks halda həftənin ilk günləri onun həbs müddətinin uzadılacağı qaçılmazdır.

Ə.İnsanovun vəkili Toğrul Babayev "Yeni Müsavat"a açıqlamasında hüquqlarını müdafiə etdiyi şəxs barəsində hansı qərarın veriləcəyi ilə bağlı istintaqdan ona hələ də heç bir məlumatın verilmədiyini bildirdi. Vəkil məlumat verilən kimi bu barədə ictimaiyyəti məlumatlandıracağını da söylədi.

Xatırladaq ki, Ə.İnsanov 2005-ci ilin oktyabr ayında həbs edilib. O, dövlət vəsaitlərinin mənimsənilməsində və dövlət aktivlərinin qanunsuz özəlləşdirilməsinin təşkilində ittiham olunub, 11 il müddətinə azadlıqdan məhrum edilib.

Ötən ilin avqustunda azad olunmasına iki ay qalmış İnsanov barəsində Cinayət Məcəlləsinin 3 - 234.1 (narkotik) və 315.2 (hakimiyyət nümayəndəsinə zor tətbiq etmə) və 317-2.1-ci (cəzaçəkmə müəssisələrində qadağan olunmuş əşya saxlama) maddələri ilə cinayət işi başlanıb. Bu maddələr üzrə onu 10 il 6 ay həbs cəzası gözləyir.

❑ **Cavanşir ABBASLI**

**Ləğv edilmiş Dövlət Bayrağı Meydanı Kompleksi İdarəsinin sabiq rəisi Rəşad Məmmədovun həbsi 2015-ci ilin ən səs-küylü hadisələrindən biri idi. Dələduzluqda və vətəndaşa külli miqdarda zərər vurmaqda təqsirləndirilən Rəşad Məmmədov 1 ildən artıq həbsdə qaldı. Onunla birlikdə yaxın adamı İsfəndiyar İsfəndiyarov da həbs edilmişdi. Hər ikisi ötən ilin iyun ayında Bakı Ağır Cinayətlər Məhkəməsindən azadlığa buraxıldı.**




# Rəşad Məmmədovun həbsinin şok detalları - istintaq işində Əli Əsədovun da adı keçir

## Bayraq Meydanı rəisinin qandallanması və 1 il türmədə qalması barədə yeni bilgilər üzə çıxıb; sabiq rəisin saxlanması üçün general Sübahir Qurbanov Eldar Mahmudovdan əmr alıbmış...

### Rəşad Məmmədovdan şikayət

Musavat.com xəbər verir ki, sabiq rəis R.Məmmədov Bakı sakini Zabil Salmanovun şikayəti əsasında həbs edilmişdi. Obyektinin qanunsuz olaraq ələ keçirilməsi ilə bağlı ləğv edilmiş MTN-ə müraciət edən Z.Salmanov Rəşad Məmmədovun həbsinə nail olmuşdu.

R.Məmmədov həbs edildikdən sonra Salmanova dəymiş zərər ödənildi. Ancaq məhkəmə proseslərində Rəşad Məmmədov həbsinin sifarişlə olduğunu dilə gətirmədi. Çünki onu o zaman at oynadan, kiminsə adını dilinə gətirməkdə ehtiyat etdiyi MTN həbs etmişdi. Və həbsdə olduğu müddətdə də MTN-in təcridxanasında saxlanılırdı. Heç yaxınları da onun MTN tərəfindən sifarişlə həbs edildiyini deməyə qorxurdu.

Ancaq MTN-in ləğvi sabiq rəisin həbsinin gizli detallarını açdı. Eldar Mahmudov və çetesinin vəzifədən uzaqlaşdırılması, bir çox MTN zabitlərinə qarşı açılmış cinayət işinin materiallarından aydın olur ki, Rəşad Məmmədov həqiqətən də sifarişlə həbs edilib. Bu sifariş isə yuxarı dairələrdən gəlib. Elə Rəşad Məmmədov həbs edilən ərəfədə də belə fikirlər dolaşırdı ki, onun həbsi hakimiyyətdə olan dairələrin savaşının nəticəsidir.

### MTN zabitləri ilə çay söhbəti

Bütün bu həqiqətləri isə R.Məmmədovdan şikayətçi olan "VİB" MMC-nin təsisçisi və rəhbəri Zabil Salmanov istintaqa danışıb.

Sensasion sayıla biləcək bu etirafda Z.Salmanov bütün gizlinləri etiraf edib. Hətta bu həbsdə prezidentin iqtisadi məsələlər üzrə köməkçisi, Prezident Administrasiyası rəhbərinin müavini Əli Əsədovun da adını çəkib.

Z.Salmanov ifadəsində deyib ki, onu R.Məmmədovdan şikayətçi olmağa MTN generalı Sübahir Qurbanov məcbur edib.

Z.Salmanov söyləyib ki, İtaliya, Almaniya və Türkiyədən geyim əşyaları gətirərək "Euromoda", "Ramsey", "Faiq Sönməz", "Enjoyment" mağazaları şəbəkələrinə satıb.

Z.Salamnovun şirkətinin icraçı direktoru Azər Zakirov 2015-ci ildə Türkiyədən qayıdanda MTN-ə aparılıb. Z.Salmanov dostunun axtarışına çıxıb. Amma o, dostunu tapmamış, MTN onu tapıb və çay içməyə dəvət edib.

Digər "qurbanlar" kimi onu da nazirliyin yanındakı "Sultan" kafesinə çağırıblar. Z.Salmanov onu saxlayan MTN generalı Fizuli Əliyevə "qardaşınız Elşənlə dostam" deyərək canını qurtarmaq istəyib. Fizuli Əliyev isə deyib ki, bu dostluğa görə onu maskalıların iştirakı ilə gətirməyiblər.

### 3 milyonluq tələb, 2 milyonluq güzəşt

Görüşdə Salmanova deyiblər ki, şirkətinin ofisində axtarış aparılacaq. MTN əməkdaşları axtarış zamanı ofisdən sənədləri, noutbukları və kassadan 248.950 avro, 23.000 ABŞ dollar və 20 min manatı götürüblər.

MTN-də saxlanılan Salmanovdan digər sahibkarlardan tələb olunduğu kimi pul tələb olunub. Fizuli Əliyev ondan 3 milyon manat tələb edib. Bu qədər pulunun olmadığını deyəndə, ona 2 milyon güzəşt ediblər.

Pulu verməyəcəyi təqdirdə həbs ediləcəyi, qadınlarla münasibətdə olması ilə bağlı məlumatlarla onu rüsvay edəcəklərini deyiblər. Z.Salamnov deyir ki, bu təkliflə razılaşmaq məcburiyyətində qalıb.

Pulun 337 min manatını verən Z.Salamanov qalan məbləği ödəmək üçün vaxt istəyib. Daha sonra 100 min də ödəyən Z.Salmanov general Sübahir Qurbanovun müavini Füzuli Əliyevlə növbəti dəfə görüşüb. Və ona deyib ki, hələ ki, bu qədər pulu verməyə imkanı yoxdur.

"Fizuli Əliyev həbsimi Əli Əsədovun sifariş verdiyini və onun nazir Eldar Mahmudovla dost olduğunu dedi. Sifarişin səbəbi isə mənim Bakı şəhəri Nizami küçəsi 44 saylı ünvanda yerləşən, sahəsi 266 kvadrat metr olan ticarət obyektimi "Azimport" MMC-yə satmaqdan imtina etməyim imiş. Mən bununla bağlı həmin şirkətin rəhbəri Azər Əsgərovla görüşdüm, o, mənim həbsimdə maraqlı olmadıqlarını dedi"- deyə Z.Salamov ifadəsində göstərib.

Ancaq zərərçəkmişin bu dediklərində aydın olmayan bir məqam var. O qeyd edir ki, "Azimport"a obyektini satmadığı üçün guya Əli Əsədovun şikayəti əsasında həbs ediləcək. Bunu ona MTN əməkdaşları deyib. Amma sonradan MTN-də ondan Rəşad Məmmədovun əleyhinə izahat alıblar. Elə bu izahatla da R.Məmmədovu həbs ediblər. Görünür elə qeyd etdiyimiz kimidir ki, Rəşad Məmmədovun həbsi hakimiyyət daxilindəki dairələrin savaşının bir hissəsidir. Əgər belə deyilsə, niyə Zabil Salmanov MTN-ə çağırılır və ona xəbərdarlıq edilir ki, "obyektini Rəşad Məmmədovun şirkətinə sat". Amma bir neçə gündə rollar dəyişir və Salmanovun şikayəti ilə Rəşad Məmmədov həbs edilir...

### "Bunu podvala salın, ağlı başına gəlsin"

Bu söhbətlərin davamında MTN zabiti Fizuli Əliyev Z.Salmanova deyib ki, "Azimport" şirkətinə qarşı şikayət ərizəsi yazmalıdır. Əks halda özünü tutacaqlar:

"Sübahir Qurbanov məni otaqdan çıxarıb nazir Eldar Mahmudovla danışacağını dedi. Natiq Alıyev məni öz otağına aparıb "həyatın məhv olacaq" dedi. Həmin gün məni bir neçə dəfə Sübahir Qurbanovun otağına aparsalar da, razılaşmadım. Axırda o, "bunu podvala salın, ağlı başına gəlsin" deyərək kiməsə zəng edib bütün mağazalarımın bağlanması haqqında göstəriş verdi. MTN əməkdaşları məni aparanda general da hədələyirdi. Mən "podval"a çatmamış fikrimi dəyişdim, "Azimport"un əleyhinə yazılmış ərizəyə imza atdım. Bundan sonra Sübahir Qurbanov mənə "artıq sənin bizə heç bir borcun yoxdur. Heç kim səndən pul vəsaiti tələb edə bilməz" dedi. Mən "Azimport" şirkəti tərəfindən mənə 600.000 manat pulun və H.Cavid prospektində yerləşən sahəsi 100 kvadratmetr olan obyektin tikilib verilməli olduğunu qeyd etdim. Şirkət 600.000 manat pulu mənə versə də, obyekti tikib təhvil vermədilər".

Rəşad Məmmədov zərərçəkmiş olsa da, nədənsə MTN işi ilə bağlı açılan cinayət işinin istintaqında dindirilməyib. Amma onunla birlikdə həbs edilən İsfəndiyar İsfəndiyarov şahid kimi dindirilib.

### Rəşad Məmmədovun susqunluğu

2015-ci ilin may ayında MTN tərəfindən saxlanıldığını deyən İ.İsfəndiyarov orada ona Z.Salmanovun şikayət ərizəsinin göstərildiyini deyib. O da Rəşad Məmmədov kimi məhkəmə istintaqı müddətində 1 il 1 ay 8 gün müddətində MTN-in istintaq təcridxanasında saxlanılıb.

Həbsinin səbəbləri və sifarişçilər haqda məhkəmədə danışmaq istəməyən Rəşad Məmmədov məhkəmə zalından azadlığa buraxılarkən də jurnalistlərin suallarını cavablandırmaq istəməmişdi.

Qeyd edək ki, S.Qurbanov Z.Salmanovdan ifadəni 2015-ci il mayın əvvəlində alıb. Dövlət Bayraq Meydanının sabiq rəisi Rəşad Məmmədov isə həmin il mayın 4-də vəzifəsindən çıxarılıb və mayın 14-də həbs edilib. R.Məmmədov 2016-cı il mayın 20-də, MTN ləğv edildikdən sonra məhkəmə zalından azadlığa buraxılıb.

Onu da bildirək ki, Rəşad Məmmədov həbs edildikdən sonra onun rəisi olduğu Dövlət Bayrağı Meydanı Kompleksi İdarəsi ləğv edildi. Prezident İlham Əliyevin fərmanı ilə Dövlət Bayrağı Meydanı Kompleksi İdarəsi və Dənizkənarı Bulvar İdarəsi birləşdirilərək Dənizkənarı Bulvar İdarəsi yaradılıb.

❑ **İlkin MURADOV,**
❑ **Musavat.com**

YENİ MÜSAVAT
N 3 (6617) 9 yanvar 2017

# Psixi xəstələr də Eldar Mahmudovun hədəfində olubmuş...

## ADNA-dakı terrorla Binəqədidəki yanğını birləşdirən nöqtələr var; Azərbaycanı silkələyən dəhşətli olayları niyə MTN-də dəlilərin üzərinə qoyublar?..

**Azərbaycanda zaman-zaman törədilən, ölkə əhalisini təlaşa salan olayların ört-basdır olunmasında psixi xəstə və əlillərdən istifadə olunub. Apardığımız araşdırma zamanı üzə çıxan faktlar - 2009-cu ilin aprelin 30-da Azərbaycan Dövlət Neft Akademiyasında 13 nəfərin ölümü, 12 nəfərin yaralanması ilə sonunclanmış qanlı terror olayı, 2015-ci il mayın 19-da Binəqədi rayonunda 15 nəfərin ölümü, 56 nəfərin yaralanması ilə nəticələnmiş dəhşətli yanğını birləşdirən nöqtələrin olduğunu deməyə əsas verir.**

Hər iki dəhşətli olaydan əvvəl və sonra Eldar Mahmudovun rəhbərlik etdiyi qurum - artıq ləğv edilmiş Milli Təhlükəsizlik Nazirliyi psixi xəstə və əlilləri istintaqa cəlb edib! Faktlar belə nəticə çıxarmağa əsas verir ki, dəhşətli olaylardan əvvəl yalançı telefon zəngləri ilə hüquq-mühafizə orqanlarının sayıqlığını minimum endirməyə çalışanlara bu şəkildə yardım olunub. Başqa sözlə desək, əsl cinayətkarların istintaqdan kənarda qalması üçün tədbirlər görülüb!!!

Bu, bir təsadüf olubmu, yoxsa baş vermiş dəhşətli cinayətlərin ört-basdır olunmasına hesablanan addım? Bu məsələlər gec də olsa hüquq-mühafizə oranları tərəfindən araşdırılmalı, həqiqət üzə çıxarılmalıdır.

2009-cu il aprelin 30-da Azərbaycan Dövlət Neft Akademiyasında baş verən qanlı terror olayı Azərbaycan tarixinə qanla yazıldı. İttihama görə, Fərda Qədirov ADNA binasına daxil olub və qarşısına çıxanları güllə atəşinə tutub. Bu olaydan əvvəl və sonra şəhərin müxtəlif nöqtələrinə bomba qoyulması barədə polisə xəbərlər verilib. Bu haqda "Yeni Müsavat"ın 16 may 2009-cu il tarixli sayında "Fərda Qədirovun sirri açıldı (video və fotolar)"

http://musavat.com/news/gundem/ferda-qedirovun-sirri-acildi-video-ve-fotolar_53113.html ttp://musavat.com/news/gundem/ferda-qedirovun-sirri-acildi-video-ve-fotolar_53113.html

sərlövhəli yazıda qeydlər var. Həmin yazıdan sitatı təqdim edirik:

"Məsələn (2009-cu il) mayın 8-də metronun "Gənclik" metrostansiyasına bomba qoyulması ilə bağlı polisə anonim zəng olub. Naməlum şəxs "102" xidmətinə zəng vuraraq "Gənclik" stansiyasına partlayıcı maddə qoyulduğunu bildirib. Nərimanov rayon Polis İdarəsinin araşdırmalarından sonra məlum olub ki, zəng Xətai rayonu ərazisindəki taksofondan edilib. Araşdırmalar nəticəsində məlum olub ki, anonim zəngi Gözdən Əlillər üçün Məktəbin 16 yaşlı şagirdi edib. Mayın 14-də naməlum şəxs yenidən "102" xidmətinə zəng vuraraq Suraxanı rayonu ərazisindəki dövlət əhəmiyyətli obyektlərdən birinə bomba qoyulması xəbərini verib. Suraxanı PRİ-nin və Milli Təhlükəsizlik Nazirliyinin Suraxanı Rayon Şöbəsi əməkdaşları birgə tədbir keçirib müəyyən ediblər ki, anonim zəngi Qarayev küçəsi dalan 1 "b" ünvanında yaşayan ruhi xəstə, 1987-ci il təvəllüdlü Çinar Çingiz oğlu Balaəhmədov edib. Lakin baş verən hadisədən və əlimizdəki məlumatlardan sonra korla ruhi xəstənin bomba qoyulması xəbəri yaymaları bir o qədər də inandırıcı görünmür".

ADNA-dakı olayın istintaqı zamanı bu məqamlara diqqət yetirilib-yetirilməməsi haqda məlumat yoxdur. Amma vaxtında bu məqamlar ətraflı araşdırma aparılsaydı, bəlkə də Binəqədidə bina yanmazdı. Fakt budur ki, dəhşətli yanğından əvvəl və sonra da psixi xəstələrin adı ortalığa çıxıb.

"Yeni Müsavat"ın 11 iyul 2016-cı il tarixli sayında "Binəqədidəki yanğında sirli 16-cı meyit - sensasion araşdırma" http://musavat.com/news/olke/bineqedideki-yanginda-sirli-16-ci-meyit-sensasion-arashdirma_361924.html sərlövhəli yazı dərc olunub. Həmin yazıda ölkəni silkələyən dəhşətli yanğından əvvəl törədilən cinayətlərdə psixi xəstələrin adının peyda olmasına diqqət çəkilir. Sitat: "Vəkilin "silsilə yanğınlara cəhd olub" açıqlamasının izi ilə apardığımız araşdırma düşündüyümüzdən də ilginc detalların üzə çıxmasına səbəb oldu. Hamının gözləri qarşısında baş verən yanğınları birləşdirən, bir zəncirin halqaları olmasını deməyə çox ciddi əsaslar var. 2014-cü il noyabrın 26-da Bakıda, Qaraçuxur qəsəbəsində məscidin yandırılmasına cəhd olub. Gecəyarısı 2 şəxs məscidin içinə neft məhsulu ilə doldurulmuş 5-6 ədəd yarımlitrlik şüşə atıblar. Meydana gələn yanğın haqda məscid gözətçisi xəbər verdikdən sonra hadisə yerinə yanğınsöndürənlər cəlb olunub. Yanğın söndürülüb. Sonradan Milli Təhlükəsizlik Nazirliyi yanğını törətməkdə suçlayaraq psixi xəstə Namiq Nəsibovu və Bakı sakini Elnur Ələkbərovu həbs edib. 2016-cı ilin martında N.Nəsibovla E.Ələkbərovun işi üzrə məhkəmə prosesi yekunlaşıb. Məhkəmə prosesi boyu günahsız olduğunu deyən Elnur Ələkbərov hökmün elanı başa çatan kimi özünə xəsarət yetirib. O, hökmə etiraz olaraq, üzərindəki ülgüclə sol qolunu kəsib. Məhkəmədə fəryad edən onun anası Sevda Ələkbərova oğlunun heç bir cinayət törətmədiyi halda, ağır cəzaya məhkum edildiyini bildirib. O, xüsusən keçmiş MTN əməkdaşlarını ittiham edib. Deyib ki, oğluna orada elə işgəncələr veriblər ki, 25 gün ayağa qalxa, hətta ayaqyoluna da gedə bilməyib. N.Nəsibov isə məcburi müalicəyə göndərilib. MTN ləğv olunsa da, məscid yandırılması ilə bağlı bu günədək obyektiv araşdırma aparılmayıb".



Bundan başqa, Binqədidəki yanğından 15 gün sonra - iyunun 5-də Bakıda, Suraxanı rayonu, Qaraçuxur qəsəbəsində vətəndaşların şəxsi minik avtomobillərinin qəsdən yandırılması faktları qeydə alınıb. Naməlum şəxslər ayrı-ayrı vətəndaşlara məxsus 30-a yaxın bahalı maşının üzərinə neft məhsulu tökməklə yandırıblar.

Maraqlı məqam odur ki, MTN-çilərin məlumatları əsasında saxlanılan 1979-cu il təvəllüdlü Səfər Zöhrab oğlu Mahmudov da psixi xəstə çıxıb!

Həmin yazıdan sitat: "Az keçməyib ki, mətbuatda Səfər Mahmudovun da Qaraçuxurda məscidi yandırmaq suçu ilə həbs edilən Namiq Nəsibovtək psixi xəstə olması haqda xəbərlər peyda olub. Sabiq milli təhlükəzilik naziri Eldar Mahmudovla eyni familiyanı daşıyan Səfər Mahmudovun həbsindən sonra da Qaraçuxurda yenə bir neçə maşın yenə yandırılıb. Sakinlər təşviş içində gecələri maşınlarının yanında keçirməli olublar. Bu hadisə qəsəbənin Yaşar Əliyev küçəsində qeydə alınıb. Yandırılan maşınlar əsasən "Toyota", "BMV", "Mercedes", "Ford" markalı lüks maşınlar olub. S.Mahmudov dəlidirsə, niyə məhz bahalı maşınları yandırıb?"

Faktlar oxları artıq ləğv edilmiş MTN-ə yönləndirir. Niyə Azərbaycanı təşviş içində saxlayan dəhşətli olayların qanlı ləpirləri bu quruma uzanır və orada itib?

❑ E.MƏMMƏDƏLİYEV

# Problemli kreditlər 2017-yə qaldı - hökumət vətəndaşları banklardan qurtara biləcəkmi?

## Fikrət Yusifov: "Nə qədər gec deyil banklar üzünü müştərilərinə çevirməlidir"

**Hazırda Azərbaycan əhalisinin əsas problemlərindən biri də kreditlərlə bağlıdır. Ölkəni ağuşuna alan problemli kreditlərlə bağlı məsələ 2016-ci ildə də həll olunmadı. Görünən odur ki, banklar problemin həllində vətəndaşlara güzəştə getmək fikrində deyil. Nəticədə isə iki devalvasiyadan sonra vətəndaşların kreditləri qaytarmaq getdikcə daha da kəskinləşir.**



Fikrət Yusifov

Təsadüfi deyil ki, ölkə əhalisinin böyük əksəriyyətinin bir və ya bir neçə banka borcu var. Dolların kəskin bahalaşmasından sonra dollarla kredit götürən vətəndaşların kreditlərinin üstünə faizlər gəldikcə vəziyyət daha da çətinləşir. Bu səbəbdən ailələr dağılır, intihar halları artır, oğurluq edənlərin sayı durmadan artır. Kreditləri qaytarmaqdan imtina edənlər isə banklarla ya üz-üzə qalır, ya da məhkəmədə görüşməli olurlar.

Görünən odur ki, bankların kreditlərin ödənilməsi üçün tələbləri getdikcə artacaq, minlərlə insan məhkəməyə veriləcək. Bu da sosial narazılığın getdikcə kütləvi hal almasına səbəb olacaq. Bunu da hökumət bilməmiş deyil. Yaranan situasiyanın fonunda ölkə iqtidarının çıxış yolu kimi atacağı addımlar hər bir vətəndaşı yaxından maraqlandırır.

**Keçmiş maliyyə naziri, iqtisadçı-alim Fikrət Yusifov** "Yeni Müsavat"a açıqlamasında bunları dedi: "Manatın iki kəskin devalvasiyasından sonra əhalinin banklardan götürdüyü kreditlərin ödənişi sahəsində gərginliklər yaranmağa başladı. Birinci devalvasiyadan öncə bu gərginliklər bir o qədər böyük olmasa da, ikinci devalvasiyadan sonra vəziyyət kifayət qədər mürəkkəbləşdi. Kreditlərin ödənişi ilə bağlı çətinliklər bir tərəfdən əhalinin gəlirlərinin azalması, digər tərəfdən isə xarici valyutada götürülmüş kreditlərin ödənişi üçün vətəndaşların manat yükünün artması ilə bağlıdır. Manatın birinci devalvasiyasından başlayaraq bu günə qədər bu yük 2,2 dəfədən çox artıb. Bu gün əhalinin banklardan götürdüyü 15,8 milyard manat kreditin 46 %-dən çoxu - yəni 7,3 milyard manatı xarici valyutada götürülmüş kreditlərin payına düşür. Mərkəzi Bankın rəsmi məlumatlarına görə, xarici valyutada götürülmüş kreditlərin 10,2%-i gecikmiş kreditlərə aiddir. Manatla olan kreditlərdə bu gecikmə bir qədər az - yəni, 7,4% təşkil edir. Manatın məzənnəsində ikinci devalvasiyadan sonra baş verən 14%-dən artıq rəsmi ucuzlaşma isə vəziyyəti bir qədər də mürəkkəbləşdirir. Qarşıda milli valyutanın tam sərbəst buraxılması ilə bağlı addımlar gözlənilir. Bu addımlardan sonra xarici valyutada olan kreditlərin ödənişi sahəsində vəziyyət indikindən daha çətin olacaq. Banklar indidən bunu göz önünə almalıdırlar. Mərkəzi Banka onların gecikən kreditlər haqqında verdikləri informasiyalar əksər hallarda bir neçə dəfə kiçildilir. Bununla da banklar yanlış olaraq öz vəziyyətlərinin heç də pis olmadığını göstərmək istəyirlər. Biz dəfələrlə yazdıq, təkliflər verdik ki, banklar öz müştərilərinə qarşı güzəştə getsinlər, onlara bu kreditləri ödəməkdə yardımçı olsunlar. Ancaq təəssüflər olsun ki, daha çox qazanmaq hərisliyi bankları öz mövqeyindən çəkindirə bilmədi. Onlar məhkəmə çəkişmələri yolu ilə problemi həll etməyə üz tutdular. Bu, ən uğursuz seçim idi. Kiminsə imkanı varsa və krediti ödəmirsə, onunla məhkəmə çəkişməsi lazımdır. Ancaq imkanı olmayandan nə isə əldə etməyə heç məhkəmə də kömək etməyəcək. On görə də nə qədər gec deyil banklar üzlərini müştərilərinə çevirməlidirlər. Manat tam sərbəst buraxılandan sonra onlar xarici valyutada olan kreditlərin heç 3-5%-ni də geri ala bilməyəcəklər".

İqtisadçı alim hökumətin bu məsələdəki rolundan da söz açdı: "Hökumətin bu məsələdə heç bir öhdəliyi yoxdur. Ona görə də zəruri addımı banklar özləri atmalıdır. Vaxtilə xarici valyutada əhaliyə zorla kreditlər verərək bəs deyincə qazanc əldə etmiş banklar, indi də həmin qazancı öz müştəriləri ilə bölüşməlidirlər. İndiki maliyyə çətinlikləri şəraitində bu yükü ancaq banklar özü çəkməlidirlər".

❑ Cavanşir ABBASLI

YENİ MÜSAVAT
N 3 (6617) 9 yanvar 2017



# İş insanın cövhəridir-zad

Samir SARI

**İlin sonuna bir şey qalmayıb, cəmi 355 gün. Bu gün-sabah deyəcəklər ki, 2017 də belə başa çatdı. "Getsin, gəlməsin", "uğursuz il oldu", "qazandıqlarımızla müqayisədə daha çox itirdik"-filan söhbətləri ərşə çıxacaq.**

Avropa tərəflərdə isə camaat hələ yeni ilə, daha dəqiqi, yeni iş ilinə qədəm qoymayıb. Yazıq bizimkilər, dekabrın 31-dən yanvarın 1-nə keçən gecə işdən evinə qayıdıb, ayın 2-də işə çıxıb, bunlar düz dekabrın 25-dən yeyib-içməkdə, istirahətdə olacaqlar.

Ukraynada yaşayan dostumuz yazır ki, dünən 18 dərəcə şaxtada, naxoş-naxoş evindən çıxıb ərzaq-filan almaq üçün bazara gedib, görüb ki, bay, dükan-bazar bağlıdır, mühafizəçidən niyəsini soruşub, cavab alıb ki, Rojdestvodur, ona görə.

Demək, hələ 3-4 gün də istirahət edəcək, sonra işə çıxacaqlar. O biri Avropa ölkələrində yaşayan dostlarımız da eyni şeyləri yazılar. Onların sözlərinə görə, bu saat Avropa camaatı kütləvi şəkildə qatarlara, gəmilərə doluşub qonşu şəhərlərə, ölkələrə səyahətə çıxıblar, yeyə-içə gəzib-dolaşırlar. Bəziləri yemək-içməyini də götürüb qoşqulu atomobillərə doldurub, şəhər ətrafında məskən salıblar.

İlin 300-360 gününü işləyən bizimkilər üçün bu, əlbəttə, görünməmiş şeydir. Biz dədə-babadan belə sərgərdanlıq etməmişik. Sovet vaxtında kənd zəhmətkeşləri 25-30 il boyunca fasiləsiz işləyir, bir gün istirahət, tətil, bazar günü, məzuniyyət nə olduğunu bimirdilər. Yalnız möhkəm yağış və ya qar yağanda adamlar işə getmirdilər, onda da evdə qalıb darıxırdılar.

Bax, avropalılarla bizim əsas fərqimizdən biri də işə münasibətdədir. Onlar az işləyir, çox qazanırlar, biz çox işləyir, az qazanırıq. Onlar iş saatından əlavə işləməzlər, buna məcbur olanda isə ikiqat artıq ödəniş tələb edərlər, biz əlavə saatlar və əlavə ödəniş söhbəti eləmərik.

İndi elə çıxmasın ki, avropalılar tənbəldirlər, biz isə əksinə, od-alovuq, işgüzarlıqda bir canıq. Elə də deyil. Sadəcə, avropalılar işləri ilə yanaşı, canlarının qədrini də bilirlər, biz isə külfət dolandırmq üçün özümüzü oda-közə vurmağı vacib sayırıq.

Yoxsa avropalıların arasında elə tənbəl adamlar var ki, bizim şah tənbəlləri olanların yanında toya getmirlər. Dostlar yazır ki, burada dövlətin verdiyi işsizlik müavinəti ilə dolanan, yaxşı işlər təklif olunsa da, boyun qaçıran, heç vəchlə işləmək istəməyən insanlar var. Onlar hesab edirlər ki, dövlətin verdiyi pul bəsləridir, ta canlarına niyə əziyyət versinlər. "Ay bu ağır işdir, olmaz", "o qara işdir, neynirəm", "bu iş sağlamlığa zərərlidir, istəmirəm"-filan.

Bizim iş həsrəti çəkənlər, uzun illər boyunca çox işləyib, az qazananlar ora düşəndə canlarına cəfa verərək, çox işləmək hesabına tezliklə özlərini, güzəranlarını düzəldirlər. Ancaq bu rahatlıq, firavanlıq elə şeydir ki, bir müddətdən sonra bizimkilər də deyirlər, ta özümüzü niyə öldürək ki, Allaha şükür, hər şeyimiz var, istirahət zamanıdır.

Şərq ölkələrində elə şey yoxdur, iş permanentdir, arası kəsilə bilməz, fasilələr eləndinsə, kasıbçılıq, işsizlik dövrü başlayacaq, külfət ac qalacaq.

Şərq camaatını il on iki ay işləməyə vadar edən əsas səbəb külfətdir. Uşaqları böyütmək, oxutmaq, evləndirmək, ərə vermək, ev-eşik etmək, nəvələrə bir şey qoyub getmək və s. bu cür qayğılar imkan verir ki, insan bir gün sevgili yarını da yanına alıb kruizə çıxsın, dünyanı görsün, Aland adalarından Taitiyə qədər gəzib-dolaşsın.

Ona görə də budur, biz Novruz bayramını layiqincə keçirmək üçün zəruri ərzaq tədarükünə başladığımız halda avropalılar hələ Milad bayramını bitirib işə başlamayıblar. Bir azdan onlar yay tətilinə çıxıb isti ölkələrə çimməyə gələcəklər, bizimkilər isə "krediti necə ödəyək" qayğısı ilə ikinci iş yeri axtaracaqlar.

Sonra da məlum olacaq ki, bu işqolik adamların ağır bir illəti var, müalicəsi ən yaxşı halda İranda və Türkiyədədir, təxminən 10 min manata sağala bilər. "Ya Allah" deyib, cumacaq Tehrana, İstanbula ki, şəfa tapsın, sonra da gəlib "uşaqları yerbəyer etmək üçün" çalışsın.

Bizim günümüz, yaşam tərzimiz, həyat fəlsəfəmiz budur, qardaşlar.

# Manatı daha ağır sınaqlar gözləyir

## İqtisadçı-ekspertlər durumu şərh edirlər

**Milli valyutanın məzənnəsi bu il başlayandan yenə düşməkdədir. Banklar isə iki aydan çoxdur ki, dollar satmır. Nəticədə "qara bazar" genişlənib və rəsmi məzənnə artıq əhəmiyyətini itirməkdədir. Ekspertlər çıxış yolu göstərməyin də artıq gec olduğunu düşünür. Manat yenidən kəskin devalvasiyaya uğramalıdır.**



Ekspert Natiq Cəfərli bildirdi ki, bankların dollar satmamasının obyektiv səbəbləri də var: "Tələb kifayət qədərdir, yüksəkdir. Ancaq ötən ilin sonunda gördük ki, hər dəfə hərraca 30-35 milyon dollarlıq vəsait çıxarılıb. Tələbsə bundan bəzən on qat artıq olub. Mərkəzi Bankın və Neft Fondunun məhdud səlahiyyətləri və resurlaarı var. Hərraca böyük həcmdə dollar çıxarmaq iqtidarında deyillər. Çünki Mərkəzi Bank ümumiyyətlə, dollar satışını dayandırıb. 4 milyardlıq rezervi qorumağı düşünür. Neft Fondunun isə limiti var. Limitləri aşa bilmədiyinə görə daha az həcmdə dollar çıxarır. Bankların özlərinin də problemləri var. Manatın tam üzən məzənnəyə keçdiyini bildirsələr də, düşünmürəm ki, üzən məzənnə olacaq. Adını nə qoymağından asılı olmayaraq, Azərbaycanda üzən məzənnəyə keçid üçün institutlar yoxdur. Üzən məzənnənin əsas prinsipləri valyuta birjasının olması, fəaliyyət göstərməsi və birjada kifayət qədər oyunçuların olmasıdır. Azərbaycandan isə valyuta bazarında cəmi iki oyunçu var, bu il onlardan biri iştirak etməyəcək. Üzən məzənnəyə keçmək mümkün deyil. Manat iqtisadi dəyəri olmayan bir indikatora çevrilib. Rəsmi məzənnə ilə dollar almaq mümkün deyil, valyutaya çıxış imkanları kifayət qədər məhdudlaşıb. Bu da idxal əməliyyatlarını çətinləşdirir, malları daha da bahalaşdırır. Məhsulların qiymətinin daha da sürətlə artmasına səbəb olur. Bir müddət sonra hətta bəzi məhsullar üzrə qıtlığın da yaranması ehtimalı var. Mərkəzi Bankın rezervi borc-kredit danışıqlarında həm də bir zəmanət rolunu oynayır. Ona görə də Mərkəzi Bank bu il də bazarda iştirakçı kimi olmayacaq, təkcə Neft Fondu valyuta satacaq. Neft Fondunun cəmi 4 milyard dollardan bir az yuxarı satış imkanları var. Qalan ehtiyacın hansı mənbələr hesabına ödəniləcəyi qaranlıq qalır".

Ekspertin sözlərinə görə, ilkin hesablamalara görə, Azərbaycanın aylıq valyuta tələbatı 1 milyard dollara qədərdir: "İl ərzində ortalama 11-12 milyard dollara yaxın valyutaya ehtiyacımız var. Ancaq Neft Fondu tərəfindən 4 milyard dolların bazara çıxması ehtimalı var. Bütün bu şərtləri nəzərə alsaq, düşünürəm ki, bu il manat üçün çox ağır il olacaq. Ümid onadır ki, əgər neft qiymətlərində çox kəskin artım olarsa, o zaman valyuta bazarında müəyyən sabitlik yarana bilər. Mərkəzi Bankın da bazara valyuta çıxarmaq imkanları ola bilər. Onun da ehtimalı çox aşağıdır. Çünki ən yaxşı halda neftin qiymətləri 50-55 dollar civarında qalacaq. Hətta bundan aşağı düşmək ehtimalı artma ehtimalılndan daha çoxdur. Bunları nəzərə alsaq, növbəti rekordları, məzənnənin daha aşağı düşməsini görəcəyik". N.Cəfərli bununla belə, Neft Fondunun ehtiyatını əvvəldən hərraca çıxarmasının mümkünlüyünə də diqqət çəkdi və bildirdi ki, bu, ajiotajı bir qədər səngidə bilər: "Ancaq müvəqqətidir".

Ekspert Əkrəm Həsənova görə, Mərkəzi Bank və Neft Fondu bir müddət də manatın dəyərini qoruyub saxlaya bilər: "Neft Fondu bu il üçün 4 milyard dollar ayırıb. Mərkəzi Bank istəsə, hələ bir neçə ay məzənnəni olduğu kimi saxlaya bilər. Amma mən bunu ehtimal etmirəm. Bir neçə aydan sonra pul olmayacaq. Onda milli valyutamız kəskin şəkildə öz dəyərini itirəcək. Mərkəzi Bank ötən ilin son aylarındakı kursu davam etdirəcək, milli valyutanı dəyərdən salacaq. Devalvasiyanın olacağı ilə bağlı artıq heç kəsdə şübhə yoxdur. Sadəcə, əsas məsələ odur ki, məzənnəni sala-sala da Mərkəzi Bank banklara kifayət qədər dollar satacaqmı? Mərkəzi Bank ötən ilin son aylarında manatı yavaş-yavaş dəyərdən salsa da, dollar satmırdı. Buna görə də sahibkarlar və vətəndaşlar banklardan dollar ala bilmirdilər və "qara bazar"dakı dollar Mərkəzi Bankın məzənnəsindən xeyli baha oldu. Ehtimal edirəm ki, ola bilsin, bunun qarşısı alınsın, ilin əvvəlində Mərkəzi Bank bankları kifayət qədər dollarla təmin etsin. Çünki əgər etməsə, Mərkəzi Bankın məzənnəsinin heç bir əhəmiyyəti qalmır. Və durum gündən-günə pisləşəcək".

❑ Röya RƏFİYEVA

# Gürcüstanda turizminin çiçəklənməsinin sirri

## Ekspertlər səbəbləri sıraladılar…

**Gürcüstan turizminin ötən ildəki uğurları ilə bağlı açıqlanan statistik rəqəmlər Azərbaycan cəmiyyətində də maraq doğurub. Belə ki, bu rəqəmlərə görə, Gürcüstan artıq bölgənin bir nömrəli turizm ölkəsinə çevrilib.**



Vahid Əhmədov



Natiq Cəfərli

Statistikaya görə, 2016-cı ildə Gürcüstana 6.350.825 turist səfər edib. Bu göstərici 2015-ci illə müqayisədə 7.9 faiz çoxdur. Bu barədə məlumatı Gürcüstan turizm administrasiyasının rəhbəri Qeorqi Çeqovadze mətbuat konfransında bildirib. Məlumatda o da bildirilir ki, Gürcüstana ən çox səfər edən turistlər Azərbaycan vətəndaşlarıdır. İkinci yerdə Ermənistan, üçüncü yerdə Türkiyə, dördüncü yerdə Rusiya, beşinci yerdə isə Ukrayna vətəndaşlarıdır.

Turizm sahəsindəki bu uğurlar Gürcüstanın turizmdən gələn gəlirlərinə də təsir edib siz ötüşməyib. Çoqavadze 2016-cı ildə ümumilikdə 2 milyard dollardan çox gəlirin əldə edildiyini bildirib. Bəs, görəsən qonşu ölkənin turizm sahəsində bu uğurları qazanmasının səbəbi nədir? Eyni nəticəni Azərbaycan nə üçün əldə edə bilmir?

Milli Məclisin deputatı Vahid Əhmədov son illər Gürcüstanın uğurları ilə hər kəsi təəccübləndirdiyini bildirdi: "Gürcüstan son vaxtlar doğrudan da maraqlı bir dövlətə çevrilib. Düzdür, indi Saakaşvili haqqında müxtəlif fikirlər səslənir, ancaq o, Gürcüstanda müxtəlif mütərəqqi islahatlar həyata keçirdi. Turizm sahəsində də bir çox uğurlara nail oldu. Yeni obyektlər tikildi, xidmətin səviyyəsi artdı, qiymətləri ucuzlaşdırdı. Ona görə Azərbaycandan da Gürcüstana gedənlərin sayı artıb. Bizdə isə bu proses son vaxtlar başlayıb. 2016-cı ildə Azərbaycanda turistlərin sayında bir qədər artım baş verib. Ancaq bizdə turist axını hələ ki o dərəcədə deyil. Həm xidmətdə müəyyən qədər problemlər var. Həm də qiymət bahadır, bu da turist axınına mane olur".

Deputatın sözlərinə görə, problemlərdən biri də Azərbaycanda qiymətlərin yuxarı olmasıdır: "Azərbaycanın bölgələrində də müxtəlif turizm obyektləri tikilir. Lakin qiymətlər baha olduğu üçün əhaliyə əlçatan olmur. Əhalinin əksər hissəsi bu səbəbdən Gürcüstana üz tutur. Bu səbəbdən qonşu ölkədə turizm inkişaf edir. Həm də orada korrupsiyanın, rüşvətin qarşısı müəyyən qədər alınıb. Ona görə də insanların marağı daha çoxdur. Gürcüstanda gəzməli, görməli yerlər də az deyil. Son vaxtlar gözəl turizm obyektləri də tikilib.

Azərbaycanda turist axınına mane olan əsas faktorlardan biri də turistlərin valyutadəyişmə ilə bağlı problemlərinin olmasıdır. Daha önəmli faktorlardan biri bu sahədəki korrupsiyadır. Təxminən son il yarımda Azərbaycanda dolların manata, manatın dollara çevrilməsi ilə bağlı problem yaranıb. Ölkədə ciddi dollarlaşma prosesi gedirdi. Bu da sonda turizmə təsir edir. Problemlər var və o problemlər 2017-ci ilin birinci yarısında da olacaq. Çox güman ki, ilin ikinci yarısından etibarən bu problemlər həllini tapmağa başlayacaq".

İqtisadçı ekspert Natiq Cəfərli isə bildirdi ki, bu günə qədər Gürcüstanda aparılan siyasət artıq öz bəhrəsini verdi və artıq bu ölkəyə gələn turistlərin sayında kifayət qədər artım var: "Gürcüstanda təxminən 108 ölkə ilə vizalar tamamilə ləğv olunub. Vizaların ləğv olunması turist sayını artırıb. 12-ə qədər lou-kost şirkətləri, yəni ucuz uçuşlar həyata keçirən ölkələr Gürcüstanda fəaliyyət göstərir. Bu ölkədə kifayət qədər çoxlu sayda hosellər, ucuz otellər fəaliyyət göstərir. Müxtəlif əyləncə növləri var ki, insanları cəlb edir. Bütün bu məsələlər Gürcüstanı bizimlə müqayisədə daha önə çıxarır. Azərbaycanda hələ də viza problemləri qalmaqdadır. Elektron vizaya keçid təmin olunsa da bunun effekt verəcəyi də şübhə doğurur. Aviauçuşlar kifayət qədər bahadır, ucuz otellər yoxdur, əyləncə növləri məhduddur. Bütün bu məsələlərə görə biz rəqabətdə Gürcüstana uduzuruq".

❑ Nərgiz LİFTİYEVA

YENİ MÜSAVAT
N 3 (6617) 9 yanvar 2017

# "Zəngəzurun geri qaytarılması barədə qərar qəbul edə bilərik"

## Fəzail Ağamalı: "Əgər dövlət başçımızın iradəsi ortadadırsa, niyə biz bu istiqamətdə hərəkətə keçməməliyik?"

**"Baxış bucağı"**

**Bu günlərdə xəbər yayıldı ki, Rusiyada yaşayan bir qrup rus Zəngəzurun Azərbaycana qaytarılması ilə bağlı tələb irəli sürüb. Məlumata görə, beynəlxalq platforma olan Change.org saytında başladılan "Zəngəzuru Azərbaycana qaytarın" adlı petisiyaya səsvermə davam edir.**

Bəlkə də, Qarabağın işğalının davam etdiyi bir ərəfədə Zəngəzurun taleyinin müzakirəyə çıxarılması kimlərəsə utopik görünə bilər. Ancaq ermənilər tarixən bizim utopiya saydıqlarımızı mümkün edib özlərinə dövlət qurublarsa, biz niyə tarixi faktlara söykənən həqiqətlərimizi dilə gətirməyək? AMEA-nın Tarix İnstitutunun direktoru, professor Yaqub Mahmudov da bu fikirdədir ki, ermənilər üzərinə götürdüyü bütün öhdəlikləri birtərəfli qaydada pozduğu üçün İrəvan və ətrafındakı Azərbaycan torpaqlarının ermənilərə verilməsi barədə həm Batum müqavilələrinin müvafiq maddələri, həm də Azərbaycan Xalq Cümhuriyyəti Milli Şurasının 29 may 1918-ci il tarixli qərarı öz hüquqi qüvvəsini itirib. Ona görə də Azərbaycan Xalq Cümhuriyyəti Milli Şurasının İrəvan və ətrafındakı Azərbaycan torpaqlarının ermənilərə verilməsi haqqındakı qərarına yenidən baxılmalıdır.

Mövzunu tarixçi-deputat, əslən Zəngəzur mahalından olan Ana Vətən Partiyasının sədri Fəzail Ağamalı ilə davam etdirdik. Müsahibimiz təşəbbüsü dəstəklədi:

- Yaqub Mahmudovun yanaşması tamamilə doğrudur və tarixi həqiqətlərə, tarixi faktlara söykənir. Əslində 1918-ci il 27 mayda Ermənistan özünü müstəqil dövlət elan edərkən onun ərazi problemi var idi və bu problem faktiki olaraq Azərbaycanın tarixi torpaqlarında reallaşdı. Həmin dövrdə situasiya elə idi ki, Azərbaycan beynəlxalq güclərin təzyiqlərinə müqavimət göstərmək iqtidarında deyildi. Ermənistan dövlətinin yaranması həm də beynəlxalq güclərin ciddi təsiri altında baş verirdi. Erməni məsələsi xeyli əvvəl, hələ 19-cu əsrin ikinci yarısında müzakirə predmetinə çevrilmişdi. Bu məsələni nəhayət, Rusiya imperiyasının dağıldığı dövrdə reallaşdırmaq imkanı əldə etdilər. Beləliklə, Azərbaycanın tarixi torpaqlarında Ermənistan adlı dövlət yarandı. İrəvanın verilməsindən sonra, imzalanan Batum müqaviləsində də Ermənistanın ozamankı rəhbərliyi üzərinə öhdəliklər götürmüşdü ki, Azərbaycanın Zəngəzur və Qarabağ vilayətlərinə iddialarına son qoyacaq. Yəni ermənilər İrəvan şəhəri paytaxt olması, Zəngibasar, Vediabasar, Göyçə ətrafındakı torpaqların Ermənistan dövlətinə aid edilməsi şərtilə, Zəngəzur və Qarabağa olan iddialarından tamamilə əl çəkməli idilər. Lakin Ermənistan öz üzərinə götürdüyü öhdəliklərin heç birinə heç zaman əməl etmədiyinə görə sonradan Dərələyəz və Zəngəzur da başqa bir tarixi situasiyada Ermənistana birləşdirildi. Nəhayət, onlar Qarabağ uğrunda iddialarından da əl çəkmədilər. Tarixi faktlar da birmənalı olaraq bunu sübut edir ki, Azərbaycanın çoxminli ordusu məhz Qarabağda ermənilərə qarşı döyüşlərdə iştirak etdiyi üçün 1920-ci il aprelin sonlarında "11-ci Qızıl Ordu" bu vəziyyətdən sui-istifadə edərək çox asanlıqla sərhədi keçdi və Azərbaycanı işğal etdi. Ondan sonra da Qarabağın Ermənistana birləşdirilməsi istiqamətində cəhdlər yenə də davam etdi. Bu gün də artıq həmin cəhdlərin real mənzərəsi ortalıqdadır.

***- Siz necə düşünürsünüz, ermənilərin bir əsr əvvəl imzalanmış müqavilənin şərtlərini dəfələrlə pozması faktı*** işğalçı ölkənin Azərbaycana qarşı ərazi iddiaları davamlı olaraq ortalıqdadırsa, əgər bu gün Ermənistanın ərazi iddiaları ayrı-ayrı dövlətlər tərəfindən həm də müdafiə olunursa, biz niyə bu məsələni BMT və digər beynəlxalq təşkilatların gündəliyinə çıxarmayaq, dəlil-sübutlarımızı təqdim edib lazım olan qərarların qəbuluna çalışmayaq?

***- Petisiyanın Rusiyada başlanması bir az da şübhəlidir. Ola bilərmi kimlərsə bu məsə***-sında təşəbbüslə çıxış edib, bununla bağlı konkret addımlar atmalarını Milli Məclis olaraq onlardan tələb edə bilərik. Eyni zamanda, Milli Məclisdə bu məsələni müzakirə edib müvafiq qətnamə və qərar da qəbul etmək olar. Mən həmişəki kimi, bu gün də onun tərəfdarıyam ki, biz Ermənistana qarşı çox kəskin mövqedə dayanmalıyıq. Ölkə prezidenti bunun nümunəsini ortaya qoyub. Ermənistanın qarşısında birmənalı olaraq tə-

radıla bilərdi. Bu, Dağlıq Qarabağda yaradıla biləcək muxtar respublikaya adekvat addım kimi əhəmiyyətli məsələ olardı. Ancaq təəssüf ki, bu, hazırda müzakirələrdə özünə yer almır. Biz isə indiki vəziyyətdə məsələni gündəmə gətirərək nə dərəcədə bunu reallaşdıra bilərik, bu, artıq Azərbaycan ordusunun atacağı gələcək addımlardan asılıdır. Bu addımlar elə bir tarixi situasiya yarada bilər ki, biz bunu reallaşdıra bilərik.

orda olanda kəndimizin mütləq əksəriyyəti köçmüşdü, 5-6 ev qalmışdı. Yəni artıq hadisələrin gedişi hələ xeyli əvvəl yurddaşlarımızı ordan çıxmağa məcbur etmişdi. Çünki hər gün böyük təhdidlər, təkcə bizim kəndimizə yox, Sisianın digər kəndlərinə də olan hücumlar insanları ordan köçməyə vadar edirdi. Oranı ən gec tərk edən Sisianın Urud kəndi olmuşdu. Bu kənd çoxsaylı alimləri ilə məşhurdur. Şair və millət vəkili Musa Uru-



**"Son dəfə Zəngəzura, kəndimiz Şıxlara 1989-cu ildə getmişəm"**

***Azərbaycana məsələni gündəmə gətirmək, Ermənistana qarşı ərazi iddiası açmaq şansı verirmi?***

- Təbii ki, bizim tarixi faktlara, eyni zamanda, Batum müqaviləsinin şərtlərinə uyğun olaraq tarixi torpaqlarımızın geriyə qaytarılması və Azərbaycana birləşdirilməsi iddiası ilə çıxış etməyə tamamilə haqqımız çatır. Bu haqq təkcə tarixi həqiqətlərə deyil, eyni zamanda, beynəlxalq hüquq sisteminə söykənir. Əgər Ermənistan bu gün Azərbaycanın ərazi bütövlüyünü tanımırsa, işğal etdiyi torpaqlardan çıxmırsa, Azərbaycanın daha 20 faiz torpağını özünə birləşdirməyə çalışırsa, Azərbaycan da, təbii ki, buna qarşı özünün adekvat addımlarını atmalıdır. Biz dəfələrlə bu məsələni gündəmə gətirmişik. Dövlət başçımız daim Zəngəzurun, İrəvanın Azərbaycanın tarixi ərazisi olduğunu bəyan edir. Əgər dövlət başçımızın iradəsi ortadadırsa, niyə biz bu istiqamətdə hərəkətə keçməməliyik? Əgər

***lədən Azərbaycanı tələyə salmaq üçün istifadə etsin? Reallıq ondan ibarətdir ki, bu gün konfliktin Azərbaycan-Ermənistan dövlət sərhədinə keçirilməsi, nəticədə Rusiyanın prosesə cəlb olunması üçün cəhdlər göstərilir. Bununla bağlı nə demək olar?***

- Mən düşünmürəm ki, bu, bir təxribatdır. Rusiyada başlanılan bu proses istənilən halda Azərbaycanın xeyrinədir. Çünki bu petisiyanın başlanması əslində tarixi həqiqətlərin ortaya gətirilməsidir. Yəni ki, ay Ermənistan, sən anlamalısan ki, Zəngəzur Azərbaycanın tarixi ərazisidir. Əgər Zəngəzuru əlində saxlamaq istəyirsənsə, Qarabağdan cəhənnəm ol!

***- Bununla bağlı əvvəlcə parlament qərarımı olmalıdır? Siz məsələnin ciddi şəkildə gündəmə gətirilməsi üçün nə təklif edirsiniz?***

- Biz bu məsələni parlamentdə də qaldıraraq, Azərbaycanın Xarici İşlər Nazirlərinin və ölkəmizin digər hüquqi sistemə söykənən qurumlarının qarşı-

ləb irəli sürülməlidir ki, əgər sən Zəngəzuru əlində saxlamaq istəyirsənsə, onda Qarabağa olan iddialarından əl çək, işğala son qoy!

***- Bu gün Azərbaycan Dağlıq Qarabağ ermənilərinə muxtar respublika statusunu verə biləcəyini bəyan edir. Bunun qarşılığında Zəngəzurdan qovulan 250 min azərbaycanlının tarixi torpaqlarına qaytarılması və qarşılıqlı olaraq onlara da status verilməsi məsələsini tələb etmək daha doğru olmazdımı?***

- Biz muxtariyyət məsələsini qaldırsaq da, bu, real deyil. Hazırda Zəngəzur məsələsi, yaxud ordan qovulan insanlara eyni şəkildə muxtariyyətin verilməsi danışıqlar predmeti deyil, danışıqlarda özünə yer almır. 15-20 il bundan qabaq bu məsələ müzakirə olunurdu ki, əgər Dağlıq Qarabağda yaşayan ermənilərə muxtariyyət veriləcəksə, onda deportasiya olunan azərbaycanlılar da yurduna qaytarılmalı və muxtariyyət verilməlidir. Əslində bu, müəyyən mənada ədaləti özündə ifadə edən bir yanaşmadır. Çox yaxşı olardı ki, bu məsələ danışıqlar predmetinin içərisində olsun. Azərbaycan ərazisində mövcud olan separatçı rejimə muxtar respublika statusu verilirsə, ən azı bu status Zəngəzura da verilə bilər.

***- Zəngəzur mahalı geniş anlayışdır. Bəlkə bir az da konkretləşdirək...***

- Mən oranı yaxşı tanıyıram. Söhbət Sisian (tarixi adı Qarakilsədir, 1940-cı ildə dəyişdirilib - E.P.), Dərələyəz, Mehri və Gorusdan gedir. Cümhuriyyət dövründə Dərələyəzi çıxmaq şərtilə, digər ərazilər Zəngəzur qəzasına daxil olan ərazilər idi. Ora Dərələyəzi də əlavə etmək olar. Beləliklə, Dərələyəz, Sisian, Qafan, Mehri və Gorusda yaşayan insanlar ora köçürülə və beləliklə, Ermənistanın ərazisində də muxtar respublika yaradıla bilər. Bu, çox ədalətli bir yanaşma olardı və əslində digər ərazilərdən də köçürülən azərbaycanlılar da ora yerləşdirilməklə Ermənistanın tərkibində azərbaycanlılardan ibarət Zəngəzur Muxtar Respublikası ya-

***- Həmin bölgədən olan insanların kütləvi şəkildə dədə-baba torpaqlarına qayıtmaq istəyini beynəlxalq aləmə çatdırması daha doğru olmazdımı? Nədənsə biz, adətən, birinci atəş açan tərəf olmuruq, cavab atəşi açırıq...***

- Ermənilərin geri çəkilməsi və işğal olunmuş torpaqlardan rədd olub getməsi üçün atəş açılmasına əlavə təsir vasitəsi kimi baxılmasını qəbul etmirəm. Bu, kifayət deyil. Biz o torpaqlara hökmən qayıtmalıyıq! Mən heç şübhə etmirəm ki, tarixi ədalətsizliyi tarixin özü aradan qaldırır. Vaxtilə tarixi ədalətsizliyə yol verilərək alınmış Azərbaycanın tarixi torpaqlarının, ulu türk torpaqlarının yenidən Azərbaycana qaytarılması üçün situasiya yetişəcək. Təbii ki, mənim nəslim bunu görməyəcək, ola bilsin bu, 15-20 ildən, bəlkə də 30 ildən sonra reallaşacaq. Amma buna qətiyyən şübhəm yoxdur. Bu, qətiyyən populizm, konyuktura deyil, mən bunu kiməsə təskinlik vermək üçün demirəm. Tarix hər zaman özünün uğuru və uğursuzluqları ilə təkrarlanır. Tarix spiralvari bir prosesdir. Qətiyyən şübhə etmirəm ki, biz öz yurdlarımıza sahib çıxacağıq. Ancaq bəli, mən sizinlə tamamilə şərikəm ki, indidən biz bunun tarixi, hüquqi əsaslarını və fundamentini qoymalıyıq. Həm də bu, ardıcıl və sistemli xarakter daşımalıdır. Yaxşı ki, Yaqub Mahmudovun rəhbərliyi ilə Tarix İnstitutu bu baxımdan ciddi araşdırmalar aparır, bu məsələləri ortalığa qoyur. Lakin çox təəssüf edirəm ki, Azərbaycanın hüquq sistemi tarix elminin ortaya qoyduğu məsələləri davam etdirib, onu hüquqi müstəvidə gündəliyə gətirib beynəlxalq səviyyəyə çıxartmır. Bu məsələdə öz işimizi daha ciddi şəkildə yenidən qurmalıyıq.

***- Fəzail bəy, siz Zəngəzurda, Sisianda sonuncu dəfə nə vaxt olmusunuz?***

- Mən orda doğulmuşam, orta məktəbi bitirmişəm. 1964-cü ildə Sisiandan çıxmışam. Lakin mən son dəfə öz kəndimizə - Şıxlar kəndinə 1989-cu ildə getmişəm. 1989-cu ilin sentyabrında mən

dun kəndidir. Naxçıvanla sərhəddə erməni quldurları bizim insanların qabağını kəsərək hətta qadınların əllərindəki üzükləri, qulaqlarındakı üzükləri belə onlardan almışdılar, çox vəhşilik etmişdilər. Yurddaşlarımız külli miqdarda pul verilməsi hesabına, hərbi texnikanın vasitəsilə qarlı aşırımlardan keçərək Naxçıvanın Şahbuz rayonuna gəlib çıxmışdı. Amma mənim atamgil 1983-cü ildə Bakıya köçmüşdülər. Çünki kənddə yalnız atam və anam qalmışdı, onlar da yaşlı idilər.

***- Milli Məclisdə Zəngəzur mahalından olan bir neçə deputat var. Bəlkə də onların təşəbbüslə çıxış etməyə daha çox haqqı var...***

- Azay Quliyev Sisyanın Vağudi kəndindən, Musa Quliyev Uruddandır. Gənc həmkarımız Vüsal Hüseynov Sisyanın Şəki kəndindəndir. Mən dediyim kimi, Şıxlardanam. Eyni zamanda, Fazil Mustafa ata tərəfdən Şıxlar kəndindəndir. Bəli, biz də məsələ qaldıra bilərik. Ancaq Vətən və onun torpaqlarının taleyi ortaya gələndə təkcə soy-kökü ilə o torpağa bağlı insanlar yox, bütün millətin problemi olduğuna görə bütün millət vəkilləri bu təşəbbüsə qoşulmalıdırlar.

***- Yəqin ki, bəziləri müzakirə etdiyimiz mövzuya "əvvəl Qarabağı qaytarın, sonra Zəngəzuru müzakirə edərsiniz" ironiyası ilə reaksiya verəcək. Belələrinə sözünüz nədir?***

- Bu cür insanların düşüncələrini primitiv hesab edirəm və onları qəbul etmirəm. Mən şübhə etmirəm ki, biz gec-tez tarixi torpaqlarımızın geri qaytarılması ilə bağlı müqəddəs arzularımıza və hədəflərimizə çatacağıq. Çünki biz sıradan bir soy deyilik. Biz böyük dövlətlər, güclü imperiyalar yaratmış Atillanın, Çingizxanın, Teymurləngin, Sultan Səlimin, Şah İsmayıl Xətainin, Atatürkün və Heydər Əliyevin törəmələriyik. Türk oğlu türk olaraq biz öz yurdlarımıza, öz torpaqlarımıza qovuşacağıq, buna heç kəsin şübhəsi olmasın.

❑ **Elşad PAŞASOY**

# Anası ölmüş oğulların ölkəsi



Zamin HACI
zaminhaci@gmail.com

**Bakının kəndlərindən birində zəhmətkeşlər məhəlləyə Qarabağda keçən il aldığımız təpənin adını veriblər. Təxminən o məhəllənin qonşuluğunda bir tank komandirinin də evi var idi. Komandir cəbhədə vuruşan vaxt icra hakimiyyəti gəlib evi "qanunsuz tikili" adıyla sökmüşdü, ailəsini-uşağını çölə atmışdı. Sonrasını izləmədim, bəlkə də komandir cəbhədən köhnə, xarab tank korpusu gətirib ailəsini onun içinə yığdı.**

İndi isə məhəlləyə kim girə bilər? Düşmən ağ eləməsin. Bu çox yaxşı metoddur. Qarabağı Abşeronda "yığa bilərik" bu minvalla.

Başqa bir vətəndaş isə rayonda tikdiyi evi bayrağımız formasında rəngləyibdir. Vətənpərvərlik göz qabağındadır. Ancaq bu yolla biz icra hakimiyyətinə qalib gələ bilərik. Sovet vaxtı Bakıda raykomun qərarıyla küçə balkonlarını sökürmüşlər. Bir zəhmətkeş görüb ki, söküntü yavaş-yavaş onun balkonuna yaxınlaşmaq üzrədir, gecə bir yekə lövhəyə dövlətin şefi Leonid İliç Brejnevin "Şiroko şaqaet Azerbaydjan!" ("Azərbaycanın inkişafının analoqu yoxdur" deməkdir - Z.H.) sözünü yazıb balkondan asır. Nəticədə balkon xilas olur. Eyni kələyi 37-ci il repressiyası vaxtı bəzi dustaqların da elədiyini deyirlər. Onlar isə sinələrinə və kürəklərinə yoldaş Stalinin döyməsini (tatu) edirmişlər ki, güllələnmə cəzası veriləndə atəş aça bilməsinlər.

Patriotik temada yazmışıqsa, bir kədərli xəbəri də hörmətli oxucularıma çatdırmaq istəyirəm. Keçən il noyabrın 9-da "Yeni Müsavat"da "Şövqi Əsədovun sığortası" başlıqlı yazım olmuşdu. O yazıda uşaqlıqdan tanıdığım bir əsgərimizin taleyindən bəhs olunurdu. Füzuli rayonu, Aşağı Seyidəhmədli kəndində doğulan, elə o kənd uğrunda döyüşlərdə həlak olmuş Şövqi Qarakişi oğlu Əsədov haqda idi. Şövqinin ölümündən keçən 22 il ərzində onun ailəsinə çatacaq 11 min manat sığorta pulunu vermədilər. Hər cür bambılı idman turnirinə pul tapan hökumət şəhid statusu almış ailənin pulunu qıymadı. Həmin yazımda Şövqinin anası Səfurə Əsədovanın 2016-cı ilin aprelində dövlət orqanlarına yazdığı şikayət məktubuna da toxunmuşdum.

Uzun sözün qısası, Səfurə xanım qəhrəman oğluna görə alacağı, indi devalvasiya nəticəsində qəpik-quruşa dönmüş o 11 min manat "qan pulunu" görmədən 2016-cı ilin dekabrında - təxminən 15 gün qabaq öldü. Sizə çatdırmaq istədiyim kədərli əhvalat budur. Kimin əlaqəsi varsa "sobez" müdirinə çatdırsın - əcəl iddiaçılardan birinin adını artıq silmişdir. Rahat yata bilərsiniz. Bir neçə ilə həmin 11 minə iddiaçılardan kimsə qalmaz yəqin, siz də rahat-rahat idman turnirlərinə pul ayırarsınız.

Necə deyərlər, torpaq uğrunda idman varsa vətəndir. Yeri gəlmişkən, bu həftə şəhid ailələrimizi sevindirəcək başqa bir hadisənin anonsu verildi: Azərbaycanın kosmosa buraxacağı ikinci peykin vaxtı bilinibdir. Xəbər lentindən sitat: "Azərbaycanın ikinci telekommunikasiya peyki "Azerspace 2"-nin yığılması prosesi 2017-ci ilin sonunda başa çatacaq. Bu barədə Trend-ə "Azərkosmos" ASC-dən məlumat verilib. İş planına əsasən, peykin buraxılışı 2017-ci ilin dekabrında nəzərdə tutulub. ASC-nin məlumatına görə, ikinci geostasionar peyk "Azerspace 1"-in əhatə radiusunu genişləndirməyə imkan verəcək. Əhatə olunan bölgələrdə isə siqnal qəbulu daha da güclənəcək.

Qeyd edək ki, "Azerspace 1" 2013-cü ilin fevral ayında orbitə buraxılıb". Sitatın sonu.

Molla Nəsrəddin demişkən, filin dişisi də gəlir. Görəsən biz birinci peykdən hansı xeyri gördük ki, ikincini də uçurduruq? Bu haqda heç bir xəbər-ətər yoxdur. Hətta bəlkə də birinci peyki kosmosda itirmişik, camaata demirlər ki, ürəyimiz xarab olar. 200-300 milyon dollar da bu minvalla havaya uçurulacaqdır.

Səfurə xanımın ili də təxminən dekabrın axırına düşür, barı peykin uçmağını eyni günə salsınlar, patriotlarımız təskinlik tapsın. Torpaq həm də göydə peyki varsa vətəndir.

# Düşmənə qarşı informasiya savaşında mühüm presedent

**Azərbaycanın düşmən Ermənistanla Qarabağ uğrunda mübarizəsi illərdir həm də bir təbliğat savaşı, informasiya müharibəsi şəklində gedir. Bu savaşda kimin üstün olması ində-sonunda mütləq Dağlıq Qarabağ məsələsindəki mövqeyi də ciddi şəkildə müəyyən edir - ya bu mövqe güclənmiş olur, ya da əksinə.**




## İrəvanın Qarabağ təbliğatına zərbə - Lapşin Azərbaycana göndərilir

### İşğal altındakı ərazilərə qanunsuz səfər edib separatçı rejimi təbliğ edən şəxsi Minsk bu həftə Bakıya təhvil verə bilər; Ermənistanın kontur-tədbirləri fiasko olur; Lapşinin az sonra Azərbaycandan İsrailə ötürülməsi mümkünmü?

XXI əsrdə - internet və yüksək texnologiyalar dövründə təbliğat və əks-təbliğat amili xüsusilə böyük önəm daşıyır, çünki bu, Qarabağla bağlı beynəlxalq birliyin rəyinə təsir etmək gücündədir. Nə yaxşı ki, Azərbaycan bu yöndə istər diplomatiya, istərsə də diaspora səviyyəsində, eləcə də qardaş Türkiyə, digər dost ölkələrlə birgə zəruri addımları atır. 2016 - bu mənada kifayət qədər uğurlu il hesab oluna bilər.

Təkcə iki faktı xatırlatmaq kifayətdir:

1. Ötən ilin noyabrında təqib edilən erməni ictimai-siyasi fəalların Bakı konfransına qatılması, Xocalı soyqırımı abidəsini ziyarət eləməsi və ardınca münaqişənin Azərbaycanın ərazi bütövlüyü çərçivəsində həllini nəzərdə tutan Bakı Sülh Platformasını qəbul edərək, onu imzalaması (Hazırda Platformaya qoşulan erməni fəalların sayı 9-a çatıb);

2. İşğal altındakı ərazilərimizə qanunsuz səfər edib separatçı rejimi təbliğ edən, üçlü vətəndaşlığa (İsrail, Ukrayna, Rusiya) malik blogger Aleksandr Lapşinin Azərbaycanın sorğusu əsasında Belarusda saxlanması.

*****

İkinci məsələ ilə bağlı mühüm gəlişmə var. Belə görünür, Lapşinin Azərbaycana ekstradisiyasına bir şey qalmayıb və o, tezliklə, ola bilsin elə bu həftə Bakıya göndəriləcək. Və məsələdə İsrailin diplomatik kanallarla Azərbaycana təzyiqi də görünür, effektli olmayıb. Bunu Baş Prokurorluğun Mətbuat xidmətinin rəhbəri Eldar Sultanovun son açıqlaması təsdiq edir: "Bir qrup şəxslə cinayət əlaqəsinə girərək Azərbaycanın işğal olunmuş ərazisinə qanunsuz səfər və dövlət əleyhinə yönələn açıq çağırışlar etdiyi, dövlət sərhədini qanunsuz keçdiyinə görə Belarusda saxlanılan Aleksandr Lapşinin ölkəmizə ekstradisiya olunması ilə əlaqədar hazırda zəruri tədbirlər davam etdirilir", - deyə Sultanov "Trend"ə deyib. Onun sözlərinə görə, Aleksandr Lapşinin Azərbaycana ekstradisiya edilməsi üçün sənədlər Baş Prokurorluq tərəfindən Belarus hüquq-mühafizə orqanlarına təqdim edilib: "A. Lapşinin hərəkətlərində dövlət əleyhinə yönələn açıq çağırışlar və dövlət sərhədini qanunsuz olaraq keçmə əməllərinin tərkib əlamətləri olduğu üçün Baş Prokurorluğun Ağır Cinayətlərə Dair İşlər üzrə İstintaq İdarəsində fakta görə Azərbaycan Cinayət Məcəlləsinin 281.2 (dövlət əleyhinə yönələn açıq çağırışlar) və 318.2-ci (Azərbaycan Respublikasının dövlət sərhədini qanunsuz olaraq keçmə) maddələri ilə cinayət işi qaldırılıb və barəsində dövlətlərarası axtarış elan edilib. Minsk Məhkəməsinin qərarı ilə Aleksandr Lapşin barədə 2 aylıq həbs qətimkan tədbiri seçilib. Hazırda həmin şəxsin Azərbaycan tərəfə təhvil verilməsi üçün sənədləşmə işləri aparılır".

Qeyd edək ki, A.Lapşin Azərbaycanın mühafizə olunan dövlət sərhədini müəyyən edilmiş sənədlər olmadan və nəzarət-buraxılış məntəqələrindən kənarda keçərək 2011-ci ilin aprel və 2012-ci ilin oktyabr aylarında işğal olunmuş ərazilərə daxil olub. O, qanunsuz rejimin beynəlxalq səviyyədə təbliğ edilməsi məqsədilə internet sosial şəbəkəsində səyahət etdiyi dövlətlər arasında Azərbaycan və Ermənistanla yanaşı, Dağlıq Qarabağı da müstəqil dövlət kimi qeyd etməklə, həmçinin 6 aprel və 29 iyun 2016-cı il tarixli müraciətlərində işğal olunmuş ərazilərdə qanunsuz fəaliyyət göstərən rejimin "müstəqilliyini" dəstəkləməklə Azərbaycanın beynəlxalq səviyyədə tanınmış ərazi bütövlüyünün parçalanmasına yönələn açıq çağırışlar edib. Azərbaycan qanunvericiliyinə görə, onu 5 ildən 7 ilə kimi həbs cəzası gözləyir.

*****

Prokurorluğun açıqlamasından az öncə isə İsrailin İzrus portalı Lapşinin həqiqətən Bakıya ekstradisiya oluna biləcəyini yazıb. Bu barədə portal bloggerin Yekatrina adlı rəfiqəsinə istinadən xəbər yayıb. "Aleksandr mənə çatdırdı ki, bir neçə gün öncə o, birbaşa təcridxanada güc strukturları nümayəndələri ilə görüşə çağırılıb və ona bildirilib ki, ekstradisiyası ilə bağlı qərar artıq verilib. Ancaq mövcud situasiyada Azərbaycan, Belarus və İsrail arasında anlaşma var ki, Bakı onu dərhal İsrail nümayəndəsinə təhvil verəcək. Bu zaman heç bir sənəd təqdim edilməyib və söhbət protokola salınmayıb", - deyə Lapşinin rəfiqəsi iddia edib.

Lakin onun sözlərinə görə, İsrail konsulluğunda ona A.Lapşinin işi ilə bağlı Bakı və Minsklə heç bir anlaşmanın olmadığını bildiriblər: "Bundan əlavə, nə konsulluq, nə də ələlxüsus İsrail XİN hər hansı üçüncü şəxsə onların adından, o cümlədən də A.Lapşinin işi ilə əlaqədar bəyanat vermək səlahiyyəti verməyiyini bildirib. Hər hansı anlaşma haqda Rusiya konsulluğunda da məlumatsızdırlar", - Yekatirina əlavə edib.

*****

Göründüyü kimi, İrəvanın ciddi kontur-tədbirlərinə və hay-küyünə rəğmən, Lapşinin Bakıya verilməsi faktiki həll olunmuş məsələdir. Bu ekstradisiya heç şübhəsiz ki, Sülh Platformasının ardınca işğalçı Ermənistanın təbliğat maşınına vurulan ikinci güclü zərbə olacaq. Çünki ilk presedent olacaq ki, işğal altındakı Dağlıq Qarabağa qanunsuz səfər eləmiş xarici vətəndaş Azərbaycan məhkəməsi qarşısında duracaq. Bu olaydan sonra çətin ki, kimsə Lapşinin hərəkətlərini təkrarlamağa cürət eləsin. Yeni çəkindirici amil məsələsi.

Ola bilsin, bundan sonra Lapşin üzrxahlıq eləsin və Azərbaycan prezidenti də humanistlik göstərərək və strateji tərəfdaş İsrailin xahiş-minnətlərini də nəzərə alaraq, onu mühakimə olunmaq üçün yəhudi dövlətinə versin. Ancaq bu halda da presedentin siyasi effekti azalmayacaq. Üstəlik, Lapşin Azərbaycan xalqından üzr istəyəcəksə, bu effekt artacaq ki, azalmayacaq.

Əsas odur ki, Dağlıq Qarabağ məsələsində Azərbaycan dövləti prinsipial mövqedədir və belə qənaət hasil olur ki, hətta İsrail tərəfinin xahiş-minnətləri də bu prinsipiallığı dəyişə bilməyib. Ayrı cür ola da bilməz. Axı, Qarabağ bizim üçün "qırmızı xətdir".

P. S. Qəzet çapa gedərkən məlum oldu ki, Minsk Şəhər Məhkəməsi A.Lapşin barəsində olan həbs-qətimkan tədbirini dəyişdirməyib. Demək, onun ekstradisiyası hər an reallaşa bilər.

❑ Siyasət şöbəsi

YENİ MÜSAVAT
N 3 (6617) 9 yanvar 2017

# Avropa Birliyi Azərbaycanla da viza rejimini ləğv edə bilər

## Yeganə Hacıyeva: "AB və Azərbaycan arasında vizasız rejimin icra olunmasının növbəti mərhələsi başlayacaq"

## Ramil Abdullayev: "Yeni danışıqlar mərhələsinin sonunda Azərbaycan və Avropa Birliyi arasında viza rejiminin ləğvi mümkün ola bilər"

**Avropa Birliyinin Gürcüstan və Ukraynaya qarşı viza rejiminin ləğvi ilə bağlı ötən ay razılaşma əldə olunub. Beləliklə 4 GUAM ölkəsindən ikisi Avropa Birliyinə (AB) inteqrasiya istiqamətində ciddi bir uğur əldə etmiş olublar. Azərbaycan da GUAM-ın üzvüdür və Azərbaycan da adıçəkilən iki ölkə ilə eyni dövrdə müstəqillik əldə edən respublikadır. Baxmayaraq ki, Azərbaycan da uzun müddətdir Avropanın enerji təhlükəsizliyinə töhfə verir.**

Ölkə qanunvericiliyinin Avropa standartlarına uyğunlaşdırılması istiqamətində müəyyən işlər aparılır. Ölkəmiz "Şərq Tərəfdaşlığı" prosesinə qoşulub. Dəyərlər baxımından Avropaya daha yaxın olan Azərbaycan Avropaya inteqrasiya yolunu tutsa da, real nəticələr əldə olunmayıb, Gürcüstan və Ukrayna bu məsələdə xeyli irəli gedə biliblər. Ötən ilin sonlarına doğru Azərbaycan-Avropa Birliyi münasibətlərində müsbət istiqamətdə inkişafı sezilsə də, problemlər hələ də qalmaqdadır.

Gənc Demokratlar İnstitutunun rəhbəri, Avropa Birliyi üzrə ekspert Yeganə Hacıyeva bildirdi ki, hazırda Azərbaycan və AB-nin 14 üzv ölkəsi ilə hökumətlərarası komissiya, 2 üzv ölkəsi ilə işçi qrupu fəaliyyət göstərir. AB Azərbaycanla bütün digər sahələrdə olduğu kimi viza məsələsində də əməkdaşlığın dərinləşməsində maraqlıdır: "Azərbaycan ilə AB arasında viza rejiminin sadələşdirilməsi və readmissiya barədə iki saziş mövcuddur . Viza rejiminin sadələşdirilməsi barədə sazişin uğurla həyata keçirən, AB ilə miqrasiya qaydalarının pozmamış Azərbaycan növbəti pillə kimi Avropa ilə viza prosedurunun tamamilə aradan qaldırılması üçün fəaliyyət planı tələb edəcək. Belə ki, Azərbaycan tərəfindən AB və Azərbaycan arasında vizasız rejimin icra olunmasının növbəti mərhələsi başlayacaq. Ümumiyyətlə AB-nin dövlətlərə tətbiq etdiyi mexanizm belədir ki, əvvəlcə viza rejimi sadələşdirilir, sonra tamamilə aradan qalxır. Ölkəmiz isə pilləli olaraq bu fəaliyyəti həyata keçirir".

Avropa Birliyi üzrə ekspert, "İntellekt" Demokratiyanın Təbliği İctimai Birliyinin sədri Ramil Abdullayev isə deyir ki, Azərbaycanın Avropaya inteqrasiyası ölkəmizin gələcək inkişafı üçün önəmlidir: "Azərbaycan 2007-ci ildə özünün milli təhlükəsizlik konsepsiyasını qəbul edib. Azərbaycanın Avroatlantik məkana inteqrasiyası əsas hədəflərdən biri kimi həmin milli təhlükəsizlik platformasında təsbit edilib. Uzun müddət keçsə də, sənəddə təsbit edilənləri reallaşdırmaq mümkün olmayıb. Ölkəmizdə demokratiyanın bərqərar olması, Azərbaycan dəyərlərinin Avropa məkanında, Avropa dəyərlərinin Azərbaycanda yayılması, ölkə mətbuatının Avropa standartlarına uyğunlaşdırılması sahəsində ciddi irəliləyişlər əldə edilməyib. 2013-cü ilədək ölkəmizin Avropaya inteqrasiyası istiqamətində görülən işlərə vətəndaş cəmiyyəti institutları da öz töhfəsini versə də, sonradan qanunvericiliyə edilən dəyişikliklər QHT-lərin fəaliyyətinə böyük zərbə vurdu. Təəssüf ki, hazırda da bu problemlər davam etməkdədir".



R.Abdullayevin sözlərinə görə, Azərbaycanla AB arasında danışıqların yeni mərhələsinin başlanması bu istiqamətdə müəyyən nailiyyət əldə ediləcəyinə ümid yaradır: "AB-nin müxtəlif inteqrasiya proqramları var. Hazırda isə Azərbaycanla AB arasında strateji əməkdaşlıq haqda sənəd üzərində iş gedir. Avropa Birliyi artıq bununla bağlı müvafiq mandat verib və danışıqlarda iqtisadi, humanitar sahələrlə münasibətlər müzakirə olunur. Bundan başqa, danışıqlarda enerji sahəsində olan münasibətlər, viza rejimi ilə də bağlı məsələ də müzakirə edilir. Danışıqların sonunda Azərbaycan və AB arasında viza rejiminin ləğvi mümkün ola bilər. Rəsmi Bakı öz strateji seçimini edərək Avropaya inteqrasiya yolunu tutduğunu açıq bəyan etməlidir. AB ilə danışıqların yeni mərhələsinin başlanması, bu qurumun Azərbaycan üçün elan etdiyi qrant müsabiqəsində ölkəmizin prioritet elan etdiyi sahələrə yer verilməsi artıq münasibətlərin normallaşması istiqamətində atılan addımlar kimi şərh oluna bilər. İndi qalır bu tarixi şansdan yararlanaraq ölkəmizin gələcək inkişafı naminə doğru addımı atmaq. Düşünürəm ki, Azərbaycan Avropaya inteqrasiya istiqamətində əsas maneələrdən hesab olunan siyasi məhbus və insan hüquq və azadlıqlarının təmini sahəsində də real addımlar ataraq bu istiqamətdəki siyasətinin davamlı olduğunu nümayiş etdirəcək. Eyni zamanda Avrointeqrasiya istiqamətində fəaliyyət göstərən vətəndaş cəmiyyəti institutlarının normal fəaliyyətini əngəlləyən, üçün üç il öncə qanunvericiliyə edilən əlavə və dəyişikliklər aradan qaldırılacaq. Nəzərə almaq lazımdır ki, bu islahatların aparılması təkcə Avropa Birliyinin tövsiyəsi deyil".

❑ E.SEYİDAĞA

# "Qaz kəmərlərinin təhlükəsizliyi həm də Avropanın təhlükəsizliyi məsələsidir"

## Elçin Mirzəbəyli: "Ölkəmizin hansısa dairələrin hədəfində olması təbiidir"

**Bir sıra deputatlar və siyasətçilər son zamanlar ard-arda qaz kəmərlərində baş verən partlayışların qəsdən törədilməsi ehtimalının olmasının istisna edilmədiyini iddia edirlər. Məsələn, Milli Məclisin Təhlükəsizlik və Müdafiə Komitəsinin üzvü Zahid Oruc bildirib ki, bu gün Azərbaycanı hədəf kimi qəbul edən dairələr, qüvvələr var. Həmin dairələr Türkiyə ilə Azərbaycanı birləşdirən vahid kəmərlər üzərindən həm də təhlükələri birləşdirə bilərlər, buna qadirdirlər.**

"Partlayışların mühüm siyasi-iqtisadi dönəmlərə düşməsi, dünyada terror olaylarının bu qədər artdığı zamanda sinxron baş verməsi Azərbaycanda bu hadisələrin mütləq kənar iradə hesabına gerçəkləşdirildiyi ehtimalını yaradır. 2015-ci il dekabrın 4-də "Günəşli" yatağında 30-ə qədər insanımızın faciə nəticəsində həlak olmaları, 2016-cı ilin dekabrında açıq dənizdə estakadada köşkün suya düşüb batması ilə nəticələnən olay, ardınca magistral qaz kəmərində 2 dəfə partlayış baş verməsi bir-biri ilə sanki uzlaşır.




Ortaya bir tablo çıxır. Amma əlimizdə kəşfiyyat məlumatları da yoxdur deyə, sadəcə, ehtimallarımızı söyləyirik. Neft və qaz təsərrüfatı ölkəmizin təkcə qan-damar sistemi deyil, həm də bütövlükdə cəmiyyətimiz də bu estakadanın üzərindədir. Bu, həmçinin təhlükəsizlik simvoludur. Ona qarşı hər hansı bir zərbə vurulursa, təxribat törədilirsə, bu, dövlətin bünövrəsinə vurulan zərbədir. Bu olayların terrorla nə dərəcədə bağlantısının olmasını təhlükəsizlik orqanları daha yaxşı bilirlər. Bununla belə Azərbaycanda son illər ərzində bu cür kənar qüvvələrin müəyyən qədər sistemli fəaliyyəti də inkarolunmazdır" - deputat deyib.

Doğrudanmı Azərbaycan müəyyən güclərin terror hədəfində ola bilər? Bu arada ASALA terrorçularının Ermənistan güc strukturlarına yol tapdığı barədə xəbərlər yayılıb. Bir sıra ekspertlər bildirir ki, Azərbaycanın müvafiq qurumları bu amili də xüsusi nəzərə almalı və təhlükəsizlik məsələləri daha da ciddiləşdirilməlidir.

Politoloq Elçin Mirzəbəyli bu barədə danışarkən qeyd etdi ki, qaz kəmərlərində baş verən partlayışlar müvafiq dövlət qurumları tərəfindən texnogen qəza kimi qiymətləndirilib. Bu baxımdan baş verənlərdə terror amili istisna olunur. Amma hər bir halda ayıq-sayıqlıq əldən verilməməlidir: "Terror və terrorizmlə bağlı məsələlərdə ehtimallar üzərində mülahizələr irəli sürülməsinin tərəfdarı deyiləm. Belə məsələlər peşəkar yanaşma və ictimai maraqların nəzərə alınmasını tələb edir. Bildiyim qədər, Azərbaycan, Gürcüstan və Türkiyədən keçən enerji və nəqliyyat dəhlizlər yüksək peşəkarlıqla qorunur. Bu artıq təkcə Azərbaycan, Gürcüstan və Türkiyənin məsələsi deyil, həm də Avropanın təhlükəsizliyi məsələsidir".

O ki qaldı ölkəmizin hansısa dairələrin hədəfində olmasına, E.Mirzəbəyli vurğuladı ki, bu, təbiidir: "Azərbaycan geosiyasi mövqeyinə, mühüm enerji və nəqliyyat dəhlizlərinin qovşağında olduğuna görə hər zaman hədəfdə olub. Torpaqlarımızın işğalı faktını və Ermənistanla müharibə vəziyyətində olduğumuzu nəzərə alsaq, bizi hədəfə çevirən amillərin sayının yetərincə olduğunu deyə bilərik. ASALA-ya gəldikdə isə bu terror təşkilatı fəaliyyətini heç zaman dayandırmayıb. ASALA-nın Ermənistan hakimiyyətinə sızması isə təəccüblü deyil. Ermənistanın bugünkü siyasi elitası onsuz da terrorçulardan ibarətdir. Ermənistanın həm iqtidarında, həm də müxalifətində ASALA, QNÇAK, "Daşnaksutyun" terror təşkilatlarının nümayəndələri təmsil olunurlar. Ermənistanda siyasi təşkilatlarla terror təşkilatları iç-içədirlər və eyni məqsədə xidmət edirlər. ASALA, "Daşnaksutyun" və QNÇAK-dan fərqli olaraq milli platforma deyil, marksist platforma üzərində fəaliyyət göstərir. Daha dəqiq desək, marksist maskası taxıb. Bu baxımdan, ASALA PKK və digər bu kimi təşkilatlarla birgə hərəkət edir. PKK ilə ASALA uzun müddətdir rəsmi ittifaqdadırlar. Bu baxımdan təkcə Azərbaycan üçün deyil, həm də Türkiyə üçün təhlükə yaradırlar".

❑ Etibar SEYİDAĞA

# Şimali Koreya diktatorunu öldürmək üçün xüsusi dəstə yaradılır

**ABŞ xüsusi təyinatlıları və Cənubi Koreya silahlı qüvvələri Şimali Koreya Xalq Demokratik Respublikasının lideri Kim Çen Inın məhv edilməsi məqsədilə xüsusi dəstə yaradır. Modern.az-ın xarici mediaya istinadən verdiyi xəbərə görə, bu niyyət Şimali Koreya ilə müharibə başlayacağı təqdirdə reallaşdırılacaq.**


Kim Çen In

Briqadanın bu il formalaşdırılması planlaşdırılır. Onun bir-iki min nəfərdən ibarət olacağı gözlənilir. Amerikalı hərbçilər Cənubi Koreya komandanlığı altında fəaliyyət göstərəcək. ABŞ və Seul yaxın aylarda mümkün ssenarilərin hazırlanması üçün birgə təlimlərə başlayacaq.

Briqadanın vəzifəsi təkcə Kim Çen Inın öldürülməsi yox, həm də Şimali Koreyanın bütün ali siyasi və hərbi rəhbərliyinin neytrallaşdırılması olacaq.



# Sarımsaq

Elşad PAŞASOY
epashasoy@yahoo.com

**Böyük potensiala malik olan ölkəmiz də ötən illərdə heç olmasa Türkiyə nümunəsindən bəhrələnməli idi. Qardaş ölkənin bazarlarında qida, kənd təsərrüfatı, sənaye məhsullarına qədər nə axtarsan, yerli maldır. Vətəndaş bir-birinə fayda verir, üstəlik, keyfiyyətli məhsula sahiblənir.**

Yəqin şahidi olubsunuz, turistik bölgələrin üzərindən təyyarə ilə uçanda aşağıdakı istixanalar, meyvə bağları göz oxşayır. Bu işlər həm ölkəyə, həm vətəndaşa iri məbləğlər qazandırır və təməli uğurla qoyulmuş proses davam edir, xaricdən asılılıq problemi də yox.

Düzdür, bəzən bizim iş adamları Türkiyə nümunəsindən bəhrələnmək istəyirlər, amma adamları peşman edənlər tapılır. Yerli telekanallarda bir reportaj diqqətimi çəkdi, baxdım və utandım. Təsəvvür edin, Türkiyədən dəvət olunmuş aqronom deyirdi bilmirlər nə əksinlər ki, növbəti ildə zəhmətləri boşuna getməsin. Buna görə də hansısa bir qurumdan sifariş gözləyirlər. Hətta misal çəkdi ki, Türkiyədə tələbat nəzərə alınaraq iş adamlarına təkliflər edilir.

Ancaq heyrətamiz olanı budur ki, rəsmi qurumun nümayəndəsi "biz vətəndaşa "bunu ək, onu əkmə" deyə bilmərik"-söyləməklə yaxasını kənara çəkdi. Bunu da prezidentmi deməlidir? Necə yəni biz deyə bilmərik? Sizi o postda ona görə oturdublar ki, ölkədə məhsul bolluğunun təminatı üçün tələb olunanları icra edəsiniz. Kəndli, fermer, iş adamı bilməlidir ki, o, nə əksə, faydasını daha çox görəcək. Əks təqdirdə yenə də kartof üçün Qazaxıstana, buğda üçün Ukraynaya, xiyar üçün İrana üz tutacağıq.

Görünən budur ki, bəzi səlahiyyətlilər dövlət başçısının siyasətinə zidd gedərək daxili istehsalın stimullaşdırılmasındansa, xaricdən ucuz qiymətə məhsul idxal edib bazarda "od qiyməti"nə satdırmağı daha gəlirli hesab edirlər. Bu kimi kadrlarla "Strateji yol xəritələri"ndə qarşıya qoyulan vəzifələri yerinə yetirməyin mümkün olmayacağını bir sıra ciddi ekspertlər də deyir. Ümumi mövqe belədir ki, ölkədə islahatları aparmaq üçün yeni hökumət formalaşmalıdır və indiki kadrlarla üzləşdiyimiz problemləri aradan qaldıra bilməyəcəyik.

2017-ci ilin dövlət büdcəsi Azərbaycanın son 10 ilinin ən aşağı büdcəsi oldu. Kimin sayəsində? Günahkar təkcə neft və dollardırmı? İqtisadçıların arqumentləri onu deyir ki, yox, burada həm də vaxtında tədbirlər görməyən hökumət üzvləri də günahkardır. Neft pulları o qədər arxayınlıq yaratmışdı ki...Hətta əli işdən soyuyan vətəndaş da günün birində "soğan əkin" deyən deputata ironiya edib "bu, nə danışır, indi gedib soğan əkək" reaksiyasını verdi.

Əslində burada sadə insanların günahkar deyil, vaxtilə əkdiyi soğan anbarlarda çürüdü, ya da su qiymətinə alındı deyə, əkin-biçinə maraq öldü. İndi də bizim məmur deyir əkinçi nə istəyir əksin. Bəs, tələb-təklif, bəs, planlaşdırma? Vətəndaşlar kütləvi şəkildə buğda əkəcək, gələn il onu da qəpik-quruşa alan olmayacaq, amma başqa bir məhsul az əkildiyindən qızıl qiymətinə axtaracaqlar. Necə ki, bu il sarımsağın kilosu 10 manatdan aşağı düşmədi, onu da İrandan, Türkiyədən daşıyırlar. Sarımsaq isə çox strateji məhsuldur. Təbiblərin dediyinə görə min bir dərdin dərmanıdır. Dostlar danışır ki, Türkiyədə qeyri-rəsmi görüşlərdə masa üzərində xırdaca doğranmış sarmsaq "həb"ləri və su bardaqları qoyulur. "Həb"dən ud, sudan iç, viruslardan uzaq ol. Qardaş ölkənin kulinariyasında da sarımsaqdan çox geniş istifadə olunur.

Bizdə isə neçə vaxtdır qrip tüğyan edir. Adam az qalır desin ki, Azərbaycanda bolluca soğan-sarımsaq əkilsəydi, bu qədər xəstə adam xəstələnməzdi. Deməli burada səhiyyə sistemi ilə bərabər kənd təsərrüfatı mütəxəssislərinin də günahı var. Əhaliyə soğan-sarımsaq əkməyi sifariş etmək lazım idi.

Demə, sarımsaq əsasən İsmayıllı rayonunun İvanovka kəndində yetişdirilirmiş. Ancaq ötən il onlar da bu məhsulu əkməyə maraqlı olmadıyıb və qıtlıq yaranıb. Bazarımızdakı sarımsaq isə İran, Çin, Yaponiya və...Gürcüstandan gətirilir...Çin, Yaponiyanı başa düşdük. Adamı yandıran sonuncudur. Keçən il Gürcüstana gedən 6 350 825 xarici turistin düz 1 523 075-i Azərbaycandan olub. Üstəlik, sarımsağı da gəzməyə getdiyimiz ölkədən alırıq...

Azərbaycan iqtisadiyyatını fəlakətlərdən xilas etmək üçün iri proqramlar, yol xəritələri təsdiq olunub. Ancaq ölkəni təbii antibiotiklə - sarımsaqla təmin etməyə maraqlı olmayanlarla, "kəndli nə əkir-əksin" deyənlər çətin ki, bu qədər ağır yükün altına çiyin verib dövlət başçısının etimadını doğrulda bilsinlər...

**Quba rayon Məhkəməsində 10 yaşlı Nuray Bayramzadənin məhkəmənin qərarı ilə zorla xalasından alınıb, atasına verilməsini özündə əks etdirən video qısa bir zamanda sosial şəbəkədə xeyli yayıldı. Ölkə ictimaiyyəti bu olaya müxtəlif cür reaksiya verdi. Nəticədə Nurayın hüquqlarını qorumaq üçün işçi qrupu yaradıldı və məsələyə Ombudsman Aparatı da qarışdı.**

# 10 yaşlı Nurayın məsələsi böyüyür - son gəlişmələr, rəylər

## Novella Cəfəroğlu: "Hüquqi baxımdan uşaq bioloji atasına verilməlidir, lakin..."

## Mehriban Zeynalova: "Uşağın maraqları və rəyi əsas götürülməlidir..."



Belə ki, Ombudsman Aparatının rəhbəri Aydın Səfixanlı APA-ya açıqlamasında bildirib ki, sosial şəbəkədə yayılmış məlum videoya onlar tərəfindən baxılıb və araşdırma aparılıb. Bildirilib ki, bu məsələ ombudsmanın nəzarətindədir. Bundan əlavə, yanvarın 8-də Ədliyyə Nazirliyinin icra baş idarəsinin Quba icra şöbəsində baş vermiş hadisə ilə bağlı yaradılan İşçi Komissiyası Quba rayonuna səfər edib. Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsi və yerli icra hakimiyyəti orqanlarının nümayəndələrindən təşkil olunan komissiya üzvləri 10 yaşlı Nuray və ailə üzvləri ilə görüşüblər.

Lakin hələ də ictimaiyyətdə əsas müzakirə olunan məsələ məhkəmənin 10 ildir Nurayın üzünü görmədiyi bildirilən ataya uşağın verilməsi ilə bağlı çıxardığı qərardır. Bildirilir ki, ata əgər bu vaxta qədər uşağını arayıb, sormayıbsa, bir günün içərisində məhkəmənin qərarı ilə ona verilə bilməz.

Məsələ ilə bağlı "Yeni Müsavat"a danışan hüquq müdafiəçisi Novella Cəfəroğlu bildirib ki, qanunlarımızda boşluq var: "Hüquqi cəhətdən uşaq bioloji atasına verilməlidir. Lakin bu hadisədə bir neçə məqam var. Birinci məsələ ədliyyə polisinin özünü biabırçı aparmasıdır ki, nəticədə uşaq psixoloji baxımdan gərilib. İkincisi isə budur ki, ailələr öz aralarında danışa bilərlər. Ata da qəddarlıq nümayiş etdirir. Əgər uşaq sənlə yaşamaq istəmirsə, deməli, həftədə bir dəfə, yaxud ayda iki dəfə uşağı görə bilmək üçün bir yol tapıb xalası ilə danışmalısan. Əgər belə olarsa, uşaq da ona öyrəşər. Məhkəmə elə bir qərar çıxarmalı idi ki, uşaq atasına verilsə də bir neçə müddət xalasının yanında qalsın və proses yuxarıda qeyd etdiyim kimi getsin. Bu hadisə ilə bağlı məhkəmə prosesi 5 ildir davam edir. Uşaq 10 yaşına çatanda kiminlə qalmaq istədiyinə özü qərar verir. Qanunda da belədir ki, xala qan qohumu deyil. Əslində bu da qanunundakı boşluqlardan biridir və bundan da istifadə edirlər. Bu cür hadisələr cəmiyyətimizdə tez-tez baş verir. Biz hadisələrlə rastlaşmışıq ki, hətta uşaqları anadan alıb ataya verirlər. Məsələ ilə bağlı yanvarın 9-da həmin ailə ilə görüşəcəyik. Bu insanların çəkişməsi fonunda biz istəyirik ki, Milli Məclisin fikrini qanundakı boşluqlara yönəldək".

Mövzu ilə bağlı "Yeni Müsavat"a danışan "Təmiz Dünya" İctimai Birliyinin rəhbəri Mehriban Zeynalova bildirdi ki, düşmənçilik mühitində deyil, hansısa optimal sülh yolunda bu məsələni həll etmək mümkün idi. "Bu məsələdə çox rəylər söylənilir və müxtəlif fikirlər var. Birinci məsələ ondan ibarətdir ki, uşağın maraqları və rəyi əsas götürülməlidir. Ancaq məhkəmə qərar çıxardırsa, bu qərar zamanı onun icrasında tələskiliyə yol verilməməlidir. Yəni münasibəti tənzimləyən vasitəçilər olmalıdır. Anlaşılandır ki, dövlət qulluqçularının bu məsələyə aidiyyəti yoxdur. Belə olan halda məsələyə əlavə resurslar cəlb olunmalıdır. Misal üçün, QHT-lərdəki sosial işçiləri, psixoloqları qeyd etmək olar. Məktəb psixoloqları bu məsələlərdə kifayət qədər bilgiyə malik deyillər. Şəxsən mən hesab edirəm ki, bu məsələdə mütləq şəkildə danışıqlar aparılmalı idi. Düşmənçilik mühitində deyil, hansısa optimal sülh yolunda bu məsələni həll etmək mümkün idi. Təəssüflər olsun ki, qanun onun icrasını tələb edir. Qanunun icrasında isə əlavə resurslar məsələsi hələ ki gündəmdə deyil. Zaman gələcək bu da olacaq. Çünki bu kimi məsələlər gündəmdə tez-tez ortaya çıxır və xeyli sayda narazılıqlar olur. Kimsə öz narazılığı ilə qanunun icrasına mane ola bilir. Təbii ki, biz, icraçının vəzifə səlahiyyətlərini icra edərkən kifayət qədər etik normalarla davranmasını, ifadə və sözlərinə diqqət yetirməsini əsas gətirirk".

M.Zeynalova bildirib ki, istənilən qanunu icra edən zaman etik davranış normaları mütləq şəkildə həyata keçirilməlidir: "Hansı ifadələr işlənə bilər və ya bilməz deyə, hüquq mühafizə orqanları üçün bir normalar olmalıdır. Ənənəvi olaraq iş prosesində adi sözlər işlənə bilməz. Təlimlər və digər vasitələrlə bu kimi yenilikləri gətirmək lazımdır. Konkret olaraq Qubada baş verən hadisədə də məsələni kəskinləşdirməmək üçün əlavə resursları mütləq cəlb etmək lazım idi. Bütün məsələlərdə danışıqlarla, problemləri həll etmək olar. Tərəflərin hər ikisinin maraqlarını müəyyənləşdirilib, optimal variant ortaya qoymaq olardı. Təəssüf ki, ictimaiyyətdə atanı müdafiə edənlər və qınayanlar, eyni zamanda uşağı müdafiə, xalanı əmlak üstündə ittiham edənlər kimi bir çox rəylər ortaya çıxdı. Ona görə də bu rəylərin hamısını bir kənara qoyub, tərəflər arasında vəziyyəti qiymətləndirmək lazımdır. Nə baş verir? Real vəziyyət necədir? Niyə qanunu icra edənlər əlavə resursları cəlb etmədilər - kimi ortaya çıxan suallar araşdırılmalıdır. Belə situasiyalarda uşağın müstəqil rəy qəbul etməsi üçün onun mütəxəssislərlə birgə işləməsi vacibdir. Videodan görünür ki, uşaq qəti şəkildə hələ ki xalasının yanında qalmaq istəyir. Bu da təbiidir, çünki uşaq 10 yaşına qədər onun yanında böyüyüb və hesab edir ki, ən yaxşı mühit onun üçün xalasının yanıdır. Bilirik ki, Azərbaycan mühitində belə hallarda ata haqqında kifayət qədər xoşagəlməyən rəylər söylənilir. Xüsusilə də nəzərə alsaq ki, ana rəhmətə gedib, ata evlənib və hansısa səbəblərdən övladla görüşə bilməyib".

M.Zeynalova vurğulayıb ki, bütün faktlar bir yerə toplanmalı və uyğun addımlar atılmalıdır: "Təəssüf ki, biz emosional vəziyyətimizdən irəli çıxan addımlar atırıq. Ancaq biz bir ildən sonra Nurayın vəziyyəti ilə bağlı qiymətləndirməni nəzərə almırıq. Şəxsən hesab edirdim ki, bu məsələdə xala əmlakı Nurayın adına keçirməli və 18 yaşından sonra həmin əmlaka sahib olması haqqında düşünməli idi. Lakin bu barədə müzakirə getmir. Yəni burada çoxlu situasiyalar var. Ona görə də üz-üzə görüşmək, danışıqlar aparmaq lazımdır. Bu danışıqlar isə birdəfəlik ola bilməz. Çünki bir danışıq məsələni həll etmir. Ən azı 1 ay ərzində tərəflər arasındakı münasibətləri qiymətləndirmək və məhkəmə qərarının icrasında optimal bir varianta gəlmək lazımdır. Qanun deyir ki, qəyyum atadır. Ana olmadığı halda uşağın yeganə qəyyumu atası hesab olunur. Lakin qəyyumun bu hüququndan istifadə etməsi üçün mühit necə olub? Ola bilər ki, illərlə məhkəməyə vermək olsun, ancaq bu mühiti formalaşdırmaq olmasın. Burada uşaq taleyindən söhbət gedir. Çoxlu adamlar ortaya çıxdılar, ürəkləri yandı, gedib uşaqla görüşdülər. Ancaq 1 həftədən sonra bu olmayacaq və bu zaman Nurayla bağlı kifayət qədər işlər görmək lazımdır. Emosiyalar səngidikdən sonra peşəkar yanaşma ortaya qoyulmalıdır".

Əli RAİS

YENİ MÜSAVAT
N 3 (6617) 9 yanvar 2017

Azərbaycan Respublikasının Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondu

KİVDF

www.kivdf.gov.az

**Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi haqqında həqiqətlərin dünya ictimaiyyətinə çatdırılması, Azərbaycanın ədalətli mövqeyinin müdafiə edilməsi**



# Qarabağ məsələsində Azərbaycanın 2017 prioriteti

## İşğalçı ölkəni bu il daha ağır iqtisadi böhran və sürətli emiqrasiya gözləyir; bu fonda hərbi üstünlüyümüzü saxlamaq yeni imperativə çevrilir; **erməni politoloq:** "Ermənistan saxta dövlətdir..."

**Qarabağ münaqişəsi tarixində ATƏT-in daha bir sədri dəyişdi. Yanvarın 1-dən etibarən təşkilata Avstriyanın xarici işlər naziri rəhbərlik edəcək. Bəs bu, ATƏT-in Minsk Qrupunun fəaliyyətində hansısa canlanmaya səbəb ola bilərmi? Əfsus ki, suala pozitiv cavab yoxdur.**



Birinci o səbəbə ki, təcrübə belə müvəqqəti sədrliklərin effektli olmadığını təsdiqləyib. Ona qalsa, keçən il Almaniya kimi qat-qat nüfuzlu bir dövlət ATƏT-in sədri idi. Di gəl ki, Qarabağ məsələsində heç bir irəliləyiş qeydə alınmadı, hətta sülh danışıqları daha uğursuz oldu.

İkinci yandan, Minsk Qrupunun öz həmsədrlərindən də ikisi (ABŞ və Fransa) təzədir və onların "işin içinə girməsi" üçün vaxt lazımdır. Nəhayət, üçüncü əsas səbəb odur ki, Qarabağ ixtilafının nizamlanması xeyli vaxtdır beynəlxalq qurumlardan daha çox, münaqişəyə cəlb olunmuş qlobal güclərin siyasi iradəsindən asılı vəziyyətdədir. Söhbət öncəliklə Rusiyadan gedir.

Demək, konfliktin həlli ətrafında bu il hansı gəlişmələrin baş verməsi bilavasitə Rusiya ilə bağlı və Rusiya ətrafında cərəyan edəcək proseslərdən, Kremlin Qərblə, ABŞ-la, Türkiyə ilə münasibətlərinin, Güney Qafqaz siyasətinin xarakterindən xeyli dərəcədə asılı olacaq. Azərbaycan bu prosesləri diqqətlə izləmək, qardaş Türkiyə ilə sinxron hərəkət etmək və birgə, ölçülü-biçili, çevik qərarlar qəbul eləmək zorundadır. Təbii ki, hərbi qüdrətimizi durmadan artırmaq da 1 nömrəli prioritet məsələ, hədəf olmalıdır.

*****

Bu prioritet işğalçı Ermənistanın ildən-ilə daha da zəifləməsi, taqətdən düşməsi, boşalması və orduya çağırışçı problemi ilə üzləşməsi fonunda ikiqat önəm kəsb edir. Azərbaycan aradakı bu fərqli hərbi üstünlüyümüzün durmadan böyüməsinə yönəltməyi bacarmalıdır. Ən azından bu, danışıqlar prosesində ölkəmizin daha uğurlu mövqedən çıxış etməsi deməkdir.

Ermənistanın daha ağır bir dönəmə girdiyini isə indi erməni ekspertlər də açıq etiraf edirlər. Az öncə sabiq prezident Levon Ter-Petrosyan SOS siqnalı verərək, Dağlıq Qarabağ münaqişənin həllini tezləşdirməyi, Azərbaycanla kompromislərin zəruriliyini vurğulamışdı. Əks halda, onun qənaətincə, Ermənistanın vəziyyəti ağırlaşmaqda davam edəcək.

"2016 - həm Ermənistanın xarici siyasəti, həm də daxili situasiya planında ölkə üçün böhran ili olub". Bunu isə İrəvandakı Strateji və Milli Tədqiqatlar Mərkəzinin direktoru Manvel Sərkisyan deyib. Onun sözlərinə görə, Ermənistan rəhbərliyi aprel müharibəsindən sonra hələ də düzgün nəticələr çıxarmayıb: "Söhbət Qarabağ danışıqları və diplomatiyadan, təhlükəsizlik və müdafiə sahələrində, korrupsiya ilə mübarizədə boşluqların aradan qaldırılmasından gedir. Yeni baş nazir Karen Karapetyan isə öz növbəsində yeni bir məsələ qaldırdı - kölgə iqtisadiyyatı. Bəs hər halda Ermənistan üçün əsas hansıdır - kölgə və korrupsiya ilə mübarizə, yoxsa az öncə Levon Ter-Petrosyanın qaldırdığı "Qarabağ problemi çözülmədən Ermənistan hər hansı inkişaf perspektivindən məhrumdur" məsələsi?"

Erməni politoloq özü də özünə cavab verərək, daha bir problemə toxunur: "Siyasi qüvvələrin çoxu hətta başa düşməyib ki, ölkənin problemi 25 illik müddətdə onların Ermənistanda qanuni nizamı yarada bilməməsidir - ki, hamı qanun əsasında yaşasın. Yəni 25 ildə faktiki, dövlət qurulmayıb. Bu - fake dövlətidir ("fke" - saxta -red.) Cəmiyyət, siyasi qüvvələr bunu anlamırsa, o zaman yaranmış situasiyada kimsə deyə bilər ki, Qarabağ yeganə əsas problemdir, başqa birisi Serj Sərkisyanı əsas problem saya bilər, üçüncüsü isə - partiyaları və s. Yəni hər kəs nəsə tapacaq və məhz onu əsas problem hesab edəcək. Halbuki, bunun dərkinə gəlmək lazımdır ki, biz 25 il ərzində özümüzü dövlət elan eləsək də, əslində başqa psixologiya ilı yaşamışıq - dövlətə qeyri-ciddi yanaşmaqla..."

*****

Bu arada Qarabağ konfliktinin İrəvan tərəfindən uzadılmasının ən çox elə Ermənistana ziyanı olduğunu dərk edən ermənilərin sayı artmaqdadır. Belə ki, ötən həftəsonu daha bir erməni Bakı Sülh Platformasına qoşulduğunu bəyan edib. Bu - uzun illər Sankt-Peterburqda yaşayan erməni sahibkar Erik Xaçaturovdur. Bununla da sənədi dəstəkləyən ermənilərin sayı 9-a çatıb. Ondan qabaq isə İrəvanda təqiblərə məruz qalan Tamilla Danielyan ailəsi ilə birgə Bakıya gəlməyə hazır olduğunu və Platformanı müdafiə etdiyini bildirmişdi.

Erik Xaçaturova gəlincə, o, milyonlarla erməni kimi, Ermənistanda hazırda mövcud olan faciəvi reallıqdan xilas yolunu mühacirətdə tapanlardandır. Virtualaz.org-un redaksiyasına müraciət etmiş E.Xaçaturov düşmənlik edən iki xalqın barışdırılması barədə öz fikirləri ilə bölüşmək istədiyini bildirib və açıq şəkildə sülhməramlı platformaya qoşulmaq arzusunu izhar edib.

Bundan əlavə, Xaçaturovun sözlərinə görə, sülh platforması və xalq diplomatiyası ideyası Rusiyada yaşayan ermənilər arasında böyük və səmimi dəstək qazanıb. "Ermənistan və ermənilər mənasız müharibədən beziblər", - erməni iş adamının düşüncələrinin leytmotivi belədir. Onun əminliyinə görə, Bakı Platforması hər erməni, həm də Azərbaycan xalqına firavanlıq və əmin-amanlıq gətirə bilər: "Fikrimcə, bu proqrama hər iki tərəfdən daha çox iştirakçı qoşulsa, iki xalqın barışdırılmasına doğru daha qəti və effektiv addımlar atmaq olar... Mən uzun illərdir Rusiyada yaşayıram və burada azərbaycanlılar arasında çoxlu dostlarım var. Onların çoxunu yaxın və əsl dost hesab edirəm! Ermənistan hakimiyyəti, ilk növbədə Serj Sarkisyan xalqı üçün böyük bəlaya çevrilib. Onlar sözün əsl mənasında erməni xalqını məhv edir, onun tam yox olmasına çalışırlar". Erməni iş adamı həmçinin, SSRİ dövründə Bakıda çox olduğunu deyib: "Məmnuniyyətlə ora yenidən gəlməyə hazıram. Həm sülhməramlı platformanı dəstələmək üçün, həm də çox sevdiyim şəhərdə gəzmək üçün".

*****

Beləcə, Qarabağ məsələsində xalq diplomatıyasının aktuallığı tədricən artır. Bu prosesə getdikcə daha çox sayda obyektiv düşüncəli, problemin Azərbaycanın ərazi bütövlüyü çərçivəsində həllinə tərəfdar olan ermənin qoşulması xüsusilə böyük əhəmiyyət daşıyır. Ona görə ki, onların hər biri erməni ictimai rəyinə təsir imkanına malikdir. Onlar ən azından öz yaxın çevrəsində Dağlıq Qarabağla bağlı ədalətli mövqenin formalaşmasına, Ermənistandakı kriminal Sərkisyan rejiminin isə daha sürətli ifşasına əvəzsiz töhfə verə bilərlər.



# 2016-cı ildə Ermənistanı 60 min insan tərk edib

**"Ötən il Ermənistanı 60 min nəfər tərk edib. Bu rəqəmlər əvvəlki ilin göstəricilərindən çoxdur". Bu sözləri News.am agentliyinə Ermənistan parlamentindəki Erməni Milli Konqresi fraksiyasının katibi Aram Manukyan deyib (Report).**

Onun fikrincə, 60 min insanın ölkəni tərk etməsi 2016-cı ildə Ermənistan üçün ən böyük itkidir. "Həmçinin 2 aprel hadisələri ilin ağrılı səhifəsi oldu. Təəssüf ki, hakimiyyət bundan heç bir dərs götürmədi", - deyə deputat bildirib.

Aram Manukyan qeyd edib ki, Ermənistan Polisinin PPX alayının ərazilərinin bir qrup insan tərəfindən nəzarətə götürülməsi düşüncəsiz addım olub. "2016-cıda həmçinin yeni hökumət formalaşdırılmışdı, hansı ki, əvvəlcə ümid cücərtiləri oyatdı. Lakin insanları çox tez məyus etdi. Bu hökumət heç özünü də arxayın etməyən büdcəni təqdim etdi. Bu, son 25 il ərzində ən pis büdcədir. Həmçinin nə pensiya, nə də maaşlar artırılıb", - deyə deputat əlavə edib.

Azərbaycan Respublikasının Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondunun maliyyəsi əsasında. Səhifəni hazırladı: Siyasət şöbəsi



# Türkiyə 10 il əvvəlki siyasətinə qayıdır - strateji dönüş

## Ankara və Bağdad arasında barışıq Türkiyə hakimiyyətinin yeni siyasi strategiyasından xəbər verir

**Nəhayət, gözlənilən oldu. Türkiyənin baş naziri Binali Yıldırım İraqa səfər edərək iraqlı həmkarı ilə anlaşma imzaladı, necə deyərlər, küsülülük aradan qaldırıldı. Baş nazirin Bağdad səfəri zamanı iki ölkənin yüksək səviyyəli Strateji Əməkdaşlıq Şurasının toplantısı olub. Bir sıra mühüm razılaşmalar əldə olunub. Ən mühümü isə iki ölkə hökumətləri arasında birgə bəyannamə imzalanıb.**

Sənəddə iki ölkənin bir-birinin ərazi bütövlüyünə hörmət etməsi, tarixi, dini, mədəni və yaxşı qonşuluq əlaqələrinin inkişaf etdirilməsinin qərara alındığı qeyd olunur. Bundan başqa, hər iki tərəf bir-birinin ərazi bütövlüyünə hörmət, terrorla mübarizədə qarşılıqlı dəstək verilməsi, Başika hərbi düşərgəsinin İraqa məxsus olduğu, iki ölkə arasında ticarət və iqtisadi sahədə əməkdaşlıq, terrordan əziyyət çəkən bölgələrin yenidən qurulması, birgə su mənbələrindən istifadə, İŞİD-ə qarşı əməliyyatların dəstəklənməsi, hər iki tərəf bir-birinə qarşı öz ərazisində hansısa terror təşkilatını saxlamayacağı, mədəni və sosial əlaqələrin genişləndirilməsi, məzhəbi və digər gərginliklərin aradan qaldırılmasında əməkdaşlıq və sair kimi məsələlərdə əməkdaşlıq edəcəklərini öhdəliyə alırlar.

Əlbəttə, hər iki tərəf bu görüş və danışıqlarına məmnundur. Çünki son aylara qədər iki ölkə arasında faktiki olaraq düşmənçilik mövcud olub. Siyasi liderlər arasında müharibə bəyanatlarına qədər gedib çıxıb mövzu. Məsələ ondadır ki, İraq və Türkiyə arasında əlaqələr yüksək səviyyədə olub. Ancaq 2012-ci ildə vitse-prezident Tariq Haşimi terrorçuları himayə etməkdə ittiham olunub barəsində həbs qərarı çıxarılanda Türkiyəyə qaçdı və bu hadisə iki ölkə münasibətlərinə mənfi təsir etdi. Ankara İraq hökumətini məzhəbçi siyasət yürütməkdə ittiham etdi.

2014-cü ildə İŞİD İraqın ikinci böyük şəhəri Mosulu işğal etdikdə bu hadisə yenidən iki ölkə münasibətlərinə mənfi təsir etdi. Mosulun valisi, şəhərdə müqaviməti təşkil etməyib, faktiki olaraq şəhəri İŞİD-ə təhvil verən Nuceyfinin Türkiyəyə qaçması iki ölkə münasibətlərində növbəti qara nöqtə olub. Hətta İraqda hökumət dəyişikliyi olub baş nazir postuna İbadi gəldikdən sonra da münasibətlər istiləşməyib. Əksinə, Mosul əməliyyatında şiə könüllülərin iştirakı və Başika hərbi düşərgəsi məsələsi Ankara-Bağdad münasibətlərini daha da gərginləşdirib. Ankara şiə könüllülərin Mosul əməliyyatında iştirakına qarşı çıxıb və buna görə Bağdadı hədələyib. Bağdad isə öz növbəsində Ankaradan Başikanı boşaltmasını tələb edib. Məsələyə Vaşinqton qarışdıqdan sonra tərəflər sakitləşib.

Ancaq Türkiyə hökuməti bütün umu-küsüləri bir kənara qoyaraq, regional siyasətin yenidən dizaynı çərçivəsində İraqla düşmənçiliyə son qoymaq üçün hərəkətə keçib. Dekabrın 30-da Türkiyə prezidenti ilə İraq baş naziri telefonda danışıblar və ardınca baş nazir Binali Yıldırımın Bağdada gedəcəyi elan olunub. İstənilən halda bu hadisə Türkiyə və İraq üçün yeni fürsət hesab olunmalıdır. Bu hadisə hər iki ölkənin terrora qarşı mübarizəsində ciddi irəliləyişinə səbəb olacaq. Ankarada da anlayır ki, indi regionda separatçı fəaliyyətlərin qarşısını almaq üçün legitim hökumətlərə yaxından əməkdaşlıq edilməli, birgə fəaliyyət olmalıdır. Əks təqdirdə separatçılıq və terror müharibəsi bütün region ölkələrini saracaq.

Son məlumatlara görə, artıq İraq qüvvələri Mosula daxil olaraq şəhərdə əməliyyatlara başlayıb. Bu əməliyyatların müəyyən zaman alması istisna edilməsə də, hər bir halda Bağdad və Ankaranın yaxınlaşması terrorizmə qarşı mübarizədə ciddi uğur olacaq.

Digər mühüm məsələ isə iqtisadi əlaqələrdir. İraq son illərə qədər Türkiyənin əsas ticarət tərəfdaşlarından biri idi. Türk şirkətləri İraqın yenidən bərpasında, bu ölkəyə yatırım qoyulması, ticarətdə ciddi paya sahib idilər. İraq bazarının yenidən Türkiyənin üzünə açılması Türkiyənin xarici ticarət dövriyyəsini daha da böyüdəcək, iqtisadiyyata müsbət təsir edəcək.

Ən mühüm isə, bu hadisə Türkiyənin daha əvvəl AKP hakimiyyətinin davam etdirdiyi qonşularla əməkdaşlıq və dostluq siyasəti kursuna dönüş olaraq Türkiyənin regionda mövqeyinin yenidən gücləndirilməsi, münaqişələrin həllindəki rolunu gücləndirəcək.

❑ **KƏNAN**

---



# “Fərat qalxanı”: İrəli, yoxsa geri?..

## Türkiyənin Suriya əməliyyatlarına qatılmasının iki səbəbi

**Avqustun 24-də Türkiyə ordusunun sərhədi keçərək Suriyaya daxil olması ilə başlayan “Fərat qalxanı” əməliyyatı davam edir. Hazırda Türkiyə ordusu Suriyanın şimalında İŞİD-in nəzarətində olan əl-Bab şəhərini almaq üçün əməliyyat keçirir.**

Ancaq digər məntəqələrdən fərqli olaraq əl-Babda İŞİD ciddi müqavimət göstərir və artıq bir neçə həftədir Türkiyə ordusu əl-Baba əməliyyatları davam etdirsə də, hələlik nəticə yoxdur. Bu isə istər-istəməz Türkiyədə artıq Suriya əməliyyatı ilə bağlı əks fikirlərin yüksəlməsinə səbəb olub. Bir çoxları Suriyanın Türkiyə ordusu üçün “bataqlıq” olacağını və bu səbəbdən də heç bir faydası olmayacaq əməliyyatı dayandırmağı tələb edirlər.

Qeyd edək ki, əl-Bab Türkiyə-Suriya sərhədindən 30 kilometr içəridə yerləşir. Qəsəbənin əhalisi ərəblərdir, bir neçə ildir ki, qəsəbə İŞİD-in nəzarətindədir. Avqustun 24-də sərhədi keçərək Suriyaya daxil olan Türkiyə ordusu bundan əvvəl İŞİD-in əlində olan Menbic qəsəbəsini qısa müddətdə təmizləmişdi. Hazırda Türkiyə ordusuna “Azad Suriya Ordusu” qruplaşması və digər müxalif qruplaşmalar da dəstək verir. Ancaq Cerablusdan sonra əl-Babda irəliləmə dayanıb. Artıq neçə həftədir ki, Türkiyə ordusu qəsəbə ətrafında İŞİD-lə savaşır, terrorçular əsasən canlı bomba taktikasından istifadə edərək geniş miqyaslı hücumlara imkan vermir. Havadan aparılan bombardmanlar İŞİD-ə ciddi insan itkisi yaşatsa da, effektiv deyil, üstəlik, İŞİD tərəfindən Türk ordusunun mülki əhalini öldürməsi ilə bağlı təbliğata səbəb olur.

Əl-Bab böyük yaşayış məntəqəsi olmasa da, coğrafi mövqeyi və Aralıq dənizi sahilindən - Laziqiyyədən başlayaraq Hələb və Menbicdən keçərək İraqa qədər uzanan M4 magistralının üzərində yerləşməsi əl-Babın strateji əhəmiyyətini artırır. Digər tərəfdən, əl-Bab yolu Menbic üzərindən İŞİD-in xaricdən gələn tərəfdarlarının əsas keçid yolu olub. Bu səbəbdən də həm Türkiyə ordusu və müttəfiqləri, həm də İŞİD üçün bu qəsəbə xüsusi əhəmiyyət daşıyır. Əgər əl-Bab alınmasa, ordunun irəliləməsinin mənası qalmır. Əl-Bab bir növ keçid məntəqəsi durumuna gəlib. İŞİD bu şəhərciyi 2014-cü ilin əvvəlində digər qruplaşmalarla başlayan amansız müharibələrin nəticəsində ələ keçirib.

Artıq Türkiyə ordusu əl-Babda Kobani və Hələbdə aparılan “hər küçə uğurunda savaş” taktikasına keçmək məcburiyyətindədir. Çünki daha əvvəl Cerablus qəsəbəsində İŞİD müqavimət göstərmədən çəkilmişdi, ancaq qeyd olunan və bəlkə də başqa səbəblərdən əl-Babda direniş göstərir. Üstəlik, şəhərdə hələ də on minlərlə dinc əhali var və bu da əməliyyatı daha da çətinləşdirir. Çünki İŞİD bir qayda olaraq dinc əhalidən sipər olaraq istifadə edir, silah anbarları və qərargahları dinc əhalinin sıx yaşadığı yerlərdə yerləşdirir. Türkiyə aviasiyasının əl-Babda işini çətinləşdirən də bu amildir. Çünki hər hava əməliyyatından sonra İŞİD öz informasiya resurslarından Türk ordusunun əl-Babda dinc əhalini bombaladığı və mülki əhalinin itki verməsinə səbəb olduğunu yayır.

Amerikalılar isə daha öncə də qeyd etdiyimiz kimi, əl-Babda və ümumiyyətlə Suriyadakı əməliyyatlarla bağlı Türkiyə və Rusiya arasında anlaşma olduğunu iddia edir. “Atlantik Şurası” Mərkəzinin eksperti Aaron Stein bildirib ki, əl-Babla bağlı ruslarla türklər arasında anlaşma var. Ancaq amerikalıların iddia etdiyi kimi, “Hələb əvəzinə əl-Bab” anlaşması İŞİD-in ciddi müqaviməti ilə üzləşib.

Yeri gəlmişkən, İŞİD mövqelərini bir neçə dəfə Rusiya qırıcıları bombalayıb. Mərkəzi ofisi Londonda yerləşən Suriya İnsan Haqları Müşahidə Mərkəzinin rəhbəri Rami Əbdürrəhman da ruslarla türklər arasında əl-Bab mövzusunda anlaşma olduğunu bildirib. Ancaq əl-Bab hələ də alınmadığı üçün bu iddiaların təsdiqindən danışmaq yersizdir. Ancaq bir məsələ aydındır ki, Türkiyənin Suriyaya ordu yeritməsi məhz Rusiya ilə danışıqlardan sonra başlayıb və bir illik fasilədən sonra Rusiya Türkiyə qırıcılarının Suriya hava məkanına daxil olmasına imkan verib. Türkiyənin Suriya əməliyyatında əsas hədəfi sərhəddəki İŞİD ünsürlərini təmizləmək, eləcə də Türkiyə-Suriya sərhədində böyük bir ərazidə faktiki olaraq muxtariyyət qurmuş PYD kürd qruplaşmasını təmizləmək, kürdlərin ikinci bir muxtariyyət qurmasını əngəlləməkdir.

Türkiyə Silahlı Qüvvələri isə rəsmi açıqlama yayaraq İŞİD-in apardığı qara təbliğatı təkzib edib. Türkiyə ordusu hədəflərin dəqiqliklə incələndiyini, eləcə də hava zərbələrindən sonra da aparılan araşdırmalarla mülki əhalinin hədəfə alınması ilə bağlı iddiaların doğru olmadığı, ordunun hədəfləri sırasında mülki obyektlərin olmadığı bildirilib.

Türkiyənin əl-Bab əməliyyatını, ümumiyyətlə, Suriyada hərbi əməliyyatları dayandırıb geri çəkilməsi indi əsas müzakirə mövzularından birinə çevrilib. Yuxarıda da qeyd etdiyimiz kimi, bir sıra qüvvələr, o cümlədən müxalifət hökumətin bu əməliyyatı dayandırıb daha çox Türk əsgərinin ölümünün qarşısını almasını tələb edirlər. Bu iddia hardasa savaş və Suriyadakı vəziyyətə baxdıqda müəyyən qədər məntiqi görünə bilir. Çünki Suriya indi çox qarışıq, terror müharibəsinin getdiyi bir ölkəyə çevrilib. Bu cür yerlərdə nizami orduların savaşması çətin olur. Digər tərəfdən, Suriya məsələsində Türkiyənin yenidən xarici siyasətini dizayn etdiyi bir vaxtda Ankaranın problemi diplomatik yollarla həll etməsi də mümkündür - nəzəri baxımdan. Yəni anlaşmadan sonra Suriyada Əsədin və Rusiyanın mövqeləri güclənərsə, o zaman Türkiyəni narahat edən kürd məsələsində də hansısa müsbət nəticə əldə etmək olar.

Amma burada bir neçə amil var ki, Türkiyə hökumətinin geri çəkilməsinə mane olur. Birincisi, Ankara bilir ki, Suriyada kürdləri ABŞ və Qərb ölkələri dəstəkləyir. Kürdlər yeni Suriyada İraqda olduğu kimi muxtar gücə çevriləcəklər və İŞİD-dən alınan ərazilərin böyük hissəsini tutmaqla hətta münaqişədən sonra belə Suriyanın şimalında muxtariyyət olaraq qalacaqlar. Bu isə Türkiyə üçün yolverilməzdir, PKK-nın müttəfiqi olan bir təşkilatın Suriyada muxtariyyət qurması Türkiyəyə ciddi zərbədir. Bu səbəbdən Türkiyə ilk növbədə kürd məsələsinə görə geri çəkilə bilmir.

İkinci mühüm amil Suriya müxalifətidir. Türkiyə uzun müddət bu qüvvələri dəstəkləyib və onlara hər cür yardımı göstərib. Və indi Suriyada hökumət və rusların mövqelərini möhkəmləndirdiyi bir vaxtda müxaliflərin zəifləlib küncə sıxışdırılması Türkiyənin maraqlarına cavab vermir. Çünki artıq Suriya münaqişəsi yeni formatda masaya yatırılır və bu danışıqlarda tərəf olmaq üçün gücün və nəzarət etdiyi ərazilərin böyüklüyü önəm daşıyır. Yəni yaxın zamanda başlayacaq danışıqlarda Türkiyənin dəstəklədiyi qüvvələr müəyyən əraziyə nəzarət edən silahlı gücə sahib qüvvələr olmalıdır, əks halda anlaşmada böyük pay alması mümkün deyil. Bu mənada Türkiyənin geri çəkilməsi taktiki və strateji baxımdan real və maraqlara uyğun deyil. Daha ağır zərərləri olsa belə.

❑ **Kənan RÖVŞƏNOĞLU**

YENİ MÜSAVAT
N 3 (6617) 9 yanvar 2017

# Musa Yaqub od püskürdü - “Ana dilimizi...”

## “Bu haqda danışanda dedilər ki, qadağandır, şirkət bizi öldürər”


Musa Yaqub

**Azərbaycanın görkəmli şairi Musa Yaqub dilimizdə tez-tez alınma sözlərin işlədilməsinə etirazını bildirib. Bu barədə “Yeni Müsavat”a danışan şair xüsusən də “gündəm”, “dəstək”, “yazar” və digər bu kimi sözlərin vaxtaşırı mətbuatda istifadə edilməsinə narazılıq edib.**

“Gündəm sözü bizim sözümüz deyil. Bizdə ”dəm" şəkilçisi yoxdur, “lıq-lik-luq-lük” şəkilçiləri var. Yəni “gündəm” deyil, “gündəlik” olmalıdır. Əgər “gündəm” olsaydı, onda olardı “aydəm”, “dünəndəm” və sairə. Səsimizi, sözümüzü qorumalıyıq. Məsələn, “yazar” yazırlar. Türklər belə deyir, amma bizdə yazıçıdır. Yəni sözlərimizin çox hissəsi, o cümlədən “dəyirman”, “kotan”, “xırman”, kənd təsərrüfatına aid olan bir çox sözlərin əksəriyyəti sıradan çıxır. Məsələn, “Saman altdan su yeritmək”. İndikilər nə saman, nə də xırman görür, ona görə də bilmir ki, o söz nə deməkdir. Gərək onların kökünü, ilkini biləsən. Son vaxtlar “axıntı”, “görüntü” sözlərini başqa sözlərlə dəyişirlər. Və yaxud “dəstəkləmə” sözü. Bizdə zəifə dəstək verərlər. Misal üçün, bizdə deyirlər, “a bala, get o ağaca dəstək ver, budağı qırılmasın”. Dəstəyi zəifə verirlər. Beləliklə dilimizi korladıq, xüsusilə də reklamlarla. O vaxt reklamlar rusca yazılanda biz gənclər üsyan edirdik. Məsələn, mənim yadımdadır, köhnə “26-lar bağı”nda qırmızı qazlı su satırdılar. Bir də görürdüm yazıblar ki, “voda net”. Dedim ki, niyə bu cür, “su yoxdur” yazmayıblar?" Ona görə düşdülər üstümə ki, niyə belə deyirsən. Ordan zorla qaça bildim. Amma indi reklamlar ingiliscə, rusca yazılır, heç kim də səsini çıxartmır. “Torqovıy” küçəsi deyirik, o küçəni əvvəldən axıracan düşüb baxın, görün orda Azərbaycan dilində söz tapa bilirsiz? Bütün şirkətlərin hamısı xarici dildə qeyd olunub. Amma qanunumuz var ki, xarici dil ilə yazılanda altından Azərbaycan dilində izahı olmalıdır. Bir dəfə televiziyada bu barədə deyəndə verilişin o hissəsini kəsdilər. Dedilər ki, qadağandır, şirkət bizi öldürər. Şirkət deyir ki, mən bu adla çıxmışam. A bala, olmaz axı. Gətirsin bu adı, amma altından izahı olsun. Yazırlar “petrol”, onu “neft” yaz. Nabranda bir yer var, adı “Elforum”. Bu söz nə deməkdir axı?.. Biz öz ana dilimizi qorumalıyıq", - deyə şair sərt şəkildə etirazını bildirib.

❑ **Xalidə GƏRAY**

# Çingiz Baxşıyev sabiq direktoru vətəndaşlıqdan imtina həddinə çatdırıb

## Nəqliyyat sistemində müxtəlif işlərdə çalışmış Vaqif Bəydurayev iki məmurun rüşvət tələbinin qurbanı olub; o, Ç.Baxşıyevə qarşı ilginc ittihamlar səsləndirir

**Nəqliyyat Nazirliyinin sabiq məmuru Çingiz Baxşıyevin adı 1 ildən çoxdur ki, mətbuatın gündəmindən düşmür. Evindən 50 kiloqram qızıl oğurlandığını iddia edən sabiq müşavir bu oğurluğa görə xalası oğlu Rövşən Əhmədovu həbs etdirib. Hazırda iş üzrə Bakı Ağır Cinayətlər Məhkəməsində araşdırma gedir.**

Məlum olur ki, Ç.Baxşıyevin evindən qızıl oğurlanması iddiası əslində onun qaranlıq işlərinə - ölkədən milyonlar çıxarması və digər malların daşınmasına xalası oğlunun daha şahidlik etmək istəməməsindən doğub. Ç.Baxşıyevin qohumunu həbs etdirməsi haqda “Yeni Müsavat”ın 10 may 2016-cı il tarixli sayında yazmışdıq. “Sabiq müşavir haqda sensasion məlumatlar - özəl dosye” sərlövhəli (http://musavat.com/news/olke/sabiq-mushavir-haqda-sensasion-melumatlar-ozel-dosye_34 6167 və html ttp://musavat.com/news/olke/sabiq-mushavir-haqda-sensasion-melumatlar-ozel-dosye_34 6167.html ) yazıda ətraflı məlumat verilib. Bu haqda mətbuatda çox yazılıb. Məsələnin bu tərəfi də var ki, sözügedən məhkəmə çəkişməsi başlayandan sonra Çingiz Baxşıyevin vaxtilə başına oyunlar gətirdiyi şəxslər də mətbuata üz tutublar. Onlardan biri də Vaqif Dolaş oğlu Bədurayevdir. Ali təhsilli mühəndis olan V.Bəydurayev 1972-ci ildən əmək fəaliyyətinə Sumqayıt şəhərində nəqliyyat müəssisələrindən birində başlayıb. Sərnişindaşınma idarəsində çilingərlikdən Sumqayıt Avtonəqliyyat İstehsalat Birliyinin baş direktorunun müavini vəzifəsinə qədər yüksəlib.


Çingiz Baxşıyev

Redaksiyamıza ünvanladığı məktubda V.Bəydurayev Çingiz Baxşıyevin ona qarşı qanunsuzluqlarını sadalayır: “Müstəqillik dövründə Azərbaycan dövlətinə və xalqına heç bir xidməti olmayan, Azərbaycan dilini mükəmməl bilməyən Çingiz Baxşıyev "Avtonəqliyyat servis" Departamentinə rəis gətirildi. Bundan sonra o, mənim sovet dövründəki bütün xidmətlərimin üstündən xətt çəkdi. Belə ki, mən 2010-cu ildə Sumqayıt avtovağzalında direktor vəzifəsində işləyirdim. Həmin vaxt Sumqayıt “8 saylı Regional Nəqliyyat” MMC-yə Mahir Nəbiyev rəis təyin olundu. Mahir Nəbiyev bir müddət bundan əvvəl Qəbələ rayonundan bir qrup sakinə qarşı haqsızlıq etmiş Nəbiyevlərdəndir. Nəbiyevlərin haqsızlığına dözməyən Qəbələ sakinləri əllərinə ağ bayraq götürüb Ermənistana keçmək istəyirdilər".

V.Bəydurayev yazır ki, M.Nəbiyevlə əvvəldən də tanışlığı olub: “Mahiri ”XXI əsr" avtovağzal kompleksində sahə rəisi işlədiyim vaxtdan tanıyırdım. O rəis gələndən sonra məni yanına çağıraraq mənimlə işləmək istədiyini bildirdi. Bir müddət fikirləşəndən sonra razılıq verdim. 10 noyabr 2010-cu il tarixdə avtovağzaldan işdən çıxaraq elə həmin gün 057 saylı əmrlə işə qəbul olundum. Mənə xidməti avtomaşın ayırdılar. Bir ay işlədim. 10 dekabr 2010-cu ildə Mahir Nəbiyev məni çağıraraq bildirdi ki, “bəs sənin əmrini Çingiz Baxşıyev təsdiq etmir. Səbəbini soruşanda bildirdi ki, sən maşını təhvil ver, qalanını mən həll edəcəyəm”. Bu “həll etmək” 5 aprel 2012-ci ilə qədər uzandı. Bu uzun müddət ərzində Çingiz bir neçə adamdan pulunu alaraq işə qəbul etmişdi. Bundan əlavə, onun bir neçə qohumu da idarədə məsul işlərdə işləyirdi. Mən bir neçə dəfə Çingizin qəbuluna getdim. Hər dəfə xaricdə olduğunu dedilər. Eşitdim ki, xaricdə yaşayan uşaqlarına milyonlar aparır. Mahir də ara-sıra xaricə gedirdi. Türkiyədə 30-40 min dollara ürəyinə klapan qoydururdu. Haram pullarla xarici ölkələrdə kef çəkirdilər. Mən isə evimə-ailəmə çörək pulu tapmırdım. Hiss edirdim ki, onlar məndən pul istəyirlər. Çünki işə götürdükləri hamısı pul vermişdilər. Mən hər dəfə Mahirdən bu məsələnin həll olunmasını tələb etdikdə, o bəhanələr gətirərək vaxtı uzadırdı. Nəhayət, 5 aprel 2012-ci il tarixdə təkidlə əmək kitabçamı tələb etdim. Vermək istəmədilər. Çünki əmməsi var idi. Mahir verilmiş əmrin üstündən xətt çəkərək, əmrin səhv olaraq yazıldığını imzası və möhürü ilə təsdiq etmişdi. O, bununla böyük bir cinayət etdiyini də bilirdi. Mən bu cinayətlə əlaqədar Sumqayıt Şəhər Məhkəməsinə müraciət etdim. Mahir mənə zəng edərək bildirdi ki, məhkəmə ilə məsələni həll edib. Əgər ərizəni geri götürməsən, özünü şərləyib içəri basdıracam. Buna məhəl qoymayaraq məhkəməyə müraciət etdim. Hakim Vladimir Ruvinov heç bir araşdırma aparmadan iddiamı rədd etdi. Mahirin dediyi kimi oldu. Apelyasiya Məhkəməsi də mənim iddiamı rədd etdi. Çünki Azərbaycanda məhkəmələr məmurlara xidmət edirlər. Bu haqsızlıqla əlaqədar respublikanın bütün rəhbər işçilərinə, ombudsman Elmira Suleymanovaya, Milli Məclisin sədri Oqtay Əsədova, ədliyyə naziri Fikrət Məmmədova, Konstitusiya Məhkəməsinin sədri Fərhad Abdullayevə, Sumqayıt şəhər İcra Hakimiyyətinə müraciətlər etdim, kömək istədim. Müraciətlərimin əksəriyyəti araşdırılmaq üçün rüşvətxor Çingiz Baxşıyevə göndərildi. O, özü-özünə hansı tədbir görəcəkdi? Hər dəfə mənə yazdığı cavab məktubları eyni məzmunda - "tərəfimizdən xidməti araşdırma aparılıb və sizə məlumat verilib”dən o yana keçmirdi".

V.Bəydurayev üzləşdiyi haqsızlıqlara görə Azərbaycan vətəndaşlığından çıxarılması üçün müraciət edib: “Bunun məsuliyyəti Çingiz Baxşıyev və Mahir Nəbiyevin üzərindədir. Nəzərinizə çatdırıram ki, 5 ildən çoxdur iş tapa bilmirəm. Ailəm acınacaqlı vəziyyətdə yaşayır. Xəstə həyat yoldaşımın aldığı 130 manat təqaüdlə dolana bilmirik. Çingiz isə 50 kiloqram qızılı haram pullarla yığaraq günü xarici ölkələrdə kef çəkməkdədir. Xahiş edirəm, mənə qarşı ədalətsizlik araşdırılsın və ya ölkə vətəndaşlığından çıxarılmam haqda qərar verilsin”.

❑ **E.MƏMMƏDƏLİYEV**



# Ölkə bürüyən qorxulu virusdan necə qorunmalı...

## **Adil Qeybulla:** “Yeni yayılan virusun H3N2 olması hələ dəqiq deyil, ancaq ehtimal olunur”

**Son günlər Bakıda və rayonlarda əhali arasında sürətlə yayılan kəskin qrip virusu artıq hər kəsi narahat edir. Müşahidələr göstərir ki, bu virus adi qriplərdən ağırlıq dərəcəsi ilə xeyli fərqlənir. Xəstəlik daha çox qızdırma, qusma, bel və kürək nahiyəsində ağrılar, kəskin öskürəklə müşayiət olunur. Bəs bu qrip böyüklər və uşaqlar üçün nə dərəcədə təhlükəlidir? Ondan hansı yollarla qorunmaq olar? Xəstələnmiş insanlarda müalicə necə aparılmalıdır?**

Tibb elmləri doktoru Adil Qeybulla “Yeni Müsavat”a açıqlamasında bildirdi ki, bu cür qrip virusları artıq hər il yayılır və fərqli şəkildə özünü göstərir: “Yeni yayılan virusun H3N2 olması hələ dəqiq deyil, ancaq ehtimal olunur. Əvvəla, bu virus A qrupu viruslarına aiddir və kifayət qədər təhlükəlidir. Virus həyatın qeyri-hüceyrəvi formasıdır. O regenerasiya edərək xassəsini dəyişir və dərmanların bəzən effekti olmur. Viruslar bu xassələrinə görə daim dəyişirlər. Ona görə də hər il peyda olan qrip virusları özlərini müxtəlif cür aparırlar. Zamanında ispan qripi, donuz qripi xeyli insan tələfatı ilə müşahidə olunmuşdu. Bu gün buna daha çox mövsüm qripi demək olar. Artıq insanların xeyli hissəsini əhatə edib. Qripin bu forması demək olar ki, hər il peyda olur. Bununla yanaşı nəzərə almaq lazımdır ki, yuxarı tənəffüs yollarında xeyli infeksiyalar var. Bunlar adnaviruslar, paraviruslardır. Onlar özləri də qrip əlamətləri ilə müşahidə olunan yuxarı tənəffüs yollarının iltihabına səbəb olurlar. Buna kəskin respirator xəstəlik və soyuqdəymə xəstəliyi də deyilir”.

H3N2 virusuna gəlincə, tibb elmləri doktoru diqqətə çatdırdı ki, bu A qrupu viruslar içərisində kifayət qədər narahat virusdur: “H3N2 fəsadlaşmağa meyilli, yuxarı tənəffüs yollarında iltihaba, pnevmaniya və digər orqanların zədələnməsinə səbəb olan xəstəlikdir. Ona görə də bu virusla yoluxan şəxslər bir çox qaydalara riayət etməlidir. İlk növbədə xəstəliyin yayılmaması üçün tibbi maskalardan istifadə etməlidir. Xəstə şəxslər dərhal yataq rejiminə keçirilməlidir. Müvəqqəti olaraq işə və ya dərsə getməməlidir. Bundan başqa çoxlu maye qəbul etməli və hərarəti nəzarətdə saxlamalıdır. Daha sonra həkim nəzarətində olmaq lazımdır. Bizim insanlar qrip zamanı daha çox antibiotiklərdən istifadə edirlər. Bu, qətiyyən yolverilməzdir. Antibiotikin virusa qarşı təsiri ümumiyyətlə yoxdur. Sadəcə olaraq, antibiotik immun sistemini daha da zəiflədir. Antibiotik o halda istifadə edilməlidir ki, artıq ağırlaşma var, pnevmaniya var, bakteriyalar fəallaşıb. O halda antibiotik istifadə etmək olar. Antibiotikin hədəfi virus deyil, bakteriyalardır. Ona görə də insanların aptek şəbəkələrindəki müxtəlif dərmanlardan istifadə etmələri məqsəduyğun deyil. Yalnız Parasetamol, Anti-Qrip, Qrip Hot və sair bu kimi tərkibli dərmanları həkim tövsiyəsi ilə qəbul etmək olar”.

Adil Qeybulla qeyd etdi ki, bu virus uşaqlar üçün daha təhlükəlidir: “Uşaq orqanizmi daha reaktiv olduğu üçün bu proses yüksək hərarətlə müşayiət olunur. Hərarətin çox yüksək olmasına qətiyyən yol vermək olmaz. Bu zaman uşaqlarda qıcolma əmələ gələ bilər və onun izi qalar. Ona görə də uşaq orqanizminin özəlliyini nəzərə almaq lazımdır. Uşağa çoxlu maye qəbul etdirmək lazımdır. Hərarətə ciddi nəzarət etmək, vitaminlər vermək, pediatrların tövsiyələri əsasında müəyyən möhkəmləndirici dərman preparatlarından istifadə etmək lazımdır”.

Səhiyyə Nazirliyinin baş epidemioloqu İbadulla Ağayev isə mətbuata açıqlamasında bildirib ki, ölkədə yoluxucu xəstəliklərə qarşı bütün zamanlar üçün qabaqlayıcı tədbirlər görülür: “Əgər hər hansı bir xəstəliyin kütləvi yayılması baş verərsə, qarşısını almaq mümkündür. Bu gün ölkə ərazisində kəskin respirator xəstəliklər, o cümlədən qripə yoluxma ilə bağlı epidemioloji baxımdan narahatedici vəziyyət yoxdur”.

Tibb ekspertləri isə əhalini diqqətli olmağa, ictimai yerdə tibbi maskadan istifadə etməyə və gigiyenik təmizliyə ciddi riayət etməyə səsləyirlər. Həmçinin orqanizmin immunitetini gücləndirən qidalardan istifadəni məsləhət görürlər.

❑ **Nərgiz LİFTİYEVA**

# Bakıda bir ailənin yanaraq kül olduğu yerdə "yolka" qurulub

## Faciə baş vermiş yarımçıq tikilidə hələ də 18 ailə yaşayır...

**Ötən ilin noyabr ayında bir ailənin faciəsi ilə nəticələnən yanğının baş verdiyi məcburi köçkünlərin yaşadığı yataqxanadan hələ də digər sakinlər köçürülməyiblər. Ərazidə hər şey əvvəlki halındadır. Nə təmir işləri aparılıb, nə də hansısa dəyişiklik yoxdur.**















Öncə xatırladaq ki, ötən ilin noyabr ayında, Bakının Nizami rayonunda sovet dövründən tikintisi yarımçıq qalmış yaşayış binasında baş verən yanğın qısa zamanda 4 ailənin yaşadığı 97 kvadrat metr əraziyə yayılmışdı. Dəhşətli yanğın zamanı Füzuli rayonundan məcburi köçkün ailəsinin üzvləri olan 1983-cü il təvəllüdlü Seymur Əkbər oğlu Babaşov, onun həyat yoldaşı, 1986-cı il Cəvahir Əlövsət qızı Babaşova və övladları 2005-ci il təvəllüdlü Fərhad Seymur oğlu Babaşov, 2007-ci il təvəllüdlü Elşad Seymur oğlu Babaşov yanaraq həyatlarını itirmişdilər.

Bu gün həmin ailənin üzvlərinin ölümündən 40 gün keçir. Ərazidə olduğumuz zaman acı mənzərənin şahidi olduq. Belə ki, ailənin yanaraq həyatlarını itirdikləri otağın yanmış konstruksiyalarının üzərinə qərənfillər səpilmişdi. İki azyaşlı uşağın yanmış meyitinin tapıldığı çarpayının üzərində isə yolka qurulmuşdu.

Biz ərazidə olduğumuz zaman yanğında həlak olan ailənin qohumları da orada idilər. Öyrəndik ki, Nizami Rayon İcra Hakimiyyəti tərəfindən yanğının qurbanı olan ailəyə 40 mərasimi verilir. Elə yarımçıq tikilinin qarşısında çadırlar qurulub, yas mərasimi təşkil olunmuşdu.

Yanğında həlak olan Seymur Babaşovun əmisi oğlu ilə söhbətimiz zamanı o bildirdi ki, hadisə onları çox sarsıdıb: "Hadisə bizim üçün çox ağır oldu. Bayram ərəfəsində bütün ailəmiz bu xəbərdən sarsıldı. Bir ailə tamamilə yanaraq külə döndü. Çox çətindir. Acımızı bir qədər ovutmaq üçün onların yanaraq öldükləri otağa qərənfil qoyuruq, uşaqların yatdıqları çarpayının yanğından qalan qalıqlarının üzərində yolka qurmuşuq. Nə edək? Əlimizdən nə gəlir axı? Cavan ailə idi".

Qohumları bildirdilər ki, hadisənin şokundan hələ də ayıla bilməyiblər. Ailəyə hadisədən sonra müvafiq qurumların yardım edib-etməməsinə gəlincə isə söylədilər ki, Nizami Rayon İcra Hakimiyyəti onlarla maraqlanır və yas mərasimini də özləri təşkil ediblər.

Bir məsələ də var ki, yanğın baş verən yarımçıq tikilidə hələ də 18 ailə yaşayır. Həmin ailələr Füzuli, Ağdam və digər işğal olunmuş rayonların sakinləridir. Söhbətimiz zamanı sakinlər bildirdilər ki, yanğın baş verdikdən sonra müvafiq qurumlar tərəfindən onlara digər yerlərə köçürüləcəkləri ilə bağlı məlumat verilsə də, hələlik hər hansı bir xəbər yoxdur.

Söhbət etdiyimiz yarımçıq binanın sakini Etibar Nəbiyev söylədi ki, yanğın baş verən gün əraziyə gələn Qaçqın və Məcburi Köçkünlərlə İş üzrə Dövlət Komitəsinin sədri Əli Həsənov bildirib ki, bura söküləcək və yeni bina tikiləcək: "Söylədi ki, hazırda burada məskunlaşanlara bina tikilən müddətdə başqa yerdə kirayədə qalmaları üçün ödəniş olunacaq. Bildirdilər ki, binanın tikintisi başa çatdıqdan sonra oradan bizə də mənzil veriləcək".

Yarımçıq tikili yaşamaq üçün tam yararsız vəziyyətdədir. Binanın üstü yarımçıq olduğu kimi, bünövrəsi də sağlam deyil. 1990-cı illərin əvvəllərindən burada yaşamağa məcbur olan məcburi köçkünlərin bir qismi yarımçıq binanın zirzəmisində yaşayırlar. Bu da onların səhhətləri üçün problemlər yaradır.

Sakinlərin sözlərinə görə, hava yağışlı olarkən yaşam şəraitləri bir qədər də pisləşir və nəmişlik əlindən tərpənə bilmirlər. Hündür göydələnlərin ortasında qalan bu yarımçıq tikili təhlükə mənbəyidir. Yarımçıq binaya qaz çəkilməyib, elektrik naqilləri isə olduqca köhnədir.

Elə bir ailənin faciəsi ilə nəticələnən yanğının da məhz qısa qapanmadan baş verdiyi bildirilir. Lakin bütün bunlara baxmayaraq, orada yaşayan 18 ailənin köçürülməsi hələ yubadılır və orada yenidən faciənin törənməyəcəyinə heç kim zəmanət vermir.

❑ **Əli Rais**
**Fotolar müəllifindir**

**Kişilər!!! Axırıncı şans!!!**

**İsrail təbəbəti** tətbiq edilir!
Əgər Sizə nə **Azərbaycanda**, nə də **xaricdə heç kim kömək edə bilməyibsə, onda yaxşı insanlara, aşağdakı xəstəlikləri**, keyfiyyətli, qısa müddətlə və tam müalicəsini **d-r Vaiz Səmədov apara bilər:**

* **Cinsi zəiflik, meyilin və ereksiyanın azalması tam impontensiyədək** (yaşdan və səbəbdən asılı olmayaraq)
* **Cinsi marağın** və **cinsi aktların** azalması
* **Vaxtından tez** toxum **ifrazatı** (səbəbdən asılı olmayaraq)
* **Toy gecəsinin** uğursuzluqları **(kişi tibbi problemlər)**
* **Prostatitlər.** Prostat vəzin **böyüməsi** və ya **kiçilməsi**
* **Prostat adenoması** *(vəzidə düyünlərin əmələ gəlməsi)*
* **Cinsi vəzilərin**-xayaların **böyünməsi** və ya **kiçilməsi**
* **Qasıq-xayalıqda** sızıltı, küt və ya kəskin **ağrılar**
* Əvvəldən **xarici cinsi üzvün** balaca olması
* **Xarici cinsi üzvün** sonradan **birdən kiçilməsi**
* **Cinsi üzvün** düyünlə birdən **əyilməsi** (Peyroni xəstəl.)
* **Oğlan uşaqlarında cinsiyyət üzvlərinin inkişafsızlığı**
* **Uşaqlarda** gecə vaxtı **yerinə sidiyə getməsi** (***enurez***)
* Hormonal və iltihablı **sonsuzluq** (kişilər və qadınlarda da)
* **Yuxusuzluq və yuxu pozuntuları**
* Sidik aktlarının gecə ya **gündüz tez-tez olması**
* Sidik aktlarının çətinlikləri və tutulmaları
* Cinsi aktla bağlı **sidikdə** və **spermada qan olması**
* **Zöhrəvi xəstəliklərdən** sonra **qalıqlar və ağırlaşmalar**
* **Saçların** bütün formalatda **tökülməsi. Sızanaqlar**
* **Yuxuda ikən və yuxudan qalxanda qan təzyiqinin yüksək qalxması**
* **Boyun, baş, bel, ayaq ağrıları və osteoxondroz**
* Onurğa sütununun yırtığı, qulunclanın dərmansız müalicəsi

Həkimə zəng etmək üçün (saat 11.00-dan sonra)
**Tel: (050) 213 88-05.**
**Həkimin 16 TV çıxışları: youtube.com və facebook.com doktor Vaiz Səmədov.**

# Azərbaycanda online alver dönəmi bitir?

## Yeni vergi tətbiqi bu sahəni sıradan çıxara bilər; online alver barədə bilmədiklərimiz

**Xəbər verdiyimiz kimi, Vergilər Nazirliyinin yeni ƏDV-si gəlir. Belə ki, "Amazon", "E-bay", "Alibaba", o cümlədən digər xarici saytlarda internet üzərindən alış-veriş aparan Azərbaycan vətəndaşları indən belə dövlətə vergi ödəməli ola bilərlər.**

Nazirlik elektron ticarəti vergiyə cəlb etməyə hazırlaşır. Daha doğrusu, nazirlik artıq öz təkliflərini parlamentə göndərib. Nazirliyin mətbuat xidmətindən daha öncə mediaya açıqlama verilib ki, "Elektron ticarət haqqında" qanunda dəyişikliklər haqqında sənəd hazırlanıb.

Bu sənəddə elektron ticarətlə alış-veriş edənlərin Əlavə Dəyər Vergisi (ƏDV) ödəməsi nəzərdə tutulur. Nazirliyin mətbuat xidməti mexanizmlərin, hələ hazır olmadığını, detalların yaxınlarda bilinəcəyini bildirir: "Layihəyə iş və xidmətlərin elektron ticarət qaydasında təqdim edilməsinə, elektron qaydada təşkil olunan lotereyaların, digər yarış və müsabiqələrin keçirilməsinə görə ƏDV-nin alıcısının olduğu yerdə vergiyə cəlb edilməsinə dair müddəa daxil edilib. Buna əsasən, vergi orqanlarında uçotda olmayan şəxslər tərəfindən ödənişlər aparılarkən, yerli bank, xarici bankın Azərbaycandakı filialları və ya poçt rabitəsinin milli operatoru tərəfindən qeyri-rezidentə ödənilməli olan məbləğə ƏDV hesablanmalı, alıcının vəsaiti hesabına tutulmalı və büdcəyə ödənilməlidir".

Son illər Azərbaycanda da online alış-veriş saytlarının sayı çoxalıb. Tezbazar.az, bazarlıq.com, bazarolsun.com, bizimmarket.com, bookstore.com, ekskluziv.az, ququ.com, eniqma.az, torg.az, florist.az, ae-magaza.com, shop.az, topshop.az, gerek.az, fulal.com tipli saytlar tez-tez sosial şəbəkədən bizlərə boylanır. Artıq milli adlanan bu saytlarla yanaşı, Türkiyə və Rusiya saytlarında da sözügedən xidmətlər populyardır və milli alıcılar onlara da müraciət edirlər.

Amma dünya üzrə məşhur olan online alış-veriş saytları amazon və ebay-dır. Bundan başqa olanlar əsasən lokal ərazilərdə tanınan saytlardır və ölkələr-bölgələr üzrə kifayət qədər tanınmış saytlar var. dhgate.com saytı da bu qəbildəndir. Amma orda əsasən Çin mallarıdır. Çinin ən böyük elektron alış-veriş portaldır. Burada bir mal-a baxdıqda onun hansı express-lə göndəriləcəyi və qiyməti yazılır. SpiderBuy.com saytında da qiymətlər amazon və ebayla rəqabətdədir.

### Daha öncə durum bu formada idi...

Bəs daha öncə durum necə idi? Rabitə və İnformasiya Texnologiyaları Nazirliyinin rəsmi saytında da yer almışdı ki, sözügedən həcmin artım tendensiyası, e-ticarətə müraciət edənlərin sayının sürətlə çoxalması ölkə rəhbərliyinin diqqətini cəlb edib və bu sahədə vətəndaşlarımızın rahatlığının təmin edilməsi və maddi maraqlarının qorunması istiqamətində Azərbaycan hökuməti tərəfindən mühüm addım atılıb. Belə ki, elektron ticarət yolu ilə daha qiymətli mal və əşyaların gətirilməsinə şərait yaratmaq məqsədilə müvafiq gömrük qaydaları yenidən işlənib. Bununla bağlı Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2013-cü il 14 oktyabr tarixli 305 nömrəli qərarı ilə "Fiziki şəxslər tərəfindən istehsal, yaxud kommersiya məqsədləri üçün nəzərdə tutulmayan malların gömrük sərhədindən keçirilməsinin güzəştli və sadələşdirilmiş qaydaları" təsdiq edilib.

Yeni qaydalarda öz əksini tapmış əsas prinsipial məqamlardan biri də ondan ibarətdir ki, beynəlxalq poçt göndərişləri vasitəsilə eyni fiziki şəxsin adına 30 gün müddətində ümumi gömrük dəyəri 1000 ABŞ dolları ekvivalenti məbləğindən artıq olmayan gömrük ərazisinə gətirilən qeyri-kommersiya, yaxud qeyri-istehsal xarakterli mallar güzəştli qaydada (gömrük ödənişlərini ödəmədən) gömrük sərhədindən keçirilməklə poçt vasitəsilə gətirilə bilər.

Məlumdur ki, əvvəllər bu güzəştin məbləği 200 ABŞ dolları ekvivalenti təşkil edib. Digər bir yenilik isə ondan ibarətdir ki, əgər gətirilən malın dəyəri təyin olunmuş həddi (1000 ABŞ dollarını) aşarsa, gömrük rüsumu yalnız həmin həddən artıq olan məbləğə tətbiq ediləcək. Bundan əvvəlki qaydalara görə isə, gömrük rüsumu dəyəri 200 ABŞ dollarından yuxarı olan malın tam dəyərinə tətbiq edilirdi. Sözügedən dəyişikliklər vətəndaşlara daha böyük imkanlar yaratmaqla onların vəsaitlərinə qənaət etməsinə gətirib çıxardıb. Bu qərar artıq cari ilin noyabr ayının 27-dən qüvvəyə minib. Hesab edilir ki, vətəndaşların hökumətin onlar üçün yaratdığı bu imkanlar barəsində məlumatlarının artması alış-veriş zamanı elektron ticarətə üstünlük verəcək, bu da öz növbəsində poçt göndərişlərinin həcminin daha da artmasına təsir edəcəkdir.

Bu sahədə poçt müəssisələrinin üzərinə də ciddi vəzifələr düşür. Poçt müəssisələrinə daxil olan beynəlxalq göndərişin üzərində alıcının telefon nömrəsi olduqda həmin nömrəyə operativ olaraq "SMS-bildiriş" göndərilir və bildirişdə vətəndaşın adına poçt göndərişinin daxil olması və göndərişi almaq üçün xidmət göstərən poçt şöbəsinə müraciət etməyin zəruriliyi barədə məlumat verilir. Yeni xidmətin tətbiqi artıq ilk müsbət nəticələrini verib və beynəlxalq kiçik paket və bağlamaların çatdırılmasını xeyli dərəcədə sürətləndirib.




### Sən bir şey sifariş edirsən, başqa şey göndərilir

Bu günlərdə sosial şəbəkədə online alış-verişin fəsadları ilə bağlı maraqlı bir fotosessiya paylaşılmışdı. Həmin fotosessiyada insanlara online alver saytlarında təqdim edilən parıltılı paltarların sifariş verilib, ünvana çatdırılandan sonrakı görüntüləri təqdim edilmişdi. Yəni ki, müxtəlif effektlərin və onları daşıyan manekenlərin köməyi ilə olduqca cəlbedici görünən paltarların sifarişdən sonra... "ağlamalı" görüntüsü hər kəsi şoka salmışdı. Əslində isə problem təkcə bu görüntünün pisliyində deyil. Onlayn alış-verişin müsbət cəhətləri ilə yanaşı inanılmaz fəsadları da var. Onları yaşamamaq üçün aşağıdakıları nəzərə almaq lazımdır.

### Alış-veriş saytı haqda araşdırma aparın

Online alış-veriş edəcəyiniz saytın kimə aid olduğu və nə qədər müddətdir fəaliyyətdə olduğuna dair bir araşdırma aparın.

1. Saytın rəsmi qeydiyyatının olması, etibarlılıq dərəcəsini isə onun "əlaqə" bölməsini araşdırmaqla müəyyənləşdirmək mümkündür. Heç bir halda tanınmamış, adı duyulmamış, məşhur olmayan saytlardan alış-veriş etmək olmaz.

2. İstifadəçilərin rəyləri ilə tanış olun. Alış-veriş etmədən öncə forumlarda və ya sosial şəbəkələrdə o markaya aid paylaşılan məlumatları oxuyun, istifadəçi rəyləri ilə tanış olun. Bununla dad aha öncəki təcrübələri oxuyub, özünüz üçün müəyyən nəticələr çıxara bilərsiz.

3.SSL sertifikatı olub-olmadığını yoxlayın. Online alış-veriş xidməti təqdim edən bütün saytlar dünya miqyasında kredit kartı etibarlılığı üçün bir standart olan SSL sertifikatından istifadə etməyə məcburdur. SSL sertifikatı olmadan heç bir bankdan onlayn pos almaq imkanı yoxdur. Saytın bu sertifikata sahib olub olmadığını mütləq yoxlayın.

4. Ortaq kompüterləri istifadə etməyin. Ortaq istifadə edilən kompüterlərdən alış-veriş etməyin. Bu kompüterlər üzərindən kredit kartı və şəxsi məlumatlarınızı əsla paylaşmayın.

5. Asan təxmin edilə bilməyəcək bir şifrə seçin. Online alış-veriş üçün bir sayta üzv olarkən başqaları tərəfindən asanlıqla təxmin edilə bilməyəcək bir şifrə seçməyə çalışın.

6. Uzaqdan məsafəli müqavilə yoxdursa... Online alış-veriş saytları uzaqdan məsafəli satış müqaviləsi və ön məlumatlandırma formulu təqdim etməkdədir. Əgər alış-veriş həyata keçirən e -ticaret şirkəti bu müqaviləni təqdim etmirsə, bu saytlardan alış-veriş etməyin.

7. Qiymətlərlə bağlı məlumatlara diqqət edin. Alış-etdiyiniz saytdakı məhsulların qiymətləri sizə inandırıcı gəlmirsə, şübhələrinizi ciddiyə alın, araşdırma aparın. Saytda göstərilən qiymət isə məhsulu online səbətə atdığınız zaman görünən qiymətin eyni olub-olmadığına nəzarət edin.

8. 3D ödəmə sistemindən istifadə edin. 3D ödəmə sistemi (şifrəli ödəmə), e-ticaret əməliyyatlarının etibarlılığını artırmaq məqsədilə inkişaf etdirilmiş özəl bir sistemdir. Daha dəqiq desək, həm satıcı, həm də alıcı üçün qoruyucu bir etibarlılıq mərhələsidir. Ona görə də 3D ödəmə variantını təqdim edən saytları seçin.

9. Fırıldaqçı online alverçilər daha çox arıqlamaq üçün vasitələr, ucuz kosmetika və işlənmiş elektronika təklif edir. Bir çox hallarda tanınmış firmaların mallarının saxtasını təklif edirlər.

10. Alacağınız malın haqqında təsnifatlı məlumat öyrənin, çünki malı bəyənmədiyiniz təqdirdə geri qaytarmaq üçün tutarlı əsaslarınız olmalır.

### Dünya evdən çıxmadan alış-veriş etməyə çalışır

Bundan başqa, mütəxəssislər qeyd edir ki, saytda online ödəmə edərkən ödəmə etdiyiniz bölməni tıklayanda saytın üzərində deyil, kənardan əlavə səhifə açılırsa ödəmə etməyin. Ödəmə səhifəsi dərhal açılmamalıdır, açılma prosesi saytın yüklənməsi prosesi kimi olmalıdır.

Yuxarıda sadaladığımız saytlarda təklif olunan mallar əsasən geyimlər, elektronika malları, ev əşyaları, mətbəx avadanlıqları, aksesuarlar, gəlinliklər, qızıl və gümüş əşyalar, şirniyyat, bəzi növ dərmanlar, məlhəmlər, ətirlər, kosmetika, kitablar, disklər, ev, maşın və daşınmaz əmlak, uşaq əşyaları, musiqi alətləri, velosiped və bu tipdən bir çox əşyalardır. Bəzi saytlarda (bazarolsun.com) hətta ev heyvanlarının alış-verişi də təklif olunur.

Dünyada isə elektron ticarət çox inkişaf edib. Rəqəmlərə inansaq, 2012-ci ildə Qərbi Avropada internet vasitəsilə satılan mal və xidmətlərin ümumi məbləği 160 milyard avroya yaxın olduğu halda, 2013-cü ildə 175 milyard avroya, 2014-cü ildə isə 190 milyarda çatıb. İl ərzində regionda 100 milyondan çox istehlakçı ən azı bir dəfə online alış-veriş edir. Böyük Britaniya, İrlandiya, Fransa, Belçika, Niderland və Lüksemburq kimi ölkələrin daxil olduğu Qərbi Avropa ticarət baxımından qitənin vacib regionu hesab olunur. Belə ki, Qərbi Avropanın ümumavropa bazarında payı 51 faiz təşkil edir. Elektron ticarətdə ən yüksək göstəriciləri Böyük Britaniya nümayiş etdirir. Reytinqdə ikinci və üçüncü yerləri Fransa və Niderland tutur. Avropada elektron ticarət bazarının ən sürətli inkişafı İrlandiyada müşahidə olunur. Bu ölkədə onlayn ticarətin həcmi ildə orta hesabla 25 faiz artaraq 5 milyard avroya çatıb. Lakin qeyd etmək lazımdır ki, irlandiyalıların internetlə etdikləri alış-verişin təxminən dörddə bir hissəsi xarici mağazaların payına düşür. Belçikanın elektron ticarət bazarında artım 20 faizə bərabərdir, lakin burada satış həcmi nisbətən azdır. Qərbi Avropada elektron ticarətin yüksək səviyyədə inkişaf etməsinin səbəblərindən biri kimi internetin nüfuzetmə səviyyəsi göstərilir. Region əhalisinin 83 faizi daimi internetə çıxış imkanına malikdir.

❑ **Sevinc TELMANQIZI**

# YENİ MÜSAVAT

Son səhifə

N 3 (6617) 9 yanvar 2017




## Uşağın 5 yaşadək danışdığı yalan... yalan sayılmır

Kanadalı alimlər müəyyənləşdiriblər ki, çox vaxt uşaqları yalan söyləməyə vadar edən səbəblərdən ən əsası ailədaxili münasibətlərdir. Uşaqlar valideynlərdən çəkindikləri üçün yalan danışırlar. Bəzən də sərbəst olmaq üçün yalanı istifadə edirlər.

3-4 yaşındakı uşaqların tez-tez söylədikləri yalanlar əslində yalan sayılmır. Bu yalanlar oyun məqsədi ilə söylənilir. 5 yaşına çatmayan uşağın yalan danışması valideynlərini narahat etməməlidir. Doğru danışmağa meyil uşaqda tədricən inkişaf edir. Bundan başqa, valideynlərə də məsləhət görülür ki, uşağı yalan danışdığını bildiyi halda həyəcanlanmasın. Uşaq 5 yaşına çatanda yenə də yalan söyləyirsə, ananın uşağa "sən mənə həqiqəti söyləyənə qədər səni gözləyəcəyəm" deməsi lazımdır.

Sərt cəzalarsa uşaqları daha çox yalan danışmağa sövq edir. Uşaq özünə aid olmayan hadisələrə özünün xəyal gücünü də qataraq yalandan hekayələr uydurur. Onlarda yalan danışmağın qarşısını almaq üçün öncə yalanın növünü müəyyən etmək lazımdır. Yalan danışmağa vadar edən səbəblər məlum olandan sonra təhlil edilməlidir.

## Bədii yaradıcılıq insanı xoşbəxt edir

**Yeni Zelandiyanın psixoloqları müəyyənləşdiriblər ki, bədii yaradıcılıqla məşğul olmaq daim insanı xoşbəxt edir. "Journal of Positive Psychology"da çap olunan bu məqalədə bədii yaradıcılığın və kreativliyin insanı xoşbəxt etdiyi əsaslandırılıb. Bu araşdırmaya rəhbərlik edən Otaqa universitetinin mütəxəssisi Tamlin Koner bildirib ki, kreativlik insanın emosional hisslərinə təsir edə bilir. Koner və onun həmkarları bu fikrə 600-ə yaxın insanı araşdıraraq gəliblər. Bu insanlardan gündəlik tutmaları və bunun nəticəsini araşdırma komandasına bildirmək xahiş olunub. Məlum olub ki, bu hərəkət iki həftə ərzində həmin insanların davranışlarına, emosiyalarına təsir edib.**




14 gün sonra bu gündəlikləri toplayan psixoloqlar hansı emosiyaların insanın həyatında faktor olduğunu müəyyənləşdirməyə çalışıblar. Belə məlum olub ki, həyatında nə isə məşğuliyyəti olan insanlar daha aktiv və xoşbəxtdirlər. Bu məşğuliyyətlər sırasına kulinariya, poeziya, rəssamlıq, tikiş və ya toxuculuq, kitab yazmaq, kompüter işi və bəstəkarlıq daxildir.

Psixoloqlar hesab edirlər ki, belə yaradıcılıqla məşğul olmaq insanda stressi azaldır, xəstəliklərin sayını artmağa qoymur və insanları daim formada saxlayır. Alimlər bildiriblər ki, hökumətlərin xüsusi bir sosial proqramı olmalıdır ki, insanlar rahat şəkildə bu kimi işlərlə məşğul ola bilsinlər.

## Optimist insanlar daha az xəstələnir



**Optimistlər, yəni nikbin ruhlu insanlar daha az xəstələnirlər və ağrını daha zəif hiss edirlər. Amerika Birləşmiş Ştatlarının Pitsburq Universitetinin araşdırmaları nəticəsində məlum olub ki, həyatın çətinliklərinə nisbətən yüngül yanaşanlar bədbin və əsəbi insanlara nisbətən viruslu infeksiyalara 3 dəfə az yoluxurlar. Alimlər hətta eksperiment də keçiriblər. Onlar üzərində təcrübə keçirdikləri insanları qəsdən virusa yoluxdurublar. Optimistlərin əksəriyyətinin immuniteti virusa qalib gəlib. Pessimistlər isə bərk xəstələniblər.**

Başqa bir araşdırma daha sensasiyalı nəticə verib. Sən demə, eyni zədə almış optimist və pessimistlər ağrını müxtəlif cür hiss edirlər. Gələcəyə böyük ümidlərlə, nikbinliklə baxan insanlar ağrını zəif hiss etdikləri halda, bədbin olanlar bərk ağrılardan şikayətlənirlər. Əhval-ruhiyyəsi yüksək olan adamlar cərrahiyyə əməliyyatları və travmalardan sonra da daha tez sağalır, nadir hallarda xərçəng və infarkta düçar olurlar. Yel Universitetinin araşdırmaları isə göstərib ki, qocalıqdan qorxmayan və qocalma əlamətlərini təbii, normal və qarşısıalınmaz bir proses kimi qəbul edənlər digərlərinə nisbətən daha gec qocalır və çox yaşayırlar. Ümumilikdə isə yaxşı əhval insan ömrünü minimum 7 il uzada bilər.




**QOÇ** - Yeni simalarla, xoş təsadüflərlə rastlaşma ehtimalınız böyükdür. Hətta bir neçə sürpriz də mümkündür. Saat 19-dan sonra bütün təkliflərdən imtina edin, hətta xeyirli görünsə də.

**BUĞA** - Günün ilk yarısında mümkün qədər ehtiyatlı olun. Çünki sizə qarşı təxribat hazırlandığı güman olunur. Nahardan sonrakı ərəfəni isə bütünlüklə ailə-sevgi məsələlərinə həsr edin.

**ƏKİZLƏR** - Gecə saatlarından mənfi yüklü Ay bürcünüzdə qərar tutduğu üçün yeni, riskli və ağlınız kəsməyən işlərdən imtina etməlisiniz. Hər bir addımı məntiqli və ağıllı atın. Mübahisəyə zəmin yaratmayın.

**XƏRÇƏNG** - Şəxsi işlərinizdə əsaslı dönüşə başlamaq istəyirsinizsə, bu təqvimdən yararlanın. Təcrübəli adamların məsləhətindən nəticə çıxarın. Həmkarlarınızla səmimi davranın. Sürprizlər gözlənilir.

**ŞİR** - Təzə xəbərlər yolunuzu gözləyir. Ola bilsin ki, səfərə də çıxasınız. Ümumiyyətlə, bu gün uzaqda yaşayan doğmalarınızla mütləq əlaqə saxlamalısınız. Ədalət prinsiplərindən çıxmayın.

**QIZ** - Kifayət qədər uğurlu gündür. Nəzərdə tutduğunuz bütün ədalətli planların reallaşacağı gözlənilir. Qonaq getmək ehtimalınız da var. Amma gərək gecəni öz evinizdə keçirəsiniz.

**TƏRƏZİ** - Yalnız istirahətə aludə olun. Hər hansı fəaliyyət və ya riskli sövdələşmə zərərinizə ola bilər. Özünüzü hər hansı münaqişələrdən qoruyun. Nahardan sonra qonaq getməyə dəyər.

**ƏQRƏB** - Maraqlı bir gün yaşayacaqsınız. Ətrafınızda olan hər şey ürəyinizcə olacaq. Ulduzlar günün ikinci yarısını gəzinti və əyləncələrə, qonaqlıqlara həsr etməyinizi tövsiyə edir.

**OXATAN** - Göy qübbəsi bu təqvimdə bütün külli-ixtiyarı öz əlinizə verəcək. Deməli, proseslərin inkişafı çıxardığınız qərarlardan asılı olacaq. Ədalətli addımlar atın, Tanrı hökmünü unutmayın!

**OĞLAQ** - Yeni əlaqələrə başlamaq üçün şanslı ərəfədir. Çalışın ki, təşəbbüskarlığı əldən verməyəsiniz. Nahardan sonra aldığınız bütün təkliflərə razılıq verin. Riskdən qorxmayın.

**SUTÖKƏN** - Sağlamlığınıza zidd işlər görməyiniz ümumi əhvalınızda passivlik yarada bilər. Odur ki, səhhətinizə qarşı diqqətli olun. Yeni planlarınızı bir daha götür-qoy edin. Sədəqə verməkdən çəkinməyin.

**BALIQLAR** - Fəaliyyət zəminində böyük uğurlara gedən yolu tapacaqsınız. Buna görə də hər şeyi dəfələrlə ölçüb-biçin. Asudə vaxtlarınızı isə xilas mənbəyiniz olan məhəbbətə həsr edin.

**Unutmayın, Tanrı ulduzlardan daha yüksəkdə durur!**

## Az yatanlar daha çox kalori alır



**Yuxusuz qalmaq, sadəcə, ertəsi gün yorğunluğa səbəb olmur. O, eyni zamanda, insanın daha çox yeməsinə və uzun müddət davam edərsə, piylənməyə də gətirib çıxarır. ABŞ-dakı klinikalardan birində aparılan araşdırma az yatanların gün ərzində daha çox kalori aldığını ortaya çıxarıb. Araşdırmaya qoşulanların yarısı normal müddətdə yatdıqları halda, digər yarısı isə bu müddətin üçdə ikisi qədər yatırdılar.**

Yuxunun leptin və qrelin hormonları üzərində təsiri olub-olmadığı gözlənilirdi. Araşdırma müddətində digərlərindən 1 saat 20 dəqiqə az yatan adamlar orta hesabla 549 kalori daha çox alıblar. Tədqiqatı aparan mütəxəssislər piylənmə və yuxu ilə bağlı əlaqənin diqqətçəkən məqamları olduğunu bildirirlər. Doktor Andryu Kalvinin sözlərinə görə, insanlar özləri də bunu az yatdıqları günlərdə müşahidə edə bilərlər.

Səhifəni hazırladı: SELCAN


Təsisçi: Rauf ARİFOĞLU
Baş redaktorun birinci müavini: Azər AYXAN

e-mail adres: yenimusavat@mail.ru

"Yeni Müsavat"ın kompüter mərkəzində yığılıb, səhifələnib, "E-Q" mətbəəsində çap edilib. Əlyazmalar geri qaytarılmır. Müəlliflərlə redaksiyanın mövqeyi uyğun gəlməyə bilər.

Ünvan: Bakı şəhəri, R.Rüstəmov küçəsi 2528-ci məhəllə ev 44/d
Tel: 520 01 23 (24, 25, 26, 27, 28)

Redaktor: Zahid SƏFƏROĞLU

Lisenziya N: B 114
SAYI: 5.100